Xalqın qəzeti!

# Xalq qəzeti

№ 238 (30354) 31 oktyabr 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham ƏLİYEV:**

**Azərbaycan musiqi sənəti çox zəngindir, dünya miqyasında tanınır. Milli musiqi Azərbaycan xalqının istedadını göstərir, nə qədər istedadlı xalq olduğumuzu dünyaya nümayiş etdirir. Milli ənənələrimizin qorunması üçün milli musiqimizin çox böyük yeri vardır. Bundan sonra da bu gözəl ənənələr davam edəcəkdir.**

# Azərbaycan musiqi təntənəsinə bürünüb

## *Ölkədə ilk Musiqi Forumu Heydər Əliyevin 100 illiyinə həsr olunub*



**Oktyabrın 29-da ölkəmizdə 3 günlük Musiqi Forumu başlanıb. Musiqi təntənələri Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub. Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası, Azərbaycan Milli Konservatoriyası, Dövlət Mədəniyyət və İncəsənət Universiteti və Azərbaycan Bəstəkarlar İttifaqının dəstəyi ilə gerçəkləşən forumun açılış mərasimi paytaxtımızdakı "Gülüstan" Sarayında keçirilib.**

Forumun açılış mərasimində Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərah Əliyeva, millət vəkilləri, tanınmış mədəniyyət və incəsənət xadimləri və digər qonaqlar iştirak ediblər. Tədbirdə çıxış edən mədəniyyət naziri Adil Kərimli qeyd edib ki, il ərzində Ulu öndərin 100 illiyinə həsr olunmuş teatr, kino və Azərbaycan dili və ədəbiyyat forumları keçirilib. Bu da növbəti analoji tədbirdir. Ulu öndər Heydər Əliyev respublikaya rəhbərlik etdiyi hər iki dönəmdə bütün sahələrlə yanaşı, musiqi sənətinə də xüsusi qayğı və diqqət göstərib. Onun peşəkar musiqinin inkişafı ilə bağlı imzaladığı sənədlər, musiqiçilərin həyat və yaradıcılığı ilə yaxından maraqlanması, onlara göstərdiyi xüsusi qayğı bu gün də öz bəhrəsini verir. Ona görə də Ulu öndərin 100 illiyi çərçivəsində Musiqi Forumunun təşkil edilməsinin çox böyük önəmi var".

*(ardı 10-cu səhifədə)*

# BTC ilə Türkiyə ərazisindən 171 milyon 676 min barel neft nəql edilib



**Türkiyənin borularla nəqletmə operatoru olan "BOTAŞ" şirkətinin yaydığı məlumata əsasən, cari ilin yanvar–sentyabr aylarında qardaş ölkə ərazisi ilə Bakı–Tbilisi–Ceyhan (BTC) kəməri vasitəsilə 171 milyon 676 min barel neft nəql edilib ki, bu da illik müqayisədə 4,44 faiz çoxdur.**

Məlumata görə, ötən ilin müvafiq dövründə BTC vasitəsilə Türkiyə ərazisi ilə 164 milyon 379 min barel neft nəql edilib. Qeyd edək ki, 2022-ci ildə Türkiyə ərazisi ilə BTC kəməri vasitəsilə 225 milyon 445 min barel neft nəql edilib ki, bu da illik müqayisədə 12,64 faiz çox olub.

*(ardı 7-ci səhifədə)*

# "Demokratik" Ermənistanda 50-dən çox siyasi məhbus var

**Azərbaycan Ordusunun sentyabrın 19–20-də ölkəmizin Qarabağ iqtisadi rayonunun separatçı xunta rejiminin nəzarətində olan ərazilərində keçirdiyi lokal xarakterli antiterror tədbirləri Ermənistanda etiraz aksiyalarının keçirilməsi ilə müşayiət olundu.**

Paytaxt İrəvanda küçələrə çıxan insanlar Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində öz suverenliyini bərpa etməsinə qarşı əsassız ittihamlar irəli sürdülər. Müxalifət isə hadisələrə kortəbii etirazlarını bildirən kütlələri mütəşəkkilləşdirmək, onlardan öz mənafeyi üçün istifadə etmək istədi. Bu məqsədlə konkret ünvanlarda bəlli saatlarda mitinqlər təyin edildi. Ancaq Nikol Paşinyan iqtidarı sərt mövqe tutaraq, ilk günlərdə icazəli aksiyaları dağıtdı, iştirakçıları həbs etdirdi. Sonrakı günlərdə icazəli aksiyalara çıxanların sayı isə get-gedə azaldı. Beləliklə, etiraz aksiyaları sentyabrın sonunadək fiaskoya uğradı.

Ancaq sentyabrın 19-da başlanan aksiyalarda həbs olunanlar hələ də azadlığa buraxılmayıblar. Söhbət 18–25 yaş arasında olan 44 erməni gəncindən gedir. Bununla bağlı "Qolos Armenii" qəzetində dərc olunmuş yazıda qeyd edilir ki, onların əksəriyyəti son bir ayda tədris prosesindən xeyli geri qalan tələbələrdir. Vəkil Ovanes Xudoyan bildirib ki, əgər bu həbslər 5 il əvvəl baş versəydi, "Vətəndaş cəmiyyəti" adlanan təbəqənin nümayəndələri bütün dünyada hay-küy salardılar. Bu gün isə erməni cəmiyyəti susur: "Yüzlərlə həmyaşıdları arasında bu 44 fəal sentyabrın 19-da hökumət binası yaxınlığında keçirilən mitinqdə, eləcə də sonrakı günlərdə küçələrin blokadaya alınmasında iştirak etdiklərinə görə saxlanılıblar. Saxlanıldıqdan sonra barələrində həbs-qətimkan tədbiri seçilib və onlar hələ də həbsdədirlər.

*(ardı 6-cı səhifədə)*

# İrəvan itirəcəklərinin fərqində deyil

**2023-cü ilin Hayastan baş naziri Paşinyan üçün hakimiyyətdə olduğu 5 il müddətində ən həlledici mərhələ kimi yadda qalacağı şübhəsizdir. Bütün müstəvilərdə üzləşdiyi reallıq ondan xəbər verir ki, o, ölkəsini düşdüyü siyasi-iqtisadi dalandan çıxarmaq, sabit inkişaf yoluna salmaqdan ötrü məhz bu ilin sonunadək qətiyyətli qərarlar qəbul etməlidir. Əgər Paşinyan sələflərindən fərqli olaraq, Ermənistanın gələcəyi ilə bağlı ciddi düşünürsə, bu halda, Azərbaycanla sülh sazişinin imzalanmasını ləngitməməlidir. Bakı hələ ilin əvvəlində yeni təşəbbüslərin yer aldığı sülh paketini danışıqlar masası üzərinə qoyub. İntəhası, Paşinyan iqtidarı həmin təşəbbüslərin heç də sonsuzluğa qədər danışıqlar masasının üzərində qalmayacağını anlamalı və son şansını düzgün qiymətləndirməlidir.**

* * *

"Zəngəzur dəhlizi layihəsi (Ermənistan ərazisindən keçən – red) artıq bizim üçün öz aktuallığını itirib". Bunu "Politico"ya Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının xarici məsələlər üzrə şöbəsinin müdiri Hikmət Hacıyev söyləyib. Onun sözlərinə görə, indi Bakı oxşar layihəni Tehranla həyata keçirməyə hazırlaşır. Söhbət İran ərazisindən Naxçıvana və oradan da Türkiyəyə nəqliyyat çıxışından gedir. Amma bu zaman H.Hacıyev onu da bildirib ki, Azərbaycan həmin nəqliyyat çıxışını Ermənistan üzərindən təmin edəcək Zəngəzur dəhlizini də hesabdan silmir. "Əgər bu layihə qüvvədədirsə, bəli, nəzərə alınacaq, yox əgər gündəlikdən şıxılsa, onda lap yaxşı. Layihə hələ də masanın üzərindədir, amma ABŞ tərəfindən, həqiqətən də, bunda



maraqlı olduğunu nümayiş etdirməsi tələb olunur". Avropanın tanınmış nəşri H.Hacıyevlə müsahibəsindən sitat gətirir: "Azərbaycan Zəngəzuru ələ keçirməyi planlaşdırmır. Bizim gündəliyimiz nəqliyyat əlaqələrinin və kommunikasiyaların inşasını yalnız ikitərəfli fəaliyyət çərçivəsində həyata keçirməkdir".

*(ardı 6-cı səhifədə)*

# Lemkinə, yoxsa erməniliyə sədaqət?

*Soyqırımı cinayətlərinin qarşısının alınması üzrə institut yenə öz ampluasındadır*

Səhifə ⇨ 4






# Yaxın Şərq: HƏMAS–İsrail müharibəsi davam edir

Səhifə ⇨ 9

## Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd avtomobil yolunun İran İslam Respublikası ilə bağlantısının və Araz çayı üzərində körpünün tikintisi işlərinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd avtomobil yolunun İran İslam Respublikası ilə bağlantısının və Araz çayı üzərində körpünün tikintisi işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 14,0 (on dörd) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 oktyabr 2023-cü il**

## A.Ş.Hüseynovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan rəssamlıq sənətinin inkişafında xidmətlərinə görə Arif Şahbaz oğlu Hüseynov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 oktyabr 2023-cü il**

## K.K.Musayevin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında səhiyyə sahəsində xidmətlərinə görə Kamran Kazım oğlu Musayev "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 oktyabr 2023-cü il**

# Bakıda "Türkiyə yüzili" təntənəsi



**Oktyabrın 29-da Bakıda Heydər Əliyev Mərkəzində Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə rəsmi qəbul təşkil edilib. Tədbirdə Milli Məclisin Sədri Sahibə Qafarova, Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı, Milli Məclis Sədrinin müavinləri, deputatlar, dövlət və hökumət nümayəndələri, xarici ölkələrin Azərbaycandakı səfirləri, ictimaiyyətin təmsilçiləri iştirak ediblər.**

Türkiyənin ölkəmizdəki səfirliyi tərəfindən təşkil olunan rəsmi qəbulda Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirildikdən sonra S.Qafarova çıxış edib. O, əvvəlcə Türkiyə Cümhuriyyətinin qurulmasının 100 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin səmimi təbriklərini və ən xoş arzularını tədbir iştirakçılarına çatdırıb.

Sədr vurğulayıb ki, 100 il öncə Qazi Mustafa Kamal Atatürkün rəhbərliyi ilə Qurtuluş savaşının qazanılması və Türkiyə Cümhuriyyətinin qurulması iyirminci əsr dünya tarixinin ən önəmli hadisələrindən biri olmuşdur. Ötən dövrdə Türkiyə dünyəvilik və demokratiya kimi təməl prinsiplərə əsaslanmaqla cəmiyyət və dövlət həyatının bütün sahələrində heyrətamiz inkişaf yolu keçmişdir. Qeyd edib ki, xüsusən son iyirmi ildə böyük siyasi və dövlət xadimi, Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə qardaş ölkə möhtəşəm uğurlara imza atmışdır. Türkiyə zəngin iqtisadi, siyasi, hərbi, intellektual, mənəvi potensiali ilə fəxr edə bilər. Bu gün Türkiyə Cümhuriyyəti dünyanın ən nüfuzlu və qüdrətli dövlətlərindən biridir.

Sahibə xanım ölkələrimiz arasında münasibətlərin ulu öndər Heydər Əliyevin ifadə etdiyi "bir millət, iki dövlət" prinsipi üzərində qurulduğunu xatırladıb. Qeyd edib ki, möhtərəm Prezidentimizin dediyi kimi, "Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır". Xalqlarımızın bu birliyinin XX yüzilin əvvəllərində Çanaqqala savaşında, Azərbaycanda və paytaxt Bakıda erməni-bolşevik dəstələrinə qarşı döyüşlərdə, üç il öncə işğalçı Ermənistana qarşı 44 günlük Vətən müharibəsində, bu ilin sentyabr ayında Qarabağda antiterror tədbirlərində sınaqlardan çıxdığının şahidi olmuşuq.

S.Qafarova 2021-ci ilin iyun ayında Türkiyə və Azərbaycan prezidentlərinin imzaladıqları Şuşa Bəyannaməsi qardaşlıq və dostluq münasibətlərimizi ən yüksək zirvəyə – müttəfiqlik səviyyəsinə yüksəltdiyini məmunluqla qeyd edib.

Parlamentin Sədri Prezident Rəcəb Tayyib Ərdoğanın "Türkiyə yüzili" baxışının həyata keçirilməsinin bundan sonra da Cümhuriyyətə daha böyük nailiyyətlər qazandıracağına əminliyini bildirib.

***Əliqismət BƏDƏLOV***
***XQ***

## Birinci vitse-prezident Mehriban Əliyeva Türkiyənin Cümhuriyyət Günü münasibətilə paylaşım edib




**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Türkiyəni 29 Oktyabr – Cümhuriyyət Günü münasibətilə təbrik edib.**

AZƏRTAC xəbər verir ki, bu barədə Birinci vitse-prezident "Instagram"da paylaşım edib.

"Türkiyə xalqını Cümhuriyyət Bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm", – deyə Mehriban xanım Əliyevanın paylaşımında bildirilib.

## Mikayıl Cabbarov Dünya Bankının regional direktoru ilə görüşüb



**İqtisadiyyat naziri Mikayıl Cabbarov Dünya Bankının Avropa və Mərkəzi Asiyada İnfrastruktur üzrə regional direktoru Çarlz Kormier, eləcə də Bərabər İnkişaf, Maliyyə və İnstitutlar üzrə regional direktoru Əsəd Ələmlə görüşüb.**

Görüşdə Dünya Bankının dəstəyi ilə ölkəmizdə həyata keçirilən layihələr və infrastruktur, rəqəmsal inkişaf, energetika sahələrində əməkdaşlığın perspektivləri barədə müzakirələr aparılıb.

**XQ**

# Möhtəşəm bayram şənlikləri



**Türkiyə Cümhuriyyətinin 100-cü ildönümü qardaş ölkənin möhtəşəm bayram tədbirləri ilə yadda qalıb. Ölkənin 81 vilayətində təntənəli tədbirlər keçirilib. Xüsusilə paytaxt Ankara və İstanbul 29 Oktyabr – Cümhuriyyət Günündə möhtəşəm proqramlara evsahibliyi edib.**

Türkiyə Respublikasının qurulmasının 100-cü ildönümü münasibətilə ölkənin dövlət rəsmiləri Cümhuriyyətin qurucusu Qazi Mustafa Kamal Atatürkün məzarını – Anıtqəbri ziyarət ediblər. Bu əlamətdar gün münasibətilə Türkiyə Prezidenti Administrasiyasının binasında təşkil olunan "Cümhuriyyətin 100-cü ildönümündə 100 nəhəng yağlı boya əsəri" sərgisini ziyarət edən ölkə başçısı Rəcəb Tayyib Ərdoğan burada təbrikləri qəbul edib.

Ankaradakı rəsmi tədbirlər Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Numan Kurtulmuşun Birinci Parlament Binasında Qurtuluş Müharibəsi Muzeyini ziyarəti ilə davam edib. İlk məclisin binasında böyük öndər Qazi Mustafa Kamal Atatürkün 1923-cü il oktyabrın 29-dakı çıxışı səsləndirilib, TBMM-in Sədri buradakı xatirə dəftərini imzalayıb.

Paytaxtda keçirilən rəsmi bayram tədbirləri rəsmi hərbi keçid və Mehtərən Qrupu, Türkiyə və Azərbaycan silahlı qüvvələrinin hərbi orkestrlərinin birgə ifasında "İstiqlal", eləcə də digər marşlardan ibarət konsert proqramı ilə davam edib.

Türkiyə Böyük Millət Məclisinin binası qarşısında başlayan "Cümhuriyyətimizin 100-cü İli" paradında 16 türk dövləti və toplumunu təmsil edən bayraqlar nümayiş olunub.

Bayram tədbirləri çərçivəsində Türkiyə Hərbi Hava Qüvvələrinin "SOLO türk" akrobatik aviasiya komandası Anıtqəbir üzərində nümunəvi uçuşlar edib. "Baykar" şirkətinin istehsalı olan 9 "Akıncı" pilotsuz uçuş aparatı (TİHA) və "Kızılelma" pilotsuz hərbi təyyarəsi ölkə səmasında uçuş edərək türk bayrağını çəkib.

### Naxçıvanda şənlik

***Oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümü münasibətilə Türkiyənin Naxçıvandakı baş konsulluğu tərəfindən tədbir təşkil edilib.***

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, qardaş ölkənin Naxçıvandakı baş konsulu Asip Kaya, digər rəsmi şəxslər, mədəniyyət və ictimaiyyət nümayəndələri tədbirdə iştirak ediblər.

### "Şəhidlər xiyabanı"nda qardaşlıq coşqusu

***Cümhuriyyət günü ilə bağlı Türkiyə və Azərbaycan şəhidlərinin xatirəsi anılıb.***

Türkiyədə Respublikanın yaranmasının 100-cü ildönümü münasibətilə Türkiyənin Azərbaycandakı səfirliyinin əməkdaşları, Türkiyə Silahlı Qüvvələrinin ölkəmizdəki hərbi attaşeliyi, türkiyəli iş adamları oktyabrın 29-da Azərbaycanın azadlığı uğrunda canlarını fəda etmiş türk əsgərlərinin adları və soyadları həkk olunmuş "Türk şəhidliyi" abidəsini ziyarət edib, önünə əklil qoyublar.

Sonra Qazi Mustafa Kamal Atatürk və döyüş yoldaşlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni və Türkiyə Respublikasının İstiqlal Marşı səsləndirilib.

***Ə.BƏDƏLOV,***
***İ.HƏSƏNQALA***
***XQ***

## Azərbaycanın Müdafiə naziri Çində

**Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Çinə işgüzar səfəri davam edir.**



Nazirlikdən bildirilib ki, səfər çərçivəsində general-polkovnik Z.Həsənov Azərbaycanın Çin Xalq Respublikasındakı səfirliyini ziyarət edib. Burada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyularaq xatirəsi dərin ehtiramla yad edilib.

Sonra Müdafiə naziri Çinin müdafiə sənayesi kompleksinə daxil olan bir neçə şirkət rəhbərləri ilə görüşüb.

Ölkəmizin Çindəki fövqəladə və səlahiyyətli səfiri Bünyad Hüseynovun da iştirak etdiyi görüşlərdə birgə əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

**XQ**




**Böyük siyasəti kiçik hisslərə, xırda mənfəətlərə bağlamaq olmaz.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

# 20 il: milli dövlətçiliyin yeni mərhələsinə doğru

## (Fəlsəfi-sinergetik təhlil)

**(Əvvəli XQ-nin 21 və 25 oktyabr nömrələrində)**

**III məqalə**

### Liderin siyasi ünsiyyət məharəti

İkinci məqalənin sonunda Prezident İlham Əliyevin 20 illik fəaliyyəti kontekstində ifadə etdiyimiz “siyasi məharəti, yüksək mənəvi keyfiyyətləri, kommunikasiya bacarığı sayəsində sadə insanlardan tutmuş dünyanın nüfuzlu şəxsiyyətlərinə kimi hər kəsin rəğbətini və hörmətini qazanaraq, həm ölkə daxilində, həm də beynəlxalq aləmdə böyük nüfuz əldə etmişdir” tezisinin fəlsəfi-sinergetik təhlilinin iki aspektinin vacibliyini vurğulamışdıq. Onlardan biri yeni siyasi mənaların liderlik fəaliyyətinin hansı sahəsində meydana gəlməsi, digəri isə liderin şəxsi ünsiyyət qabiliyyəti ilə əlaqəli idi.

Burada məsələnin iki tərəfi bizim üçün maraqlıdır: birincisi, siyasi lider hansı şərtlər ödənildikdə həm sadə insanların, həm də dünyanın nüfuzlu şəxsiyyətlərinin, o cümlədən, siyasi liderlərinin rəğbət və hörmətini qazana bilir, ikincisi, ölkə daxilində qazandığı nüfuzu ilə beynəlxalq aləmdəki nüfuzunu uyğunlaşdıra bilir. Fəlsəfi-sinergetik və siyasi-nəzəri baxımdan bunlar mürəkkəb məsələlərdir və ciddi əsaslandırma tələb edir. Onlara yeni siyasi mənaların meydana gəlməsinin sinergetikası prizmasından baxaq.

Öncə vurğulayaq ki, indiki tarixi mərhələdə bütün dünya dövlətləri üçün liderin ünsiyyət qabiliyyəti, onun kommunikativ imkanları dövlət başçısı–lider kontekstində ön plana çıxmışdır. Səbəb kimi müasir dövrdə liderlikdə qarşıya çıxan çətinliklər və qlobal geosiyasətin ziddiyyətləri göstərilir. Belə bir vəziyyət bütün dövlətlər üçün uğurlu liderin mövcudluğunu həyati əhəmiyyətli məsələ edir. Həmin bağlılıqda da liderin uğurlu olmasının önəmli şərtlərindən biri kimi onun ünsiyyət qabiliyyəti göstərilir.

Yəni indiki mürəkkəb, riskli, beynəlxalq hüququn tam işləmədiyi bir mərhələdə liderin ünsiyyət potensialı, ritorikası və bütövlükdə, kommunikabelliyi əhəmiyyətli rol oynayır. Dövlət başçısı–liderin daxili nüfuzu ilə beynəlxalq nüfuzu arasında harmoniya məsələsi də politoloji və fəlsəfi aspektlərdə bu prizmada aktuallıq kəsb edir. Həmin məqam müxtəlif politoloji və fəlsəfi tədqiqatlarda vurğulanır.

Araşdırmalar göstərir ki, İlham Əliyev yüksək ünsiyyət qabiliyyəti və bütövlükdə, geniş kommunikabelliyi sayəsində güclü dövlətin güclü liderini xarakterizə edən bütün komponentləri üzvi surətdə birləşdirərək, hər bir fəaliyyət istiqamətində möhtəşəm uğurlar əldə etmişdir. Bu tezisi təsdiq edən konkret faktlar yeni siyasi mənalar formasında bizim liderin “siyasi interfeys zonasında kommunikativ fəaliyyəti” adlandırdığımız sahədə meydana gəlir. Biz “interfeys” (“vasitəçi zona”, “aralıq sahə”) anlayışının izahını öncəki məqalələrdə vermişik. Bu, liderin həm daxili, həm də beynəlxalq miqyaslarda fəaliyyətinin dinamikasının və praktiki nəticələrinin ifadəsidir. Həmin aspektdə bizim akademik İsa Həbibbəylinin ümummilli liderliyin kriteriyaları kimi liderliyin missiyası və miqyası anlayışlarına maraq göstərməyimizin səbəbi aydın olur. Liderin siyasi interfeys zonasında nümayiş etdirdiyi fəaliyyət miqyası və bu fəaliyyətin missiyası yeni siyasi mənalar yaratmaq potensialını müəyyən edir.

Bu yanaşma çərçivəsində Prezident İlham Əliyevin 20 illik fəaliyyətinin liderlik aspektində mühüm olan bir sıra fəlsəfi məqamları konkretləşdirmək mümkündür. Hər şeydən öncə, liderliyin miqyası və missiyası kontekstində İlham Əliyevin fəaliyyətini lider-ardıcılları-nəticə miqyasından daha geniş olan lider-cəmiyyət-milli, regional, qlobal kontekstlərin harmoniyası-nəticə miqyasında dərk etmək doğru olardı. Biz milli liderlərin fəaliyyətlərinin müasir mərhələdə adekvat fəlsəfi dərki üçün bu cür miqyasın fəlsəfi-elmi əsaslarını təhlil etməyə cəhd göstərmişik.

Belə yanaşma, bütövlükdə, bir sıra filosofların və politoloqların, ümumiyyətlə, liderliyin XXI əsrin tələblərinə uyğun fəlsəfi və siyasi-nəzəri dərki üçün mövcud liderlik təlimlərinin keyfiyyətcə yeniləşməsi zərurətini vurğulamaları ilə bağlıdır. Bütün bunlar İlham Əliyevin 20 illik fəaliyyətinin məzmunu, mahiyyəti, məqsədləri, miqyası və missiyası kontekstində Prezidentin liderliyinə fərqli fəlsəfi-elmi və politoloji meyarlarla yanaşmamıza ciddi əsaslar verir.

Bilirik ki, “siyasi interfeys zonasında yeni siyasi mənaların yaranması” kimi ifadələr xeyli mürəkkəb məzmuna malikdir. Lakin məhz bu cür yeni anlayışların fonunda İlham Əliyevin fəaliyyətinin siyasi aspektdə yeniliyini real olaraq fəlsəfi və politoloji adekvatlıqla dərk etmək mümkündür. Prezidentin fəaliyyəti o dərəcədə geniş miqyasa və dərin missiyaya malikdir ki, onların dərki yanaşmalarda yenilik tələb edir.

Bu prinsipial mövqedən son 20 illik fəaliyyətdə İlham Əliyevin yaratdığı yeni siyasi mənalarda Prezidentin yüksək ünsiyyət qabiliyyətinin siyasi-diplomatik aspektdə böyük səmərə verdiyini görürük. İlham Əliyev Avrasiya məkanında yeganə liderdir ki, Türkiyə, Rusiya, İran, ABŞ, Çin, Aİ ölkələri başçıları ilə siyasi dialoq qura bilmişdir. Prezidentin siyasi fəaliyyəti başqa ölkələrin siyasi liderləri ilə qarşılıqlı ünsiyyətdə siyasi məzmunla siyasi ritorikanı yüksək səviyyədə uyğunlaşdırması ilə yaddaşlarda qalmaqdadır.

Bu cür kommunikabellik Azərbaycan Prezidentinə 2003-cü ildən bu günə kimi nəzərdə tutduğu bütün prinsipial layihələri reallaşdırmağa imkan vermişdir. Bu proses daimi olaraq siyasi interfeys zonasında İlham Əliyevin yeni siyasi mənalar yaratması fonunda reallaşmışdır. Onu da vurğulayaq ki, İlham Əliyevin fəaliyyətində siyasi interfeys zonası həm nəzəri-politoloji, həm də praktiki-təcrübi müstəvidə eyni dərəcədə öz ifadəsini tapmışdır. Burada İlham Əliyevin digər liderlərlə dialoqda yaratdığı yeni siyasi mənaların bir neçə parametri özünü göstərmişdir. Onların sırasında yeni daxili sosial-mədəni-ideoloji dəyərlər (Azərbaycançılığın məzmunca daha da zənginləşdirilməsinin konkret nümunələri, məsələn, “biz birlikdə güclüyük”, “bir millət, iki dövlət”, “Qarabağ Azərbaycandır!” kəlamları, Azərbaycan cəmiyyətində multikultural dəyərlərin dövlət siyasəti səviyyəsinə yüksəldilməsi), yeni geosiyasi dəyərlər (məsələn, “Bakı prosesi”, Humanitar Bakı Forumu, Azərbaycanın Cənubi Qafqazın geosiyasi, nəqliyyat-loqistika və energetik “kəsişmə məkanı”na çevrilməsi), yeni əməkdaşlıq formatları (İlham Əliyevin təşəbbüsü ilə ikitərəfli, üçtərəfli, dördtərəfli regional əməkdaşlıq formatları), nəqliyyat-loqistika, enerji, informasiya, sərmayə qoyuluşu, enerji təhlükəsizliyinin milli təhlükəsizliklə sıx əlaqələndirilməsi, qlobal layihələrin regional reallıqlarla uyğunlaşdırılması, yeni texnologiyaların ixtirası və tətbiqi üzrə əməkdaşlığın optimallaşdırılması, regional və qlobal təşkilatlarda fəaliyyət mexanizmləri əsasında enerji, milli, regional və qlobal təhlükəsizliyin təminatı üçün yeni siyasi-diplomatik və praktiki fəaliyyət dəyərlərinin yaradılması xüsusi yer tutur. Bu punktların hər birinin Prezidentin yaratdığı yeni siyasi mənalar kontekstində fəlsəfi-sinergetik anlamları və dövlətçilik baxımından oynadıqları rol üzərində ayrıca dayanmağa ehtiyac vardır.

### Yeni ideoloji dəyərlər

Bu məqam Azərbaycan Prezidentinin 20 illik fəaliyyətinin fəlsəfəsinin özəyini təşkil edir. Belə ki, İlham Əliyev dövlət başçısı və milli lider kimi həmişə Azərbaycan cəmiyyəti və müstəqil dövlətinin milli maraqları, onların inkişafını təmin edən şərtlərin ödənməsi, dövlət və toplum olaraq böyük güc halına gəlməsini fəaliyyətinin əsasında görmüşdür. Bu məqam siyasi varisliklə yanaşı, hər situasiyada vurğulanan dəyərlər naminə kreativ addımlar atmağı da özündə ehtiva etməkdədir. Deməli, fəlsəfi anlamda İlham Əliyevin liderliyinin yeni siyasi mənalarında Azərbaycanın “bir millət, iki dövlət” və siyasi varislik prinsipləri çərçivəsində güclü müstəqil dövlət və güclü cəmiyyət olması mərkəzi yer tutmuşdur. Fəlsəfi-sinergetik kontekstdə obrazlı ifadə etsək, İlham Əliyevin fəaliyyətinin siyasi interfeys sahəsi güclü müstəqil dövlət və güclü toplum quruculuğunun əhatə etdiyi siyasi, geosiyasi, geoiqtisadi, təhlükəsizlik, mədəni, mənəvi-əxlaqi, diplomatik sərhədləri daxilindədir. Məhz bu sistemli, risklərlə dolu, yüksək dinamikaya malik, ziddiyyətli, müxtəlif təsirlərin özünü göstərdiyi “siyasi fəaliyyətin interfeys zonası”nda Azərbaycan Prezidenti səmərə verən yeni siyasi, sosial, mədəni, ideoloji, aksioloji dəyərlər (mənalar) yarada bilmişdir. Bu özəllik İlham Əliyevi regional və qlobal miqyaslarda lider kimi çox fərqləndirir!

Bu prizmadan baxanda azərbaycançılığın məzmunca daha da zənginləşdirilməsinin konkret nümunələri kimi “biz birlikdə güclüyük”, “bir millət, iki dövlət”, “Qarabağ Azərbaycandır!”, “dəmir yumruq”, “sən azadsan, Şuşa”, “biz qayıtdıq, Şuşa”, “ata vəsiyyətinə tam əməl etdim” kimi kəlamların yeni siyasi mənalar qismində anlamı aydınlaşır.

Belə ki, İlham Əliyev XXI əsrin əvvəllərindən azərbaycançılığı iki aspektdə – daxili sosial-siyasi, ideoloji, mənəvi, mədəni, psixoloji birliyi daha da gücləndirmək və xalqı (cəmiyyəti) dövlətin ərazi bütövlüyünü bərpa etmək naminə yeni səfərbərlik səviyyəsinə yüksəltmək istiqamətlərində inkişaf etdirmişdir. Burada yeni siyasi məna dövlət ideologiyasının konkret zaman kəsiyində dəqiq və strateji faydası olacaq hədəflərə yönəldilməsindən ibarətdir. Bunun üçün İlham Əliyev lider–cəmiyyət kontekstində bütövlükdə, toplumla (yuxarıda vurğuladığımız lider–cəmiyyət qarşılıqlı əlaqəsi çərçivəsində) çox ciddi işləmişdir, insanlara inam, iradə, əminlik, öz dövlətinə arxalana bilmə kimi duyğular aşılamışdır. Dövlət başçısı bu fəaliyyətinin əsas hədəfi və məzmununu bir neçə dəfə gənclərlə bağlı söylədiyi fikirlərdə ifadə etmişdir. Prezident vurğulamışdır ki, indi Qarabağı azad edən gənclər mənim Prezidentlik dövrümdə dünyaya gəlmişlər. Yəni onlar yaradılan daxili siyasi, ideoloji, mənəvi, mədəni və s. şəraitdə vətənpərvər ruhda tərbiyə olunmuşlar ki, bu da çox qiymətli yeni siyasi mənadır!

İlham Əliyevin vurğuladığı həmin prosesdə Azərbaycan cəmiyyətində multikultural dəyərlərin dövlət siyasəti səviyyəsinə yüksəldilməsi ayrıca yer tutur və rolu əvəzedilməzdir. Məsələ ondan ibarətdir ki, İlham Əliyev cəmiyyətin bütün təbəqələri ilə ünsiyyətdə onları vahid Azərbaycan xalqının, mədəniyyətinin, mənəvi-əxlaqi dəyərlərinin eyni hüquqlu təmsilçiləri olduqlarına inandırmışdır. Bunu Prezident şəxsi davranış nümunələri ilə sübut etmişdir! Tədqiqatçıların fikrincə, müasir mərhələdə liderin şəxsiyyət kimi legitimliyinin əsas şərti şəxsi nümunədir!

Deməli, İlham Əliyevin multikulturalizm konsepsiyasında aparıcı rolu Azərbaycan cəmiyyətinin tamlığının, bütövlüyünün təmini və bu keyfiyyətdə daxili ziddiyyətsiz inkişaf edə bilmə potensialının daim reallaşması oynayır. Multikulturalizm bu anlamda hər kəsin istədiyini edə bilməsi kimi deyil, dövlətçilik maraqlarının üstün tutulduğu bir şəraitdə hər bir vətəndaşın toplumun birliyi, tamlığı və inkişafı üçün eyni hüquqlara sahib olmasını nəzərdə tutur. Buna mədəniyyət, dövlət və hakimiyyət–xalq birliyi də demək olar. Onun başlıca hədəfi isə XXI əsrin kreativ vətəndaş cəmiyyətini yaratmaqdan ibarətdir!

Lakin İlham Əliyev liderliyində yeni daxili sosial-mədəni-ideoloji dəyərlərin (mənaların) yaradılması bunlarla məhdudlaşmır. Dünya liderlik təcrübəsində nadir sayıla biləcək və dərin fəlsəfi, siyasi-nəzəri anlamı olan daha bir xüsusiyyət də vardır. Məsələ ondan ibarətdir ki, İlham Əliyevin daxil üçün nəzərdə tutulmuş yeni siyasi mənaları real olaraq milli dövlətin sərhədlərini aşaraq regional və qlobal miqyaslarda yeni mənaların yaradılması prosesinə ciddi təsir göstərmişdir. Həmin məqam İlham Əliyevin yeni lider kimi əvəzolunmaz siyasi-diplomatik və xarizmatik özəlliyini təşkil edir (onu şəkilləşdirir, məzmunlaşdırır). Fəlsəfi-sinergetik kontekstdə obrazlı ifadə etsək, İlham Əliyev Avrasiya məkanında yeganə liderdir ki, daxili yeni siyasi mənaları sistemli, səmərəli və konkret nəticə verə biləcək konsepsiya statusunda dövlətlərarası münasibətlərin təşkili, mexanizmləri və məzmunu miqyasına nəzəri və praktiki proyeksiya edə bilmişdir!

Bunun üçün Azərbaycan Prezidenti öz siyasi fəaliyyət interfeys sahəsini daha da genişləndirmişdir. Konkret olaraq, İlham Əliyev Azərbaycanın lideri kimi fəaliyyəti ilə regional və beynəlxaq təşkilatlarda Azərbaycanın liderliyini təmin edə biləcək siyasi, diplomatik əməkdaşlığın praktiki formatlarını tətbiq etməyin mexanizmlərini sinxronlaşdırmışdır. Bu faktorlar Azərbaycana liderliklə Azərbaycanın liderliyinin İlham Əliyev siyasi fəaliyyətinin interfeys sahəsində mühüm yeni geosiyasi, lideroloji və siyasi-diplomatik mənalarından biridir. Hələlik Avrasiyada bu nəticəyə kimsə nail ola bilməmişdir.

Yuxarıdakı təhlildən belə nəticə hasil olur ki, İlham Əliyev daxili yeni siyasi mənaları konsepsiya statusunda dövlətlərarası münasibətlərə uğurlu proyeksiya etmək üçün regional və beynəlxalq təşkilatlarda, bir sıra qlobal xarakterli layihələrdə Azərbaycanın liderliyini (ən azından aparıcılığını) təmin etməyi əsas mexanizm kimi götürmüşdür. Bu seçimin səmərəsi göz qabağındadır! Azərbaycan Cənubi Qafqazın regional lideri və bir sıra regional və qlobal təşkilatların (Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı) aparıcı dövləti kimi beynəlxalq aləmdə öz yerini möhkəmlətmişdir.

Beləliklə, İlham Əliyevin yeni daxili sosial-mədəni-ideoloji dəyərlərin (mənaların) yaradılması istiqamətində gördüyü işlər iki mühüm tezisi formalaşdırmağa imkan verir. Birincisi, Prezident İlham Əliyev azərbaycançılıq ideologiyasını daha da zənginləşdirdi, Azərbaycan xalqının, dünya azərbaycanlılarının vahid ideya ətrafında daha sıx birliyini, milli həmrəyliyimizi təmin etdi. İkincisi, İlham Əliyev daxili yeni siyasi mənaların (dəyərlərin) beynəlxalq miqyasda nəzəri və praktiki tətbiq edilə bilməsi üçün onları daha geniş geosiyasi, siyasi, diplomatik, iqtisadi məkana proyeksiya edə bildi. Bu zaman bir siyasi lider kimi konkret olaraq regional və qlobal təşkilatlarda fəaliyyəti proyeksiyanın əsas mexanizmlərindən birinə çevirdi!

Bununla biz Prezidentin 20 illik fəaliyyətinin dinamikasına daha geniş kontekstdə fəlsəfi yanaşmaq üçün elmi və metodoloji əsas əldə etmiş oluruq.

### Yeni geosiyasi dəyərlər

Cəmiyyət və dövlətin daxili vəziyyəti üçün yaradılan yeni siyasi mənaların mühüm proyeksiya istiqamətlərindən birini Azərbaycan Prezidentinin regional və qlobal miqyaslarda fəaliyyət üçün yaratdığı yeni geosiyasi dəyərlər təşkil edir. Həmin dəyərlər (yeni mənalar) sırasında “Bakı prosesi”ni, Humanitar Bakı Forumunu, Azərbaycanın Cənubi Qafqazın geosiyasi, nəqliyyat-loqistika və energetik “kəsişmə məkanı”na çevrilməsini, Qafqaz platformasını, “3+3” formatını, Avropa İttifaqı ilə imzalanan müxtəlif əməkdaşlıq sazişləri çərçivəsində yaradılan əməkdaşlıq formatlarını və digərlərini göstərmək olar.

Bu dəyərlər, sadəcə olaraq, Prezidentin təşəbbüsü və fəallığı ilə yaradılan geosiyasi mahiyyətli nəzəri-siyasi strukturlar deyildir. Onların dərin daxili məntiqi və konkret geosiyasi hədəfləri mövcuddur. Deyək ki, “Bakı prosesi” siyasi-diplomatik müstəvidə dünyanın çox sayda siyasətçisini, liderini, mütəxəssisini, KİV nümayəndələrini, iş adamlarını, diplomatlarını aktual regional və qlobal geosiyasət problemləri üzrə vahid platformada müzakirəyə cəlb etməyi nəzərdə tutmuşdur. Bu platforma çərçivəsində keçirilən tədbirlər göstərmişdir ki, “Bakı prosesi” həm Azərbaycanın mühüm məsələlərdə geosiyasi duruşunu, həm regional miqyasda bir sıra qüvvələrin pozucu fəaliyyətini, həm də qlobal miqyasda qarşılıqlı faydalı əməkdaşlığın konkret aspektlərini anlamaqda olduqca faydalıdır. Bu çərçivədə aparılan müzakirələr müxtəlif sferaların ortaq geosiyasi baxış bucağına gətirilməsi üçün səmərə vermişdir.

Eyni məntiqlə Bakı Beynəlxalq Humanitar Forumu haqqında fikir bildirmək olar. Bu forum Avrasiya məkanında siyasətdə humanitarlığı, humanizmi, qarşılıqlı yardımlaşmanı, insanlar üçün humantiar aspektin təmin edilməsinin böyük əhəmiyyətini anlamaq, yenidən dəyərləndirmək və praktiki tətbiq etmək baxımından mühüm yenilikdir. Bakı forumu böhranlı situasiyalarda (məsələn, pandemiya mərhələsində) çoxlu sayda siyasətçi, diplomat, iş adamı və s. sahənin təmsilçiləri üçün mayak rolunu oynamışdır. Siyasətdə humanitarlığın İlham Əliyev nümunəsinin milyonlara anladılmasında vacib faktor olmuşdur.

Azərbaycanın Cənubi Qafqazın geosiyasi, nəqliyyat-loqistika və energetik “kəsişmə məkanı”na çevrilməsi ayrıca təhlilə ehtiyacı olan geniş mənalı yeni dəyərdir. Bu, İlham Əliyevin dövlət başçısı–lider kimi şəxsi liderliyinin regional miqyasda dövlətin liderliyini təmin etmək fəaliyyətinə müncər edilməsidir. İlham Əliyevin bu nümunəsi də nadir hallarda rast gəlinən məqamdır. Məsələ ondan ibarətdir ki, hazırda dünyanın çox sayda filosof və politoloqları şəxsi liderliklə dövlət liderliyi arasında bir-birini qarşılıqlı tamamlamanın vahid kriteriyalarını müəyyən edə bilmirlər. Deyək ki, ABŞ-ın dövlət kimi liderliyini onun prezidentinin liderliyi təmin edə bilmir. Baxmayaraq ki, ekspertlər Amerika Prezidentini, məsələn, Donald Trampı güclü lider kimi təqdim edirdilər. Arçi Braun bu aspekti yaxşı təhlil etmişdir və göstərmişdir ki, söhbət faktiki olaraq şəxsi liderliklə dövlət liderliyi arasında yaranmış “uçurum”dan gedir. Cəmiyyətin güclü saydığı lider dövləti lider edə bilmir.

Eyni vəziyyət müasir Avropa siyasi-politoloji fikrində yer alır. Avropalı araşdırmaçılar bütövlükdə Avropada liderlikdə ciddi böhranın meydana gəldiyini və hələ vəziyyətdən çıxış yolunun tapılmadığını vurğulayırlar. Onlar problemi məhz Avropada dövləti lider edə biləcək elə güclü liderin yoxluğu kontesktində qoyurlar. Bunu Böyük Britaniya, Fransa və Almaniya nümunəsində izah edirlər. Bu güclü dövlətlərdə özlərini güclü hesab edən liderlər praktikada dövlətlərini lider edə bilməmişlər və bu məsələ üzərində bir-biri ilə çəkişməkdədirlər.

Beləliklə, milli, regional və qlobal miqyaslarda uğurlu liderliyin fəlsəfi-sinergetik təhlil etdikdə İlham Əliyevin yeni siyasi dəyərlər (mənalar) yaratmaq kontekstində, sözün həqiqi mənasında, siyasi inqilabi sıçrayış etdiyinə tam əmin oluruq. Bu siyasi liderlik reallığının fonunda öncəki məqalədə vurğuladığımız mühüm tezislərdən olan - “...2003-2023-cü illər... Azərbaycan xalqının həyatında silsilə qələbələr, misli görünməmiş yüksəliş və tərəqqi illəri olmuşdur”, cümləsinin fəlsəfi-sinergetik və praktiki-siyasi anlamı daha geniş spektrdə işıqlanmış olur. Bu qənaətin işığında İlham Əliyev liderliyinin yeni siyasi mənaları (və ya dəyərləri) kimi daxili siyasi yeniliyi konsepsiya statusunda proyeksiyasının məntiqi fonunda Qafqaz platforması, “3+3” formatı və Avropa İttifaqı ilə imzalanan müxtəlif əməkdaşlıq sazişləri çərçivəsində yaradılan əməkdaşlıq formatlarının təhlilinə çalışaq.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# İrəvanın anti-Rusiya mərəzi: Qərbdən hansısa təminat varmı?

## Vladimir Putinin subliminal mesajı, Bordyujanın eyhamı və Qukasyanın iflas proqnozu

**Bir müddət əvvəl Moskva–İrəvan münasibətlərindən bəhs edən Rusiya Prezidenti Vladimir Putin bildirmişdi ki, ölkəsində sayca Ermənistandakından daha çox erməni yaşayır. Kremlin rəhbəri bu fikri dilə gətirərkən, müəyyən qədər subliminal mesaj da vermişdi. Yəni, demək istəmişdi ki, İrəvan həddini bilsin! Amma görünən budur ki, qarşı tərəf bunu anlamır, yaxud anlamaq istəmir. Putinin sözügedən fikri işlətməsindən ötən müddətdə Ermənistanın anti-Rusiya ovqatı daha da güclənib.**



Əlbəttə, heç bir təbii sərvəti olmayan Ermənistanın dolanışıq yeri Rusiyadır. O Rusiya ki, İrəvandan və digər yerlərdən gətirilən məhsulların satış bazarıdır. Ermənistanın hazırkı durumunda birdən-birə o bazarların itirilməsi fəlakət olardı. İtirilməsi deyəndə ki, bazarları başqaları ələ keçirə bilər. Məsələn, azərbaycanlılar. Amma məsələ yalnız bunda da deyil...

İndi deyə bilmərik ki, Ermənistanla Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı arasındakı hazırkı durum barədə söz açan qurumun keçmiş baş katibi Nikolay Bordyuja bazarlarımı nəzərdə tuturdu, ya yox, amma onun haqlı olduğu məqamlar çoxdur. Əlbəttə, cənab Bordyujanın haqqına mütləq yanaşmırıq. Amma reallıqları nəzərə alırıq. Daha doğrusu, qəbul edirik ki, keçmiş baş katibin söylədikləri reallıqdır. O reallıq ki, İrəvanın onu dəyişmək üçün nə isə etdiyi qətiyyən görünmür.

Məsələn, N.Bordyuja vurğulayır ki, Ermənistanın gələcəyini KTMT-siz təsəvvür edə bilmir. "Çünki Ermənistan Rusiya ilə çox inteqrasiya olunub, təkcə iqtisadi cəhətdən deyil. Rusiyada çox sayda – bir neçə milyon erməni yaşayır",– deyən Bordyuja Belarusun STV telekanalına müsahibəsində onu da bildirib ki, KTMT-nin şəxsində Rusiyanın Ermənistandakı bir çox siyasi qüvvələrlə çox yaxşı münasibətləri var. Ona görə də indi İrəvan–Moskva münasibətlərində yaşananlar müvəqqəti hadisələrdir. İstənilən halda Ermənistan Rusiya, Belarus və KTMT-nin yanında olacaq".

Görəsən, Bordyuja fikirlərində əmindirmi? Axı, hazırda İrəvan geri dönüşü olmayan yola çıxmış kimi görünür. Nikol Paşinyan başda olmaqla Ermənistan hökuməti açıq-aşkar anti-Rusiya siyasəti yeridir və bu siyasətin məqsədi Ermənistanın Rusiyadan bağlantılarını tamamilə kəsib Qərbə yönəltməkdir. Bunu təkcə, erməni deyil, rus siyasi ekspertlər də bildirirlər. Onların sözlərinə görə, bu yolda Paşinyan və komandası dayanmayacaq. Həm də ona görə ki, anti-Azərbaycan və anti-Rusiya siyasəti erməni iqtidarı üçün öz hakimiyyətini saxlamaq fürsətidir. Əgər Nikol əvvəllər Azərbaycanı ittiham etməklə hakimiyyəti saxlayırdısa, artıq bu üsul effektiv deyil. Anti-Rusiya siyasəti isə bütün günahlar, məğlubiyyətlər və uğursuzluqlar üçün, belə demək mümkünsə, günah keçisi axtarışındakı yaxşı tapıntıdır.

Bununla yanaşı, Qərb istiqamətinin Ermənistana və erməni xalqına heç bir təminat vermədiyini vurğulayanlar da var. Məsələn, İrəvandakı "Xalqın səsi" siyasi klubunun rəhbəri, politoloq Arman Qukasyan bildirir ki, Ermənistan–Rusiya münasibətlərinin rədd edilməsi, Rusiya ilə müttəfiqlik əlaqələrinin kəsilməsi ölkəni çox çətin vəziyyətə salacaq: "Qarşımızda Ukrayna və Moldova nümunəsi var. Heç də əbəs yerə deyil ki, Mixeil Saakaşvili son vaxtlar xüsusi fəallıq nümayiş etdirir (Gürcüstanın sabir prezidenti Ermənistanı tutduğu yoldan dönməyə çağırır. Xüsusən də Azərbaycanla razılaşmağın vacibliyini bildirir – red). Təəssüf hissi ilə qeyd etməliyəm ki, yaxın gələcəkdə daha açıq-aşkar anti-Rusiya addımlarının və hərəkətlərinin şahidi olacağıq".

Politoloqun fikrincə, bu il oktyabrın 5-də keçirilmiş Qranada görüşü Nikol Paşinyan üçün məğlubiyyət idi və baş nazirin Vladimir Putinlə görüşə biləcəyi Bişkekə getməkdən imtinası bu məğlubiyyəti yalnız təsdiqlədi. Onun sözlərinə görə, Prezident İlham Əliyev Qərbdən istədiyini alıb və ona görə inamla Rusiya Prezidentinin yanına gedə bilir, Paşinyan isə diplomatik sahədə uduzmaqda davam edir: "Bütün bunların əsası Paşinyanın Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıdığı Praqada (2022-ci ilin oktyabrında) qoyulub. Bunun ardınca doqquz aylıq blokada oldu. Sonra biz baş nazirin Strasburqdakı (Avropa Parlamentindəki – red) çıxışını gördük. Burada Paşinyan uğursuzluqlarına görə növbəti dəfə Rusiyanı günahlandırmağa çalışdı. Daha sonra o, "Wall Street Journal"a müsahibə verdi və bu müsahibədə bir daha rus sülhməramlılarından şikayətləndi. Rusiyanın Ermənistandakı hərbi bazalarının gələcəyindən danışdı. Rus sülhməramlılarını gözdən salandan və Qarabağı itirdikdən sonra Paşinyanın komandası indi Gümrüdə yerləşən 102-ci hərbi bazanı oradan çıxarmaq məqsədi güdür. Çalışır ki, bu bazanı nüfuzdan salsın, əhəmiyyətini heçə endirsin".

A.Qukasyan bütün bunları vurğulayaraq soruşur ki, Ermənistan Qərbdən hansı zəmanətləri alıb? Politoloqun fikrincə, Fransadan hərbi yardım dekorativ xarakter daşıyır. Onun qənaətincə, anti-Rusiya yanaşması ilə bərabər İrəvanın Qərbə üz tutduğu barədə tezilərin fəal şəkildə tirajlanması, əslində, naməlumlara doğru getməkdir və bu, Ermənistanı yeni çağırışlar qarşısında qoyacaq, risklər və təhlükələr yaradacaq. "Ermənistan üçün Rusiya iqtisadi baxımdan da önəmlidir. Unutmayaq ki, Ermənistanda Rusiya kapitalı və yaradılan iş yerləri, Rusiyadan hər il soydaşlarımızdan alınan milyonlarla transferlər, sərfəli qiymətə satılan qaz, investisiyalar və s. var. Ermənistan bütün bunların kontekstində Rusiya qazını İran qazı ilə əvəz edə bilməz. Çünki İran qazı daha bahadır və bu, iqtisadiyyatımıza ciddi təsir göstərəcək. Ölkəmizin iqtisadi relsləri Rusiya və Avrasiya İqtisadi İttifaqına üzv ölkələrin bazarına aparır. Bundan əlavə, Ermənistan yalnız bu birliyin üzvü olduğu üçün onun ümumi enerji bazarından hər il 300 milyon dollar qazanır. Bütün bunları sadalamaq onu göstərir ki, Qərb Rusiyaya alternativ ola bilməz", – deyə Qukasyan fikrini yekunlaşdırır.

Əlbəttə, Ermənistanda A.Qukasyan kimi düşünənlər kifayət qədərdir. Demək olmaz ki, onların hamısı fikirlərində səmimidir və hazırkı iqtidara münasibdə qərəz yolu tutmurlar. Ancaq bu adamlar reallıqları dilə gətirirlər. Nəticə isə dəyişmir. Necə deyərlər, kor tutduğunu buraxır, Paşinyan buraxmır. Baxmayaraq ki, İrəvanın Moskvaya alternativ tapmaq düşüncəsinin real əsasının olmadığı aşkardır. Mövcud durumun, xüsusən də həmin duruma anti-Azərbaycan ritorikasının əlavə edilməsi, ölkəmizlə barışmazlıq xəttinin götürülməsi isə Ermənistan üçün yalnız bir perspektiv vəd edir – iflas.

***R.ƏVƏZ***
***XQ***

---

**Ermənistanda HƏMAS – İsrail qarşıdurmasından anti-Azərbaycan motivləri uydurulmaqdadır. Ölkənin mediası və ekspert cameəsi "prosesə" aktiv şəkildə qoşulub. Bu siyasi təbəqənin məqsədi müsəlman dünyasını Azərbaycana qarşı qaldırmaqdır. Əlbəttə, məqsədlərini çox primitv tərzdə gerçəkləşdirirlər.**

Məsələn, Bakının İsraili neftlə təmin etməsi üzərinə fokuslanırlar. Bildirirlər ki, Azərbaycanın bu addımı, bütövlükdə, müsəlman dünyasına xəyanətdir. Erməni mediası və həmin mediada çıxış edən ekspertlər müsəlmanların ölkəmizdən, guya, çox narazı olduğunu vurğulayıb əsas kimi hansısa sosial şəbəkə statuslarında yayılmış fərdi mövqeləri bölüşürlər. Əlbəttə, gətirilən bu arqumentin zəifliyini sübuta yetirməyə ehtiyac yoxdur.

Birincisi, ona görə ki, hər bir şəxs fikrini bildirməkdə sərbəstdir. Azərbaycanda da İsraili deyil, Fələstini dəstəkləmək meyilli çağırışlar səsləndirənlər var. İkincisi, bu da bir danılmaz faktdır ki, ölkəmizdə böyük çoxluq İsrailə simpatiya duyur. Çünki rəsmi Tel-Əviv həmişə yanımızda olub. Bununla bağlı çoxsaylı nümunələr hər kəsə yaxşı məlumdur. Ancaq bir faktı diqqətə çatdıraq. 44 günlük müharibə zamanı erməni jurnalistlərdən biri İsrailin baş naziri Benyamin Netanyahuya İsrailin nə üçün Azərbaycana silah satdığı barədə "kurioz" sual ünvanlamışdı. Baş nazirin cavabı çox maraqlı olmuşdur. Təxminən belə: siz yəqin soruşmaq istəyirsiniz ki, nə üçün Ermənistana deyil, Azərbaycana silah satırıq? Bildirim ki, Azərbaycanla döyüşən heç bir ölkəyə silah satmarıq.

B.Netanyahunun belə cavabı Azərbaycan – İsrail əlaqələrinin yüksək səviyyəsindən xəbər verir. İsrailin ölkəmizdəki səfiri Corc Dik isə Azərbaycan mediasına bir müddət əvvəlki müsahibəsində vurğulamışdı ki, rəsmi Tel-Əvivin Bakıya yanaşması münasibət məntiqindən yüksəkdə dayanan bir statusa malikdir. Yəni, iki ölkənin yaxınlığı hər şeyin üzərindədir. Bütün bunları Azərbaycan cəmiyyəti çox yaxşı görür. Cəmiyyətimiz onu da yaxşı görür ki, İsrailin Azərbaycanla yaxınlığında, eyni zamanda, ölkənin bütövlükdə İslam dünyasına xoş niyyətinin göstəricisi kimi meydana çıxmış trayektoriya var.

Bir sözlə, Azərbaycanın İsrailə yaxınlığı və dəstəyi, bütövlükdə, cəmiyyətimizin sosial sifarişi kimi meydana çıxan prosesdir. Bununla belə, rəsmi Bakı həmişə özünün balanslı siyasətinə sadiqdir. Nəzərə alaq ki, bu il Azərbaycanın İsraildə səfirliyi ilə eyni vaxtda Fələstində də ali diplomatik missiyası fəaliyyətə başladı. Məsələ yalnız bu müstəvidə deyil, Bakı ümumən siyasətini qarşılıqlı maraq və mənafeləri hesablayaraq qurmaqdadır və bu amil dünya dövlətləri tərəfindən qəbul edilir.

Beynəlxalq aləmdə hər kəs yaxşı anlayır ki, Azərbaycan dostluq, qardaşlıq, əməkdaşlıq məsələlərində bütövdür. Ölkəmiz münasibətləri qarşılıqlı fayda amili üzərində quraraq bəlli prinsiplər müəyyənləşdirir. Heç bir tərəfin iddialarında vasitəyə və alətə çevrilmir. Fikrimizin təsdiqi üçün Azərbaycanın İrana münasibətindəki stereotipləri yada salaq. Ölkəmiz İran İslam Respublikasına qarşı beynəlxalq təzyiqlərin geniş vüsət aldığı şəraidə ona qarşı çıxmadı, dostluq və mehriban qonşuluq siyasətinə sadiq qaldı. Bakı ən gərgin durumlarda belə "qırmızı cizgiləri" aşmadı. Bu gün də eyni xəttini uğurla davam etdirməkdədir.

Bəli, ölkəmizin yanaşma tərzi Ermənistanın siyasi industriyasında təmsil olunanların yarımçıq təfəkkürünə yad durumdur. Ona görə də özlərinin sərsəm ritorikalarını işə salıb Azərbaycanla müsəlman dünyası arasında nifaq toxumları səpə biləcəklərini düşünürlər. İndiki halda güddükləri iki konkret vəzifə var. Birincisi, İsrail – Fələstin münaqişəsi fonunda Azərbaycan – Türkiyə, ikincisi isə Azərbaycan – İran münasibətlərini zədələmək. Bütün "arqumentləri" də bunun üzərindədir. Əlbəttə, "niyyətlərinə" qətiyyən nail ola bilməyəcəklər.

# HƏMAS – İsrail qarşıdurmasında anti-Azərbaycan motivləri

## Yaxud erməni siyasi düşüncəsinin təfəkkür kasadlığı




***Ə.RÜSTƏMOV***
***XQ***

---

# Lemkinə, yoxsa erməniliyə sədaqət?

## *Soyqırımı cinayətlərinin qarşısının alınması üzrə institut yenə öz ampluasındadır*

**Soyqırımı cinayətlərinin qarşısının alınması üzrə Lemkin İnstitutunun ermənipərəstliyi, bir qayda olaraq, özünü Azərbaycan–Ermənistan münasibətləri ilə bağlı kənar tərəflərin ittihamı üzərində göstərməkdədir. Qurum yenə öz "ampluasındadır". Onun hazırkı hədəfi isə BMT-dir. Lemkinçilər bu il oktyabrın 1-də Qarabağda olmuş BMT missiyasının hesabatından məyus olduqlarını bildiriblər. Məsələ barədə söz açacağıq. Ancaq ilk növbədə, adı ilə fəaliyyəti üst-üstə düşməyən təşkilatın anti-Azərbaycan mövqeyinin indiyədək nəzərə çarpmış ayrı-ayrı təzahür formalarına nəzər salaq.**

***

Beləliklə, Soyqırımı cinayətlərinin qarşısının alınması üzrə Lemkin İnstitutu 2021-ci ildən ölkəmizə münasibətdə qərəzli mövqe tutmaqdadır. Təşkilat bu ilin mayından başlayaraq "fəaliyyətini" xeyli intensivləşdirib. İnstitutun başbilənləri Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelə ağıl öyrətməyə qalxaraq bildiriblər ki, qurum geosiyasi duruma və enerji məsələlərinə görə Azərbaycanın "diktatura"sına göz yumur...

Diqqət yetirək, lemkinçilərin Ş.Mişelə açıq məktubu Azərbaycan və Ermənistan liderlərinin mayda keçirilmiş Brüssel görüşü ərəfəsinə təsadüf etmişdi. Aşkar şəkildə görünürdü ki, institut Aİ Şurası prezidentinin fikirlərinə təsir göstərməyə çalışır. Müraciətdə Qərb dünyası ittiham olunurdu. İnstitut beynəlxalq ictimaiyyətin Qarabağın blokadasına məhəl qoymadığını vurğulayır və bildirirdi ki, Azərbaycanın, guya, indiyədək heç vaxt onun olmayan 4000 illik (?) yerli erməni icması ilə istədiyi kimi rəftarı cəzasızlıq mühiti formalaşdırır. Sənəddə, həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin 44 günlük müharibə dövründəki nitqlərində işlətdiyi ifadələr Ş.Mişelə çatdırılır, sanki belə bir şəxslə danışıq aparmağın yolverilməzliyi ritorikası əsas götürülür, ümumən ölkəmiz dünya ictimaiyyətinə mənfi yöndə təqdim edilirdi.




Daha sonra Lemkin İnstitutu Qarabağda "soyqırımı" təhlükəsi ilə bağlı saxta hesabat yaydı. Hesabatda bildirildi ki, "blokada şəraitində" soyqırımı təhlükəsi yaşanır, Azərbaycan Qarabağda və Ermənistanın sərhədləri boyunca hərbi toqquşma yaratmaq istəyir. Maraqlıdır ki, qondarma tarixi notlara köklənmiş sənəddə Türkiyə amili də qabardılmış, Ankaranın Bakıya silah satması üzərində dayanılmışdı. Lemkinçilər bununla kifayətlənməyərək, Qarabağdakı rus sülhməramlıları ilə əlaqədar vurğulamışdılar ki, onların əraziyə yerləşdirilməsi bölgəyə sülh gətirmədi.

O da maraqlıdır ki, Lemkin İnstitutu yaydığı sənədə leqal libas geydirmək üçün ora Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş baş prokuroru, dünya miqyaslı argentinalı dələduz Luis Moreno Okamponun Azərbaycan əleyhinə qərəz dolu, Qarabağda soyqırımının baş verdiyini "əsaslandıran" hesabatından da hissələr əlavə etmişdi. Ümumən institut sanki beynəlxalq aləmdəki bütün erməniperəst təşkilatlarının anti-Azərbaycan yönümlü sənədlərindəki yolverilməz motivlərin hamısını götürmüşdü. Ən əsası isə lemkinçilər bu rəyə gəlmişdilər: Azərbaycanın siyasi sistemi ilə "Artsax"ın siyasi sistemi arasında uyğunsuzluq var. Sən demə, ölkəmizdə diktatura imiş, o zamankı separatçı rejimdə isə demokratik mühit hökm sürürmüş...

Ümumən Lemkin İnstitutunun "fəaliyyətindən" və yanaşma tərzindən belə nəticəyə gəlmək mümkündür ki, qurum dünyanın istənilən nöqtəsində baş verən hərbi qarşıdurmalardakı tərəflərdən birinə soyqırımı törədən yarlığı yapışdıra bilər. Halbuki, bunun üçün institutun adını daşıdığı Rafael Lemkin tərəfindən vaxtilə dəqiq müəyyənləşdirilmiş əlamətlər var. Bu əlamətlər onun müəllifi olduğu BMT-nin "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada açıq şəkildə göstərilib. Ancaq lemkinçilər öz hesabatlarında sənədə bir cümlə ilə də istinad etməmişdilər.

***

Bəli, Lemkin İnstitutu indi Qarabağda olmuş BMT missiyasını günahlandırıb. Bildirib ki, belə bir missiyanın məqsədinin nə olduğunu anlamaq mümkünsüzdür. Ardınca isə qurum bölgənin hazırda, guya, işğal olunduğunu vurğulayaraq, doqquz aylıq "blokada" zamanı ora missiyanın gerçəkləşməsi üçün nəyə görə Azərbaycana təzyiq göstərilmədiyini soruşur, öz aləmində ortaya cəsarət amilini qoyur.

Ş.Mişelə olduğu kimi, BMT-yə də ağıl öyrətməyə çalışan lemkinçilər qurumu yenidən Qarabağa müvafiq missiya göndərməyə, onun tərkibini bitərəf ölkələrdən təşkil etməyə çağırıb. Çünki əvvəlki iş uğursuz olub. Reallıq dəqiq qiymətləndirilməyib. Sən demə, vəziyyətin obyektiv təhlili üçün problemə daha təfərrüatlı yanaşılmalı imiş.

Əlbəttə, Lemkin İnstitutunun dəqiqlik, obyektivlik və tərəfsizlik dedikdə nəyi nəzərdə tutduğu aşkardır. Qurumun başlıca xəttini erməniperəstliyin təşkil etdiyini əvvəldə vurğuladıq və mövcud istiqamətdəki digər yaramazlıqlardan da söz aça bilərik. Amma ehtiyac duymuruq. Təkrar edək ki, institut bir dənə də konkret məqama diqqət yetirmir ki, onu soyqırımı kimi qiymətləndirmək mümkün olsun. Qurumun bildirdiklərindən Ermənistan baş naziri Nikol Paşinyan və komandası, o cümlədən, erməni lobbi və diaspor təşkilatları, demək olar ki, hər gün danışırlar. Özü də gen-bol. Görünür, lemkinçilərin çalışdıqları "erməniperəst gündəmi" nəyin bahasına olursa-olsun aktiv saxlamaqdır.

***

Başlıca məqam budur ki, bəşəri humanizm carçısı olan Rafael Lemkinin adını daşıyan qurum bu böyük dühanın vandalizm aktlarından, etnik təmizləmələrdən qorunmaq məqsədilə göstərdiyi təşəbbüsü erməniperəstliyə xidmət platformasına çevirib. Ancaq təkcə Lemkin İnstututu deyil, eləcə də insan hüquq və azadlıqlarının təminatına çalışdığını bəyan edən digər təsisatlar da bəşəri dəyər və prinsiplərlə manipulyasiya yolu tuturlar. Heç şübhəsiz ki, bu gün Azərbaycan – Ermənistan münasibətləri ilə bağlı gerçəklikləri nəzərə almayıb ədalətsizliyə yol açanlar, sabah həqiqi soyqırımı hadisələri qarşısında susqunluqları ilə də eyni yaramazlıqlarını davam etdirəcəklər. Əlbəttə, qətiyyən fərqinə varmayacaqlar ki, hərəkətləri, ümumilikdə, dünyanın nizamını pozur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# İrəvan Heydər Əliyevi gözü götürməsə də, alqışlayırdı

**“Xalq qəzeti”nin “Heydər Əliyev xatirələr işığında” layihəsində bugünki qonağımız Azərbaycan ədəbi mühitində öz imzası və dəstxətti olan görkəmli şair, dramaturq, nasir və publisist, içtimai və dövlət xadimi, Azərbaycan Respublikasının birinci dərəcəli dövlət müşaviri, fövqəladə və səlahiyyətli səfir, Əməkdar incəsənət xadimi Hidayət Orucovdur. Hidayət müəllim 10 il bilavasitə Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında yüksək dövlət vəzifəsində çalışıb. Amma bizim birinci söhbətimiz Heydər Əliyevin ilk hakimiyyəti illərinin İrəvanda işləyən Hidayət Orucovun xatirələrinin əsas qəhrəmanlarından birinə necə çevrilməsi ilə bağlıdır.**



**– Hidayət müəllim, Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən bir müddət sonra onun haqqında bütün Sovet İttifaqında əfsanələr dolaşmağa başladı. Həmin illərdə Ermənistanda Heydər Əliyev haqqında nə danışırdılar, İrəvandan Azərbaycanın yeni lideri necə görünürdü?**

– Sizin sualınıza cavabı xoş bir xatirə ilə başlamaq istəyirəm. 1969-cu ilin oktyabrı idi. Heydər Əliyev 3-4 ay olardı Azərbaycan KP MK-nın birinci katibi seçilmişdi. Mədəniyyət sahəsində ilk tədbirlərdən biri kimi Bakıda Cəfər Cabbarlının 70 illik yubileyi keçirilirdi. Bu tədbirə digər respublikalardan olduğu kimi Ermənistandan da nümayəndələr dəvət olunmuşdu. Nümayəndə heyətinə Azərbaycana elmi işi ilə bağlı olan, yəni namizədlik dissertasiyası Mirzə İbrahimovun yaradıcılığına həsr edilən İrəvan İncəsənət Universitetinin rektoru, professor Sergey Daronyan, gənc, gözəl xanım olan elmlər doktoru, professor Luiza Samvelyan, Ermənistan Akademik Dram Teatrında səhnələşdirilən Cəfər Cabbarlının “1905-ci ildə” pyesində Baxşı rolunu oynamış Ermənistanın xalq artisti Ori Bünyatyan, əslən Bakı ermənisi olan dramaturq Ararat Baseryan və C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru Hidayət Orucov, yəni mən daxil idik.

Yubiley toplantısı indiki Akademik Milli Dövlət Dram Teatrında təşkil edilmişdi. Bizim nümayəndələrə rəyasət heyətinin



mərkəzində, üçüncü sırada yer ayrılmışdı. Birdən foye, zal hərəkətə gəldi və xahiş etdilər ki, hamı tez yerini tutsun. Biz oturandan sonra zalda qəfildən pıçıltılar başladı ki, Heydər Əliyev gəlir. Hündürboy, enlikürək, yaraşıqlı, cavan Heydər Əliyev kiçik bir qrupun müşayiəti ilə gəlib bizim qarşımızda birinci sırada oturdu. Nədənsə mənim diqqətim səhnədə yubiley mərasiminin açılışını edən Azərbaycan Yazıçılar İttifaqının sədri Mirzə İbrahimovun nitqinə deyil, məhz gənc Azərbaycan liderinə yönəlmişdi. Sanki öz-özümlə danışır və deyirdim ki, Allahım, nə möhtəşəm bir şəxsə bənzəyir, yerişi, davranışı adamı, zəhmi adamın diqqətini bir anda cəlb edir. Elə o zaman düşündüm ki, Azərbaycan onun sayəsində çox irəli gedəcək.

Bilirsiniz, Qərbi Azərbaycanda ermənilərin hakimiyyəti altında yaşayan bizlər üçün Azərbaycanın SSRİ miqyasındakı nüfuzu çox vacib idi. Açığını deyim ki, bizə bunun müqabilində münasibət göstərirdilər. Amma həmin illərdə Azərbaycanın hansı vəziyyətdə olduğu, 15 respiblikanın əksəriyyətindən geridə qalan bir respublika kimi tanınması bizi həmişə narahat edir, ciddi düşündürürdü. Ona görə də Heydər Əliyev kimi bir şəxsin hakimiyyətə gəlməsi elə ilk gündən bizdə böyük ümidlər doğurmuşdu. Çünki artıq bütün respublikalarda Heydər Əliyevin köklü islahatlarından, respublika rəhbərliyində apardığı kadr dəyişikliklərindən yaxşı mənada söhbətlər gəzirdi və Ermənistan da istisna deyildi. Əksinə, Ermənistanda Bakıda baş verənləri çox diqqətlə müşahidə edirdilər.

Yubiley toplantısının rəsmi hissəsi başa çatandan sonra fasilə elan olundu və biz də hamı kimi foyeyə çıxdıq. Birdən həmin dövrdə Azərbaycanın mədəniyyət nazirinin müavini olan Məmməd Ziyadov bizə yaxınlaşıb dedi: “Bu otağa keçin, Heydər Əlirza oğlu qonaqlarla görüşmək istəyir”. Bir az da tələsik bizi teatrın truppa müdirinin otağına dəvət etdilər. Ermənistan nümayəndə heyəti elə əvvəldə saydığım sıra ilə bir kənarda düzüldük. Heydər Əliyev üzündə təbəssüm içəri daxil oldu. Mən bunu “İrəvana məktublar”ımda belə yazmışam: “Elə bildim onun çöhrəsindəki nurdan otaq ikiqat işıqlandı”. Mədəniyyət naziri burada olmadığı üçün bizim nümayəndə heyətini ona nazir müavini Məmməd Ziyadov təqdim etməli idi. O da yalnız bizim rəhbərin adını çəkib təqdim etdi və kənara çəkildi. Nümyəndə heyətinin rəhbəri Sergey Daronyan bizi bir-bir Heydər Əliyevə təqdim etməyə başladı. Birinci, təbii ki, Luiza Samvelyan idi. Luiza Heydər Əliyevlə əl uzadıb görüşdü, amma onun əlini buraxmayıb dedi: “Heydər Əliyeviç, sizin haqqınızda Ermənistanda əfsanələr dolaşmaqdadır. Ona görə də rəfiqələrim, dostlarım tapşırıblar ki, Sizi diqqətlə izləyib öz təəssüratlarımı onlara danışım”. Heydər Əliyevin də necə hazırlıqlı və çevik bir şəxsiyyət olduğu elə ilk sözündən bəlli oldu. Dedi: “Siz biləsiniz ki, mənim valideynlərim də Ermənistandandır. Mənim də onlara hörmətim var”.

Heydər Əliyev gəlib mənə çatanda qrupumuzun rəhbəri məni çox yaxşı təqdim etdi və dedi: “İstedadlı şair, dramaturq, Cəfər Cabbarlı adına İrəvan Azərbaycan Dövlət Dram Teatrının direktoru Hidayət Orucov”. Heydər Əliyev bunu eşidəndən sonra əlimi bir az da möhkəm sıxıb dedi: “Belə gənc, teatrın direktoru. Çox şadam...”

Sonra Heydər Əliyev təbii, qayğıkeş ev sahibi kimi vəziyyətlə maraqlandı. Bundan hiyləgərcəsinə istifadə edən Luiza dərhal özünü qabağa verdi: “Görürsünüz də Heydər Əliyeviç, İrəvan Dövlət Azərbaycan Dram Teatrının dirketoru da bizimlədir, çox istedadlı gəncdir”. Bir qədər məni təriflədi. Yubiley toplantısında da nümayəndə heyətinin rəhbəri çıxışında teatrımız və mənim haqqımda xoş sözlər demişdi. Luiza fikrini davam etdirib dedi: “Heydər Əliyeviç Bakıda çox maraqlı və inkişaf etmiş erməni teatrı olub. Onun bərpa edilməsi nə üçünsə ildən-ilə keçir. Mən çox xahiş edirəm, onu bərpa etdirəsiniz”.

Heydər Əliyev çox diqqətlə onu dinlədikdən sonra dedi: “Mən tapşıraram öyrənərlər, baxaram!” Nə “bərpa edərəm” dedi, nə də “açaram”. Sonra da baxdı ki, Luiza çox danışır, dedi: “Sizə xoş arzular, Koçinyana salam deyərsiniz!” Koçinyan da Ermənistan KP MK-nın birinci katibi idi.

Səhəri birinci katibin “Gənclik”dəki iqamətgahında qonaqlara ziyafət verildi, amma Heydər Əliyev orada iştirak etmirdi. Rəhbərliyi ziyafətdə MK-nın ideologiya üzrə katibi Cəfər Cəfərov təmsil edirdi.

İrəvana qayıdandan 3 gün sonra mədəniyyət naziri Zakir Bağırov mənə zəng vurdu. Dedi: “İrəvana sizin teatra adam göndərirəm, ona lazımi işlərlə tanış olmağa kömək edin”. Bir-iki günə Azərbaycanın Gənc Tamaşaçılar Teatrının direktoru Bala Qasımov İrəvana gəldi. Qasımov özü musiqiçi idi, sonra da Musiqili Komediya Teatrının direktoru oldu. Teatr işini yaxşı bilən, çox ləyaqətli bir insan idi. Həyat yoldaşı da Abbas Mirzə Şərifzadənin qızı Firəngiz Şərifova idi.

Qasımov gələndən sonra məlum oldu ki, bu bizim teatrı ətraflı öyrənmək istəyir. Bunun nə məramla edildiyini soruşanda dedi ki, “götür-qoy edirlər, görsünlər, Bakıda erməni teatrını açsınlar, ya yox”. Təbii ki, mən buna çox mənfi reaksiya verdim və Bala Qasımov çox açıq şəkildə izah etdim ki, Bakıda qətiyyən erməni teatrı açmaq olmaz. Dedim, bunu mənim adımdan Zakir müəllimə çatdırın.

O vaxt Mərkəzi Komitələrdə mədəniyyət şöbələri yaradılmışdı. Hətta dedim onlara da deyin, Bakıda belə bir teatr açmaq olmaz, erməni teatrı açılsa, ora erməni millətçi ideologiyasının mərkəzlərindən birinə çevriləcək. Bala müəllim çox yumşaq, ehtiyatlı adam idi və buna elə açıq reaksiya vermədi. Əslində elə mən də çox yumşaq adamam, amma milli mənafe ortada olanda çox sərt oluram.

Qasımovu Bakıya yola salandan sonra Zakir Bağırova zəng vurdum və Qasımova dediklərimi ətraflı şəkildə ona da dedim. Zakir müəllim ehtiyatlı danışdı. Telefonda hiss etdim ki, çox narahat olur, nə qədər olmasa şəhər telefonudur, DTK onu dinləyə bilər, İrəvanda mənim telefonumu dinləyə bilərlər. İllər sonra ulu öndər söhbətlərinin birində dedi ki, Bakıda erməni teatrı açmaq istəyirdilər, mən buna imkan vermədim. Zakir Bağırovun mənə zəng vurmağı, Qasımovun İrəvana gəlməsi, görünür, elə Heydər Əliyevin Moskvanı dolandırmaq üçün bir manevri idi ki, guya, erməni teatrının açılmasına çalışır.

**– Hidayət müəllim, Luizanın Heydər Əliyev haqqında söylədiyi həqiqət idi, yoxsa ermənisayağı yarınmaq?**

– Luiza Samvelyanın Heydər Əliyevə dediyi: “Sizin haqqınızda Ermənistanda da əfsanələr dolaşır”, bu, ilk vaxtlar həqiqətən belə idi. Orda heyrət içində danışırdılar ki, Azərbaycanın birinci katibi Heydər Əliyev Bakıda təhlükəsizlik xidməti, cangüdənlər olmadan sərbəst gəzir, mağazalara gedir, alış-veriş edir, insanlarla küçələrdə görüşür, onların fikrini şəxsən dinləyir, xalqın rifahına xidmət edən çox ciddi qərarlar qəbul edir. Respublikada çox ciddi canlanma var, sosial-iqtisadi vəziyyət sürətlə dəyişməyə başlayıb.

Ermənistan özü o vaxtlar durğunluq içində idi və onun da belə bir rəhbərə ehtiyacı vardı. Ermənilər istəyirdilər ki, Ermənistanda da belə bir rəhbər olsun. Çünki bu respublikada insanlarda millətçilik düşüncəsindən başqa bir şey yox idi. Korrupsiya baş alıb gedirdi. Ermənistanın birinci katibi Anton İrəvandoviç Koçinyana, o vaxtlar respublikada haqlı olaraq Anton Brilliyantoviç deyirdilər.

Yeri gəlmişkən, onu da deyim ki, Heydər Əliyev birinci katib seçilən kimi Anton Koçinyan “Sovet Ermənistanı” qəzetinin redaktoru, eyni zamanda, MK-nın üzvü və Ali Sovetin Rəyasət Heyətinin sədrinin müavini Həbib Həsənovu dərhal yanına çağırıb ondan Heydər Əliyev haqqında məlumat öyrənmək istəmişdi: Əliyev kimdər, haralıdır, haradan gəlib? Həbib Həsənov da Heydər Əliyevi yaxından tanıyırdı...

**– Nədən Köçinyan Heydər Əliyevlə belə ətraflı maraqlanırdı? Nəsə planlaşdırırdı, yoxsa ehtiyat edirdi?**

– Koçinyanın niyə belə narahat olması aydın idi. İlk növbədə, onu çox ciddi maraqlandırırdı ki, görəsən, Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycandan yeni torpaqlar qamarlaya biləcək, ya yox. Amma onun heç ağlına gələ bilməzdi ki, həmin ilin may ayında həm Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin, həm də Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin Naxçıvandan, Gədəbəydən, Qazaxdan bəzi ərazilərin Ermənistana verilməsi haqqında təsdiq olunmuş qərarı belə icra edə bilməyəcək. May ayında qərar verilmişdi, iyulun 14-də Heydər Əliyev Azərbaycana rəhbər seçilmişdi.

Heydər Əliyev haqqında əfsanələr yeni-yeni ittifaqı dolaşmağa başlayanda, Anton Koçinyan öz xəbis niyyətlərinə aydınlıq gətirmək üçün Azərbaycanın yeni rəhbəri ilə təcili görüşmək qərarına gəlir. Elə Həbib Həsənovun yanındaca Heydər Əliyevə zəng edib çox səmimi danışır, təbrik edir və onu Ermənistana dəvət edir. Heydər Əliyev bildirir ki, məmnuniyyətlə Ermənistana gələrdi, ancaq vəzifəyə yeni seçildiyi üçün buna imkanı yoxdur. Razılaşırlar ki, yaxın vaxtlarda iki respublikanın sərhəd məntəqələrinin birində görüşsünlər.

Görüş Qazaxda baş tutur. Hər iki birinci katib Qazax ictimaiyyəti ilə söhbət edir, məsləhətləşir. Sonra Dilicana gəlirlər. Gecə Dilicanda Mərkəzi Komitənin qonaq evində qalmalı olurlar. Mənə bu işlərin içində olan adam danışdı ki, gecə yarıdan keçənədək onların pəncərəsində işıq sönmədi, müzakirələr aparılırdı. Məsələ gəlib torpaqlara çatanda Heydər Əliyev bildirir ki, hər iki respublikanın Ali Sovetləri səviyyəsində qəbul edilən qərara əsasən nəzərdə tutulan Azərbaycan torpaqlarının Ermənistana verilməsi qətiyyən mümkün olmayacaq. Çünki o qərarın heç bir əsası yoxdur. Koçinyan bir qədər təkidlə bildirir ki, axı hər iki respublikanın Ali Sovetləri səviyyəsində qərar verilib, Moskva buna razılıq verib, bunu necə icra etməmək olar? Heydər Əliyev deyir ki, bu çox yanlış bir qərardır, böyük səhv olub, mən bu barədə Moskvaya da fikrimi bildirəcəyəm. Beləcə, o görüşdə bu məsələyə nöqtə qoyulur.

Amma Anton Koçinyanı düşündürən təkcə bu məsələ deyildi. O, dörd il idi ki, Ermənistana rəhbərlik edirdi. Bundan əvvəl 13 il respublikanın Nazirlər Sovetinin sədri olmuşdu. Ona qədər MK-nın kadrlar üzrə katibi işləmişdi. Təcrübəli adam idi. Amma savadı, zəkası dərin deyildi. O başa düşürdü ki, öz hazırkı postunda qalmasında Cənubi Qafqaz respublikalarından birinə yeni birinci katib gəlmiş adamın rəyindən də çox şey asılı ola bilər. Təbii ki, Koçinyan Heydər Əliyevin DTK sədri işlədiyini və çox zəngin informasiyalara sahib olduğunu bilirdi. Ehtimal edirdi ki, Heydər Əliyev onun Ermənistandakı qara işlərindən də xəbərdar olmamış deyil və əgər Moskva Koçinyan haqqında ondan rəy soruşsa, Heydər Əliyev səhih məlumatları açıqlaya bilər.

Dilican görüşündən sonra Koçinyanda iki fikir yaranmışdı. Birinci, əmin oldu ki, Heydər Əliyev Moskvaya onun haqqında mənfi fikir söyləməyəcək. Niyə söyləməyəcəkdi, bilirsinizmi? Əvvəla, Heydər Əliyev Köçinyanın səviyyəsinə, zəkasına, elə də dərin adam olmadığına bələd olandan sonra elə belə bir adamın Ermənistan rəhbərliyində qalmasını istəyirdi. Çünki Heydər Əliyev bilirdi ki, Koçinyandan sonra gələn ondan iki dəfə artıq millətçi olacaq. Sonra elə belə də oldu. Dəmirçiyan gəldi və Koçinyan onun yanında toya getməli idi. İkinci Koçinyan qəti əmin oldu ki, o Heydər Əliyevdən bir qarış torpaq belə ala bilməyəcək. Heydər Əliyev elə dediyi kimi haqqında danışdığım qərarı belə yerinə yetirmədi və qərar ləğv edildi. Ulu öndər Moskvada ən yüksək səviyyədə bunun həllinə nail oldu.

Əlbəttə, Heydər Əliyevin Azərbaycanda həyata keçirdiyi sosial-iqtisadi islahatlar, respublikada sürətli inkişaf və tərəqqi, milli mənəvi dəyərlərin qorunması, bütün sahələrdə kadrların milliləşdirilməsi siyasətini görəndən sonra Ermənistanda, hətta Moskvada ermənilərin çalışdığı bir çox sahələrdə ona qarşı gizli hücumlar başladı. Təbii ki, bunu açıq müstəvidə apara bilmirdilər, çünki Heydər Əliyevin Moskvada nüfuzu onlara bəlli idi. İkinci bir tərəfdən, Heydər Əliyevin ağlının, zəkasının gücünə bələd idilər. Amma qısqanclıq və paxıllıq ermənilərin içini didirdi və onlar münasib məqam gözləyirdilər.

**(ardı var)**

***İlqar RÜSTƏMOV,***
***Əməkdar jurnalist***

# Ümummilli lider və Qərbi Azərbaycan

**Dünən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Bakı Politoloqlar Klubunun təşkilatçılığı ilə “Qərbi Azərbaycan irsinin tanıdılmasında Ulu öndər Heydər Əliyevin rolu” mövzusunda elmi-praktiki konfrans keçirilib.**

Məclisdə əvvəlcə tanınmış tarixçilərin Qərbi Azərbaycanla bağlı məqalələrinin toplandığı “Qərbi Azərbaycan: siyasi-tarixi aspektlər” kitabının təqdimatı olub.

Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov bildirib ki, Qərbi Azərbaycana qayıdış məsələsi Azərbaycan dövlətinin qarşısındakı duran prioritet məsələlərdən biridir. Prezident Kitabxanasının şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Nazim Mustafa diqqətə çatdırıb ki, ötən əsrdə ermənilərin davamlı olaraq Qərbi Azərbaycanda törətdikləri deportasiya və soyqırımları xalqımızın bu torpaqlardakı etnik-mədəni irsinin məhv edilməsi ilə müşayiət olunub.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli qeyd edib ki, Ulu öndər Heydər Əliyev Qərbi Azərbaycan mövzusunu ilk dəfə gündəmə gətirib, erməni deportasiya və soyqırımlarına ilk dəfə siyasi qiymət verib, qaçqınların problemlərini nizama salıb.

**XQ**

# Qazaxda Ulu öndərə həsr edilən tədbir

**Hərbi Prokurorluq Qazaxda Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları ilə birgə tədbir keçirib.**



Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, DSX-nin “Qazax” əlahiddə sərhəd diviziyasının komandiri, general-mayor Misir Əliyev, Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri Firad Əliyev və başqaları Ümummilli lider Heydər Əliyevin çoxşaxəli və zəngin fəaliyyətindən, dövlətimizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Sonda hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olunub, onları maraqlandıran suallar cavablandırılıb, eləcə də hərbçilərin qayğı və problemləri barədə məlumat verilib.

**XQ**

# İrəvan itirəcəklərinin fərqində deyil

## Baş nazir qətiyyət göstərməsə, son şans da əldən çıxa bilər

(əvvəli 1-ci səhifədə)

Bir qədər əvvəl İranla razılaşma çərçivəsində Azərbaycan tərəfi qonşu ölkənin ərazisindən keçəcək yeni yolun inşasına başlayıb. Hərçənd Ermənistan və Azərbaycan arasında da nəqliyyat əlaqələrinin bərpasına ümidlər var.

Yeri gəlmişkən, Prezident İlham Əliyev dünən Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd avtomobil yolunun İran İslam Respublikası ilə bağlantısının və Araz çayı üzərində körpünün tikintisi işlərinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb. Həmin sərəncamla yeni yolun İran İslam Respublikası ilə bağlantısının və Araz çayı üzərində körpünün tikintisi işlərinin davam etdirilməsi məqsədilə Prezidentin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 14 (on dörd) milyon manat ayrılıb.

**ARAYIŞ:** Araz çayının cənub sahilindən, Ermənistandan yan keçməklə, İran ərazisindən Naxçıvana və Türkiyə sərhədinə çıxışı təmin edəcək yol uzunluğuna görə Zəngəzur dəhlizindən az fərqlənir. Arazın şimal sahilindən, Ermənistandan keçəcək dəmir yolunun uzunluğu 42, İran ərazisindən salınacaq dəmir yolu isə təxminən, 50 kilometr olacaq. Ortadakı fərq 8 kilometr və iki körpüdür.

* * *

"Ermənistan və Türkiyə nümayəndələri arasında aparılan danışıqlarda əldə olunan razılaşmaların həyata keçirilməsinə ümid edirik". Bunu Ermənistan baş naziri Nikol Paşinyan oktyabrın 30-da parlamentin iclasında deyib. O xatırladıb ki, bu razılaşma üçüncü ölkə vətəndaşları və diplomatik pasportlara malik olan şəxslər üçün sərhədlərin açılmasına aiddir. "Sərhəd infrastrukturu ilə bağlı mühüm işlər görülüb. Biz "Marqara" keçid məntəqəsini yenidən təchiz etmişik və artıq belə proseslərə hazırıq", – deyə N.Paşinyan əlavə edib.

**Milli Məclisin deputatı Rasim Musabəyov qəzetimizə açıqlamasında qeyd edib ki, İrəvan bütün mümkün üsullara əl atmaqla vaxtı uzatmağa çalışır:** "İndiki vəziyyətdə Ermənistan zəifdir və onu himayə edənlərin də köməklik etməsi imkanları məhduddur. Guya, belə bir vəziyyətdə imzalanmış



sənəd, yaxud götürdüyü rəsmi öhdəlik Ermənistanın ziyanına olacaq. Yəni, bununla da deyirlər ki, gəlin mövcud vəziyyəti hər vəchlə qoruyub saxlayaq və vaxt udaq. Bəlkə, nəsə baş verdi. Bunlar hesab edirlər ki, vaxtı uzadaraq bir tərəfdən özlərini yazıq kimi aparacaq, o biri tərəfdən isə bütün dünyadan "təhlükəsizliklərinə təminat", "qaçqınlara" humanitar yardım diləməyə girişəcəklər. Üstəlik, Azərbaycanın "hərbi təcavüzə hazırlaşdığı" barədə nağılları uydurmaqla, beynəlxalq rəylə manipulyasiya etməklə nəyəsə nail olacaqlarını düşünürlər. Ümumiyyətlə, bunlar baxdılar ki, Kosovada gərginlik oldu, NATO, Avropa Birliyi qarışdı, bunların da ümidləri artdı. Vaxtilə ümidləri ondan ibarət idi ki, gərginlik olacağı halda ABŞ və Rusiya Cənubi Qafqaza müdaxilə edəcəklər. Daha anlamırlar ki, artıq ABŞ və Rusiya müdaxilə etməyəcək, ümumiyyətlə, heç kəs müdaxilə etməyəcək və edə də bilməz".




Rusiya Baş nazirinin müavini Aleksey Overçukun İrəvanın dəhliz və yollarla bağlı qəti mövqeyinin formalaşmadığı barədə açıqlaması da maraqla qarşılanıb. O, bu məsələdə Hayastan baş nazirini açıq mətnlə qınayıb: "Meğridən keçməsi planlaşdırılan yolla bağlı Ermənistanın hələlik dəqiq mövqeyi yoxdur. Təbii olaraq ortaya belə bir sual çıxır: bütün münasibətlərdə özü üçün faydalı və gəlirli bir layihənin reallaşmasında İrəvan nə üçün inadkarlıq göstərməkdə davam edir? Ermənistan ərazisindən Araz çayının sahili ilə dəmir yolu və avtomobil yolunun praktiki bərpası məsələsini Bakı ilə müzakirəsinə başlamaq üçün dəqiq ifadə olunan mövqeyi yoxdur".

Nəhayət, Rusiya isteblişmenti də Zəngəzur dəhlizinin açılmasının ləngiməsində Paşinyan hakimiyyətini birbaşa qınamaqdan çəkinmir. Kremlin öz maraqlarını güddüyü və 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın Azərbaycanın qərb rayonlarından Naxçıvana nəqliyyat kommunikasiyasının açılmasının qeyd olunduğu doqquzuncu bəndi məhz icra olunmamış qaldığına görə Bakı özünə alternativ marşrut seçməyə üstünlük verdi. İndi itirən kim olacaq? Yalnız Ermənistan!

* * *

Mövzu ilə bağlı "Caliber.az"-a şərh verən qazaxıstanlı analitik **Kazbek Beysebayev** xatırladıb ki, Zəngəzur dəhlizi bütün Türk dünyasının qırılmış əlaqələrini bərpa edə və konkret olaraq Azərbaycanla Türkiyə və Orta Asiya ölkələri arasında möhkəm körpü sala bilər:

"İran bu layihəyə qarşı çıxmaqla, guya, Türk dövlətlərinin inteqrasiyasına mane olur. Amma, əslində, Tehran, əksinə, Azərbaycanın Türkiyəyə nəqliyyat çıxışını təmin etməkdən ötrü öz ərazisini təklif edib. Əlbəttə, pulsuz tranzit olmur və burada yerli ölkə üçün böyük fayda var. Böyük nəqliyyat dəhlizlərinin keçdiyi başqa ölkələrin timsalında bunu yaxşı bilirik. İran tranzitə münasibətdə, ilk növbədə, özünün iqtisadi və siyasi maraqlarından çıxış edir. Burada biznes və siyasət çulğaşır". Ermənistanın özünün coğrafi vəziyyətindən yararlanmalı olduğunu deyən K.Beysebayev İrəvanın bundan yalnız qazanacağına, əks təqdirdə, çox şeydən məhrum olacağına diqqəti çəkir: "Aydın məsələdir ki, Zəngəzur dəhlizi Ermənistan büdcəsini sabit və uzunmüddətli gəlirlə təmin edə bilər. Açığını demək lazımdır ki, yükdaşımanın həcmi nə qədər artacaqsa, xəzinəyə daxil olan pul da bir o qədər çoxalacaq. Amma, hər şeydən göründüyü kimi, İrəvan özü üçün faydalı layihədən könüllü surətdə imtina edir".

Əgər Ermənistanın sərgilədiyi siyasi mövqeyinin arxasında digər xarici siyasət oyunçuları durmasaydı, yeni ixtiyarı bütünlüklə öz əlində olsaydı, biz Paşinyandan tamamilə fərqli, sağlam qərarların qəbulunu gözləyə bilərdik. Çox təəssüf ki, həm Türkiyənin, həm də İranın Avrasiya regionuna təsirlərinin



güclənməsindən əndişələnən ABŞ, Avropanın aparıcı dövlətləri prosesin "qarşısını almaq üçün" Ermənistandan hələ də maşa kimi istifadə etməyə çalışırlar. Son vaxtlar İrəvanın Rusiyadan kəskin surətdə üz çevirməsini, daha çox Qərbə istiqamətlənməsini məhz bu prizmadan müşahidə etməliyik. Paşinyan hakimiyyətinin həm şərqli, həm də qərbli tərəfdaşlarından özünə təhlükəsizlik və maliyyə təminatı tələbinə də bu nöqteyi-nəzərdən baxmağımız doğru olar. Hazırda ona bu təminatı heç kəs verə bilməz. Bunu yaxşı anlayan İrəvan indi "papağını qabağına qoyub" itirəcəkləri ilə qazana biləcəklərinin nisbətini hesablasın.

***İmran BƏDİRXANLI***
**XQ**

# "Demokratik" Ermənistanda 50-dən çox siyasi məhbus var

## Paşinyan hakimiyyətdə olduğu 5 ildə bir dəfə də amnistiya elan etməyib




(əvvəli 1-ci səhifədə)

Vəkilin açıqlamaları Ermənistanda mövcud siyasi vəziyyəti əks etdirmək baxımından əhəmiyyət daşıyır. Belə ki, onun sözlərinə görə, özünü "Vətəndaş cəmiyyəti" kimi təqdim edən qrantyeyən təşkilatların nə üçün susduğunu başa düşmək olar – onlar Paşinyanın maraqlarına xidmət edirlər. Amma müxalifətin həbs olunanların azadlığa buraxılması tələbi ilə ay ərzində bir dəfə də olsun piket və mitinq keçirməməsinin səbəbi aydın deyil: "Niyə Vazgen Manukyan və Andranik Tevanyan uşaqlarla bağlı seçilmiş həbs-qətimkan tədbirinin dəyişdirilməsi tələbi ilə sutkalıq etiraz aksiyaları təşkil etmədilər? Nə üçün həbs olunanların qohumlarını və kurs yoldaşları bu aksiyalarda iştirak etmək üçün səfərbər olunmayıb?

Xudoyan hesab edir ki, sentyabrın 19-da hökumət binası yaxınlığında kütləvi iğtişaş olmayıb. Belə ki, Qarabağdakı hadisələrdən şoka düşən etirazçılar arasında təxribatçıların olması faktı "Qolos"da və digər media subyektlərinin yazılarında dəfələrlə qeyd olunub: "Görünən odur ki, gənclərin həbsi üçün əsaslar qəsdən şişirdilib. Gənclər azadlıqda olsalar, çətin ki, istintaqa müdaxilə etsinlər və ya polisin "düzgün" ifadə almasına mane olsunlar. Bu səbəbdən onların həbsdə saxlanması üçün heç bir əsas yoxdur".

Vəkil Paşinyanın iqtidara gəlməzdən əvvəlki dövrlə indikini müqayisə edib və belə bir nəticəyə gəlib: "Beş il əvvəl belə həbslər İrəvanın ən azı yarısını küçələrə çıxarardı. Rejimin idarə etdiyi illərdə erməni cəmiyyəti tanınmaz dərəcədə dəyişib. Media subyektləri vaxtaşırı "Zatik" uşaq yardım mərkəzində baş verən zorakılıq faktları ilə bağlı ictimaiyyəti məlumatlandırır. On beş yaşlı yeniyetmənin təcavüzə məruz qalması ilə bağlı sonuncu xəbər oktyabrın 6-da yayılıb. Ona qədər də mediada hamilə yeniyetmə qızlarla bağlı məlumatlar öz əksini tapıb. Sosial təminat naziri hara baxır? Niyə tədbir görülmür, niyə "demokratiya qalası"nda uşaq zorakılığı çiçəklənir?!"

Qeyd edilib ki, N.Paşinyan öyünür: "Deyirlər, o, bir neçə gün ərzində 100 mindən çox insanı qəbul edə bilməklə dünyanı təəccübləndirib. Ancaq Qarabağdan olan uşaqların məktəblərin bədən tərbiyəsi məşğələsi zallarında gecələməyə davam etdiklərini ancaq müxalifət telekanallarının reportajlarından öyrənmək olar. 18-25 yaşlı gənclər qeyri-qanuni həbsdə saxlanılır, cəmiyyət onların azadlığa buraxılması və tədrisə qayıtması üçün mütəmadi piketlər keçirmək əvəzinə susur. Ola bilsin ki, universitet rektorları 19 sentyabr aksiyasında və sonrakı günlərdə küçələrin blokadasında iştirak etdiklərinə görə məhkəmənin qərarı ilə həbsdə olan şəxslərin ali məktəblərdən xaric olunması tələbi ilə artıq milli təhlükəsizlik xidmətindən göstəriş alıblar. Rejim başqalarının "tərbiyəsi üçün" universitetləri siyasi fəal tələbələrdən məhrum etməyə çalışır..."

Yazıda qeyd olunur ki, erməni cəmiyyətində qəddarlığın və laqeydliyin dərəcəsi artmaqda davam edir. Belə ki, etirazlarda iştirak etdiyinə və "Facebook"da paylaşım etdiyinə görə həbsdə olan 34 yaşlı iki uşaq anası, Qarabağdan gətmiş Tatev Virabyanın huşunu itirməsi xəbəri ictimaiyyətdə zərrə qədər də emosiya doğurmayıb. Bildirilir ki, Tatevin qardaşı İkinci Qarabağ müharibəsində həlak olub. Gənc qadının həbs müddətinin uzadılmasına isə yalnız "Facebook"da reaksiya verilib.

Qəzet belə bir nəticəyə gəlir ki, 44 etirazçını siyasi motivlərlə həbs etməklə Paşinyan küçə mübarizəsinin genişlənməsinin qarşısını almaq istəyir. Vəkil O.Xudoyan isə həbs olunanların dəqiq sayını açıqlamaqda israr etmir. Belə ki, həbsdəkilərin sayı, əslində, daha çoxdur: "Bura İrəvan meri Tiqran Avinyandan fərqli olaraq, de-fakto Vanadzor şəhərinin meri seçilmiş Mamikon Aslanyanı, sabiq elm və təhsil naziri, Respublika Partiyası sədrinin müavini Armen Aşotyanı, generallar Qriqori Xaçaturovu və Mikael Arzumanyanı, Ermənistanın ikinci prezidentinin oğlu Levon Koçaryanı, fəal Tatev Virabyanı da əlavə edin.

### Ekspert rəyi

**Azər HƏSRƏT**
**siyasi şərhçi:**



– Paşinyanın Qərbdəki havadarları onun ölkə daxilində həyata keçirdiyi həbslərə göz yumurlar. Ermənistanda faktiki çox sayda siyasi məhbus olsa da, bu ölkəyə münasibətdə siyasi məhbus məsələsi hər zaman arxa plana keçirilib. Bu da ondan irəli gəlir ki, Paşinyan Qərbin siyasi məktəbindən çıxmış biridir. Lider kimi yetərincə təcrübəli, necə deyərlər, bişmiş biri deyil. Amma istər-istəməz onların adamıdır. Ona görə də onun dövründə Ermənistanda siyasi məhbusların olmasına göz yumulur.

Bunun özü ondan xəbər verir ki, Azərbaycan ictimaiyyətinin ikili standartlar barədə dedikləri boş sözlər deyil. Biz illərdir ki, Qərb dairələrinin Azərbaycanla Ermənistana fərqli yanaşdıqlarını bildiririk. Azərbaycanda ən adi hadisəni şişirdərək dünyaya car çəkən həmin qurumlar Ermənistanda bu qədər zorakılıqlar, həbslər olduğu halda heç səslərini də çıxarmırlar. Təbii ki, bu da ikili standartların daha bir bariz nümunəsidir. Buradan çıxan digər nəticə odur ki, əgər Qərbin adamı hakimiyyətdədirsə, o, Qərbdən heç bir təpki görməyəcək.

Ermənistanda 50-dən çox siyasi məhbus var. Təəssüf ki, cəmiyyət bu fakta da "Zatik" mərkəzində uşaqlara edilən zorakılıq kimi etinasız, laqeyd yanaşır".

"Ermənistanın səsi" qeyd edib ki, bu günlərdə kiçik Koçaryanın həbs müddətini uzatmış hakim Masis Melkonyan özü pul oğurluğu (mənimsəmə) üzrə cinayət işində şübhəli bilinir. Bununla belə ədalət mühakiməsi adı altında özbaşınalıq edir: "Ölkədə hər gün və hər yerdə hüquqi xaos hökm sürür, onun memarı (Paşinyan nəzərdə tutulur–S.H.) isə Avropada gurultulu alqışlarla qarşılanır... Çünki erməni cəmiyyəti susur, başını dəvəquşu kimi qumun içində gizlədir ki, bu özbaşınalıqları görməsin".

* * *

Ermənistanda hökm sürən vəziyyətlə bağlı "Panorama.am" saytında dərc olunmuş məqalədə də maraqlı məlumatlar öz əksini tapıb. "Ermənistandakı sistem Pinoçet və Pol Pot dövrünün "ədalətini" xatırladır" sərlövhəli məqalədə qeyd olunub ki, həbs qətimkan tədbiri kimi deyil, cəza tədbiri kimi və bir qayda olaraq, hakim rejimin istefasını tələb edən siyasi xadimlərə münasibətdə tətbiq edilir: "2022-ci il iyulun 1-də Cinayət-Prosessual Məcəlləsinə ev dustaqlığı ilə bağlı maddə daxil edilib. Hakim "verxuşka" bütün künc-bucaqda qışqırırdı ki, bu tədbirdən istifadə həbs-qətimkan tədbiri seçilmiş şəxslərin sayını azaldacaq. Hökumət özünü məhkəmə-hüquq sisteminin islahatçısı kimi göstərirdi. Lakin bir il üç aydan sonra erməni sistemi Pinoçet və Pol Pot dövrlərinin "ədalətini" xatırladır. Ancaq həmin diktatorların dövründə insanlar yüksək səslə cəsarətli söz dediklərinə görə həbsxana kameralarına atılırdılarsa, bu gün "Facebook"da yazdıqlarına və rejimin devrilməsi tələbi ilə etiraz aksiyalarında iştirak etdiklərinə görə həbs olunurlar. Beş il əvvəl qeyri-demokratik hökumət dövründə "Rədd olsun Serj!" deyən bir nəfər belə həbs olunmamışdı. Bu gün küçəyə çıxıb "Rədd olsun Nikol!" deyib qışqırsanız, dərhal özünüzü polis maşınında tapacaqsınız. Orada sizi beyin silkələnməsinə qədər döyəcəklər, sonra da polis şöbəsində diaqnozu "təsdiq edəcəklər". Burada sizi vəkil gələnə qədər döyməyə davam edəcəklər və bəxtiniz gətirməsə, vəkili də döyəcəklər. Belə hallar çox olur".

Sayt bildirib ki, Ermənistan həbsxanaları dolub, ən pis vəziyyət "Armavir" cəzaçəkmə müəssisəsindədir. Artıq yeni həbsxananın tikintisi ilə bağlı xəbərlər yayılıb. Vəkil Raffi Aslanyan bəyan edib ki, demokratik islahatlar kursu elan edən ölkədə 5 ildə bir dəfə də olsun amnistiya elan olunmayıb. Onun sözlərinə görə, bu, demokratik ölkələr üçün görünməmiş bir hadisədir. Vəkilin sözlərinə görə, Ermənistanda hakimlər prokurorluğun və ittiham tərəfinin əlavələrinə çevrilib və həbslərin sayı narahatlıq doğurmaya bilməz.

Göründüyü kimi, demokratik cəmiyyət quracağı vədi ilə hakimiyyətə gələn və müharibədə məğlub olmasına baxmayaraq, 2021-ci ildə onu yenidən öz əlində saxlayan N.Paşinyan ölkəni zorakı, qəddar metodlarla idarə edir. Qərbin insan haqları üzrə ixtisaslaşdığını bəyan edən institutları isə özlərini görməzliyə vururlar. Bunun özü də Qərb dairələrinin ikili standartlarının və riyakarlığının göstəricisidir.

***Səxavət HƏMİD,***
**XQ**

# Gürcüstan və Qazaxıstan Orta Dəhlizdə də Azərbaycanın tərəfdaşına çevrilib

## Yeni marşrutun əsasını bu 3 ölkə 9 il əvvəl qoyub

**Gürcüstan və Qazaxıstan arasında Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) inkişafı və səmərəliliyinin artırılması ilə bağlı imzalanan saziş hər iki ölkənin dəmir yolunda təhlükəsizliyini təmin etmək, qlobal ticarət və nəqliyyatda bu dövlətlərin gələcək mövqelərini gücləndirmək məqsədi daşıyır.**

Mərasimdə qeyd edilib ki, Orta Dəhlizin 2022–2027-ci illər üçün Yol Xəritəsi 2022-ci il noyabrın 25-də Transxəzər Nəqliyyat Dəhlizinin inkişafı məqsədilə Gürcüstan, Qazaxıstan və Azərbaycan nümayəndələri arasında Aktauda keçirilən görüşdə imzalanıb.

Yeri gəlmişkən, Orta Dəhlizin reallaşdırılmasına başlandığı vaxtdan etibarən Qazaxıstan bu təşəbbüsü fəal şəkildə dəstəkləyib, bu istiqamətdə genişmiqyaslı layihələrin icrasını diqqətdə saxlayıb. Respublikamızın bu ölkədəki səfiri Ağalar Atamoğlanov Bakıda "Azərbaycan və Qazaxıstan arasında münasibətlər Qazaxıstan Prezidentinin xalqa müraciəti prizmasından" mövzusunda keçirilən dəyirmi masadakı çıxışında Orta Dəhlizin potensialının gündən-günə artdığını və bu layihənin təkcə region ölkələrinin deyil, həm də xarici investorların diqqətini cəlb etdiyini vurğulayıb.

Bu günlərdə Qazaxıstanda səfərdə olan Türkiyənin xarici işlər naziri Hakan Fidan da qazaxlı həmkarı Murat Nurtlenu ilə görüşündə Orta Dəhliz təşəbbüsünü yüksək dəyərləndirərək bildirib ki, Çindən Avropaya və əks istiqamətə daşınan yüklərin Orta Asiyadakı türk respublikalarının ərazisindən keçərək Transxəzər dəhlizi ilə Azərbaycana, buradan isə Türkiyə və Avropaya aparılması bu marşrutun həm səmərəlilik, həm də vaxta qənaət baxımından önəmini göstərir.

Qeyd edək ki, Azərbaycan artıq beynəlxalq aləmdə Şərq–Qərb, Şimal–Cənub nəqliyyat dəhlizləri ilə yanaşı, Orta Dəhliz marşrutu ilə də mühüm mərkəz kimi tanınır. Ölkəmizin tərəfdaşları ilə birlikdə bu nəqliyyat infrastrukturunun tam ötürücülük gücü ilə fəaliyyətini reallaşdırmaq üçün praktik işlər görülür. Hökumət tərəfindən dəhlizlərin inkişafına mühüm vəsait ayrılması, respublikamızda avtomobil və dəmir yollarının müasir səviyyədə qurulmasına xüsusi önəm verilməsi, həmçinin əsaslı təmir işlərinin aparılması bunun bariz ifadəsidir.

Xatırladaq ki, Orta Dəhliz 2014-cü ilin fevralında adları çəkilən hər 3 ölkənin dəniz və dəmir yolu nəqliyyatı sahəsində aparıcı müəssisələrinin iştirakı ilə yaradılıb. Dəhliz marşrutunun hazırda Çin sərhədindən başlayaraq, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan vasitəsilə Avropaya uzanması gerçəkləşdirilib.

2022-ci ilin iyununda Türkiyə, Azərbaycan və Qazaxıstanın xarici işlər nazirləri arasında üçtərəfli regional əməkdaşlığın gücləndirilməsi, Xəzər dənizi üzərindən Yaxın Şərq–Qərb Dəhlizinin potensialının inkişaf etdirilməsi barədə razılıq əldə olunub. Eyni zamanda, Türkiyə Gürcüstanın tranzit marşrutunun bir hissəsi kimi dəhlizə daxil edilməsi təşəbbüsü ilə çıxış edib.

### Ekspert rəyi

**Hüseynqulu QULİYEV, iqtisadçı-ekspert**



Hazırda Azərbaycan Orta Dəhlizlə bağlı üzərinə düşən öhdəliklərin yerinə yetirilməsi istiqamətində tədbirləri davam etdirir. Reallaşdırılan layihələr sırasında Bakı Limanında logistika imkanlarının genişləndirilməsi xüsusi diqqət çəkir.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin QSC baş əməliyyat direktoru Eugene Seeh bu günlərdə Bakıda keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) iclasında limanın müasir infrastruktur imkanlarının artırılması istiqamətində layihələr həyata keçirildiyini bildirib. O, bu ticarət limanını bütün Avrasiya yolu ilə daşımaların maneəsiz hərəkəti üçün önəmli infrastruktur hesab etdiyini vurğulayıb.

Limanın ümumi yük terminalının rəisi Kamran Cəlilinin sözlərinə görə, burada 13 yanalma, 2 "Ro-Ro", 2 bərə, 6 ümumi işlər körpüsü və 8 kran vasitəsilə yükdaşıma işləri icra edilir. Bu gün limanda istehsal gücü saatda 600 ton olacaq gübrə terminalı tikilir. Bütün əməliyyatlar tam avtomatlaşdırılır. Gələcəkdə limanın genişləndirilməsi və ikinci fazasının inşası nəzərdə tutulur.

Prezident İlham Əliyevin iştirakı ilə 2018-ci il mayın 14-də açılış mərasimi keçirilən Bakı Limanının 1-ci fazada yükaşırma potensialı 15 milyon ton, o cümlədən 100 min TEU konteynerdir. Şərq–Qərb və Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən, yüksək texniki imkanlara malik əməliyyatlar sahəsində nümunəvi rəqəmsal və yaşıl həllər tətbiq olunduğu limanın yükaşırma həcmi ilbəil artır. Eyni zamanda, dünyada formalaşan yeni reallıqlar fonunda tranzit ölkə kimi Azərbaycana böyük tələb formalaşıb və bu amil də respublikamızın ən böyük dəniz qapısı, logistika mərkəzi olan Bakı Limanına cəlb edilən yükün həcmini sürətlə çoxaldır.




Hazırda Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı (IRU) Çin və Avropa ölkələri arasında trafikin artmasını nəzərə alaraq Orta Dəhlizdən maksimum yararlanmaq imkanlarını araşdırır. Təşkilatın baş katibi Umberto de Pretto bununla bağlı jurnalistlərə müsahibəsində qeyd edib ki, Azərbaycandan keçən Orta Dəhliz Çin və Avropa arasında ən qısa olmaqla yanaşı, eyni zamanda, ən çətin marşrutdur: "Çünki bu dəhliz multimodal nəqliyyatdan istifadəni tələb edir, iki dənizdən və bir çox ölkələrdən keçir. Bundan əlavə, Avtomobil Nəqliyyatı İttifaqının Şimal və Cənub dəhlizləri kimi seçimi də var".

Qurum rəsmisi Azərbaycan üçün mühüm önəm daşıyan Orta Dəhlizdən daha səmərəli istifadə olunacağına əminliyini də bildirib. Baş katib, həmçinin Azərbaycanın Dövlət Gömrük Komitəsinin rəhbərliyi ilə bütün iştirakçılar arasında zəmanət və elektron məlumat mübadiləsi ilə Orta Dəhlizin faydalarından maksimum istifadəni təmin etmək üçün TIR sisteminin təkmilləşdirilməsi məsələsinin müzakirə olunduğunu da diqqətə çatdırıb.

Yükdaşımalardan söhbət düşmüşkən, bir məqamı da xatırlatmaq istərdik. Belə ki, bu istiqamətdə görülən işlər ölkəmizin ərazisindən yükdaşımaların həcminin artmasına müsbət təsir göstərib. Cari ilin I yarımilində respublika üzrə avtomobil nəqliyyatı ilə yüklərin daşınması 4,8 faiz artaraq 60 milyard 761 milyon tona çatıb. Eyni zamanda, bu ilin ötən aylarında Orta Dəhliz üzrə avtomobil nəqliyyatı ilə yüklərin tranziti Avropa İttifaqında (Aİ) getdikcə daha çox tərəfdar qazanıb. Bundan başqa, iyun ayında TRACECA Hökumətlərarası Komissiyasının Daimi Katibliyi tərəfindən Litvadan Polşaya, daha sonra Slovakiya, Macarıstan, Rumıniya və Bolqarıstana multimodal marşrut üzrə yarımqoşqulu yük maşını traktorları ilə yüklərin pilot daşınmasını təşkil edən təşəbbüs irəli sürülüb.

Yeri gəlmişkən, sözügedən istiqamətdə yükdaşımaların həcminin artırılmasını Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Assosiasiyası da diqqətdə saxlayır. Assosiasiya hazırda bu məqsədlə Sinqapurla birlikdə Orta Dəhlizin rəqəmsallaşması konsepsiyasını hazırlayır. Qurumun baş katibi Haydar Abdikerimovun sözlərinə görə, indi dəhlizin detalizasiyası üzrə işlər görülür və dəhlizə qoşulacaq ölkələrin (Sinqapur, Bolqarıstan və Litva) bu marşrutla hərəkəti planlaşdırılır.

Sərhəd keçidlərinin sadələşdirilməsindən danışan assosiasiyanın baş katibi qeyd edib ki, hazırda bu məsələ ilə bağlı Dəmir Yolları Əməkdaşlıq Təşkilatı (DYƏT) və BMT-nin struktur bölmələri ilə birgə layihələr reallaşdırılır.

Burada diqqətçəkən bir məqamı da xatırlatmaq istərdik. Belə ki, Avropanın aparıcı logistika şirkətləri, xüsusən Danimarkanın "Maersk", Avstriyanın "Rail Cargo Group", Finlandiyanın "Nurminen Logistics" və Niderlandın "Rail Bridge Cargo" şirkətləri Orta Dəhlizə yüklər cəlb edir. Dünya İqtisadi Forumunun yaydığı məlumatda isə Çinlə Avropa arasında əmtəə dövriyyəsinin ildə 600 milyard dollar dəyərində qiymətləndirildiyi bildirilir. Həmin məlumatda, eyni zamanda Mərkəzi Asiya, Xəzər dənizi və Cənubi Qafqaz ərazisindən keçən Orta Dəhlizin Çinin Sakit Okean sahilindən Avropaya ən qısa yol olduğu, Şanxaydan Avropaya yüklərin daşınmasının bu marşrutla 10 gün çəkə biləcəyi də vurğulanır.

*Vaqif BAYRAMOV*
*XQ*

# Cocuq Mərcanlıda tibbi geyimlər buraxılır



***Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində işə salınan yeni müəssisədə respublikanın tibb personalı, habelə xəstəxanalarda müalicə alan şəxslər üçün geyimlər və tibbi maskaların istehsalına başlanıb. Hazırda burada kəndin 8 xanım sakini işlə təmin edilib.***

Qeyd edək ki, Cocuq Mərcanlı xanımlarının hazırladıqları bu məhsullar hazırda ölkənin müxtəlif tibb müəssisələrinə çatdırılır.

# Sığorta yığımları 1 milyard manata yaxınlaşır



***Mərkəzi Bankın məlumatına əsasən, ölkədəki 20 sığorta şirkətinin xətti ilə cari ilin yanvar–sentyabr aylarında 937 milyon 238 min manat sığorta haqqı yığılıb. Bu, ötən ilin eyni dövrünə nisbətən 28,2 faiz çoxdur.***

Hesabat dövründə sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği isə 400 milyon 387 min manata bərabər olub. Bu da illik müqayisədə 25,7 faiz çoxdur.

# MDB ölkələri ilə ticarət 4 milyard dolları keçib



***Bu ilin yanvar–sentyabr aylarında Azərbaycanla MDB ölkələri arasında ticarət dövriyyəsinin dəyəri 4 milyard 735 milyon ABŞ dolları təşkil edib. Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 12,5 faiz çoxdur. Eyni zamanda, həmin müddətdə MDB ölkələri ilə ticarət əməliyyatları ölkənin ümumi ticarət dövriyyəsinin 32,6 faizini təşkil edib.***

Hesabat dövründə ölkəmizin ticarət dövriyyəsi Rusiya ilə 3 milyard 133 milyon dollar, Türkmənistanla 678 milyon dollar, Qazaxıstanla 269 milyon dollar, Ukrayna ilə 247 milyon dollar, Belarusla 238 milyon dollar və Özbəkistanla isə 120 milyon dollar dollar olub.

*XQ*

# BTC ilə Türkiyə ərazisindən 171 milyon 676 min barel neft nəql edilib

**(əvvəli 1-ci səhifədə)**

Energetika Nazirliyinin məlumatına görə, 1768 kilometr uzunluğunda olan BTC boru kəməri 2006-cı ilin iyun ayında istismara veriləndən 2022-ci ilin sonunadək bu boru kəməri vasitəsilə, təqribən, 531 milyon tondan çox (3,99 milyard barel) xam neft nəql edilib və Ceyhanda 5 min 244 tankerə yüklənərək dünya bazarlarına göndərilib. Bu ilin birinci yarısında isə "Bakı–Tbilisi–Ceyhan" (BTC) üzrə əməliyyat xərclərinə, təqribən, 59 milyon dollar, əsaslı xərclərə isə 18 milyon dollar vəsait xərclənib.

Hazırda BTC boru kəməri əsasən, Azərbaycandan "Azəri–Çıraq–Günəşli" nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, BTC vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan və Türkmənistan) də nəql olunur.

Boru kəmərinin Azərbaycan və Gürcüstanda yerləşən hissələrinin operatoru "BTC Ko."nun səhmdarları adından BP, Türkiyədə yerləşən hissəsinin operatoru isə "Botaş International Limited" şirkətləridir. Kəmərin diametri Azərbaycanda və Türkiyədə, əsasən, 42 düyümlükdür. Gürcüstan ərazisində kəmər 46 düyümlük borularla çəkilib. Türkiyədə Ceyhan dəniz terminalına enən axırıncı eniş boyu hissədə isə 34 düyümlüyədək azalır. Boru kəməri 1500-dən çox çayla və 13 seysmik qırılma xətti ilə kəsişir. Kəmərin ən yüksək nöqtəsi 2 min 800 metr olan dağlardan keçdiyi yerdir ki, bundan sonra o, Ceyhanda yenidən dəniz səviyyəsinə enir.



Kəmərin istismar müddəti 40 ildir və hazırda orta ötürücülük qabiliyyəti gündəlik 1,2 milyon barreldir. Səngəçal terminalından Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan terminalınadək uzanan kəmərin çəkilməsinə təxminən 4,5 milyard dollar vəsait xərclənib.

Hazırda kəmər vasitəsilə ildə 60 milyon ton neft nəql etmək mümkündür. Bakı–Tbilisi–Ceyhan boru kəməri Azərbaycan, Gürcüstan, Türkiyə və bütövlükdə bölgə, Avropa və ümumən dünya üçün iqtisadi və siyasi baxımdan, eləcə də enerji təhlükəsizliyi cəhətdən çox böyük əhəmiyyətə malik olmaqla yanaşı, Türkiyənin Qara dəniz boğazlarının həddən artıq yüklənməsinin də qarşısını alıb.

*XQ*

# Əmanətlər 125 milyon manat artıb



**Mərkəzi Bankın məlumatına əsasən, əhalinin banklardakı əmanətləri yanvar–sentyabr aylarlnda 12 milyard 705 milyon manat təşkil edib. Sentyabrda əhalinin əmanətləri 125 milyon manat artıb.**

Qeyd edək ki, həmin dövrdə banklar tərəfindən cəlb olunan əmanətlər üzrə 450 milyon manatlıq faiz ödənilib. Bankların əmanətlər üzrə faiz xərcləri ötən ilin eyni dövrü ilə müqayisədə 125 milyon manat və ya 39 faiz artıb.

2022-ci ilin 9 ayında isə banklarda 324 milyon manatlıq depozit faizləri ödənilib. Cari ilin yanvar–avqust aylarında bankların faiz və onlarla bağlı xərcləri isə 629 milyon manat təşkil edib.

*XQ*

# Xorvatiyanın ədliyyə naziri Azərbaycanda



**Xorvatiyanın ədliyyə naziri İvan Malenitsa nümayəndə heyəti ilə Azərbaycana səfərə gəlib. Məqsəd ölkəmizin məhkəmə-hüquq sistemi və bu sahədə aparılan islahatlarla tanış olmaq, əməkdaşlığı genişləndirməkdir.**

Ədliyyə Nazirliyində keçirilən görüşdə nazir F.Məmmədov hüquqi sahədə qarşılıqlı fəaliyyətin perspektivlərinə toxunub, ədliyyə və məhkəmə sistemindəki islahatlar barədə məlumat verərək Prezident İlham Əliyevin bu sahəyə xüsusi önəm verdiyini vurğulayıb. Dövlət başçısının siyasi iradəsinə uyğun olaraq Dünya Bankının dəstəyi ilə məhkəmə sisteminin və infrastrukturunun müasirləşdirilməsi üzrə görülən tədbirləri, rəqəmsal innovasiyaların geniş tətbiqini qeyd edib.

Azərbaycanda olmağından məmnunluğunu ifadə edən qonaq iki dost ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığın inkişafında maraqlı olduğunu söyləyib. Bildirib ki, müasir məhkəmə infrastrukturunun yaradılması, məhkəmənin rəqəmsallaşması, e-məhkəmənin, e-ədliyyənin tətbiqi ölkəsi üçün əsas prioritetdir və bu sahədə Azərbaycanın təcrübəsinin öyrənilməsi olduqca faydalıdır.

Qonaqlar ədliyyə və məhkəmə sistemində rəqəmsal innovasiyalara böyük maraq göstərərək məsafədən əhaliyə göstərilən elektron xidmətlər, "Elektron məhkəmə", "Elektron icra", "Elektron notariat" informasiya sistemləri, "Mobil notariat" brendi, "ƏN TEZ" (Ədliyyə Nazirliyinə Təcili Elektron Zəng) innovativ xidmət konsepsiyası barədə məlumatlandırılıb.

Həmin gün xorvatiyalı nazir ölkəmizin müasir məhkəmə infrastrukturu ilə tanış olmaq məqsədilə Bakı şəhəri Yasamal Rayon Məhkəməsinə və Sumqayıt Məhkəmə Kompleksinə baş çəkib, yüksək texnoloji məhkəmə zallarını və "Elektron məhkəmə" informasiya sisteminin tətbiqini yüksək qiymətləndirib.

XQ

**Ölkəmiz tərəfindən Ukrayna xalqına humanitar yardım göstərilməsi məqsədilə nəzərdə tutulmuş elektrik avadanlıqlarının birinci hissəsi bu gün Sumqayıt Texnologiyalar Parkının ərazisindən yola salınıb.**

# Ukraynaya növbəti humanitar yardım



Prezident İlham Əliyevin 2023-cü il 17 iyul tarixli Sərəncamına uyğun olaraq Energetika Nazirliyinin tədarük etdiyi humanitar yükə 555 min metrdən çox elektrik kabelləri və naqilləri daxildir. 14 TIR-dan ibarət yük avtomobili karvanının daşıdığı humanitar məqsədli mallar Ukraynadakı mövcud vəziyyətlə əlaqədar zərər çəkmiş ərazilərin elektrik enerjisi ilə dayanıqlı təchizatının bərpasına dəstək üçün göndərilir.

Xatırladaq ki, Ukraynaya bundan əvvəl də ölkəmiz tərəfindən elektrik avadanlıqları ilə bağlı humanitar yardım göndərilib. Yaranmış böhranla əlaqədar Azərbaycan Respublikasının Ukraynaya göstərdiyi humanitar, o cümlədən bərpa və yenidənqurma işlərinə dəstək xarakterli yardımın ümumi məbləği artıq 33 milyon ABŞ dollarından çoxdur.

XQ

# İraq türkmanları və Türk dünyası

**Dünən Bakıda "İraq türkmanları və Türk dünyası: Tarixi yaddaşın bərpası" mövzusunda beynəlxalq konfrans keçirilib.**



Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Azərbaycanla yanaşı, İraq, Niderland, Almaniya və Türkiyədən gələn tanınmış ictimai xadimlər, media və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak edirlər.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İcraçı direktoru Rəvan Həsənov bildirib ki, konfrans çərçivəsində eyni irsin, dilin, ədəbiyyatın tədqiq olunması, gələcək əməkdaşlıqların qurulması istiqamətində aparılacaq müzakirələrin, müxtəlif dövlət qurumları ilə görüşlərin, təqdimatların Türk dünyasına töhfə verəcəyindən əminliyini ifadə edib.

Beynəlxalq tədbirin İraqla Azərbaycan arasında ikitərəfli əlaqələr çərçivəsində təşkil olunduğunu diqqətə çatdıran Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev konfransın əhəmiyyətindən danışıb.

İraqın Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Maki Rossan Al-Mamori Azərbaycan ilə İraq arasındakı əlaqələrin inkişaf etdirilməsi istiqamətində müvafiq işlər görüldüyünü diqqətə çatdırıb.

Təşkilatçılığa görə ev sahibinə təşəkkürünü bildirən İraq parlamentinin deputatıƏrşad Saleh, Kərkük Türkman Mədəniyyət Dərnəyinin rəhbəri Şəmsəddin Küzəçi, Türk dünyası ölkələrinin bir-birinə daha da yaxınlaşmasının əhəmiyyətini vurğulayıb. Konfrans işini bölmə iclasları ilə davam etdirib.

XQ

# Ceyhun Bayramov BƏƏ-ni Qarabağda investisiya imkanlarından yararlanmağa dəvət edib

**Xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfəri çərçivəsində BƏƏ-nin xarici işlər naziri Abdullah bin Zayed Al Nəhyan ilə görüşdə enerji təhlükəsizliyi, xüsusilə bərpaolunan enerji istehsalı sahəsində nəzərdə tutulan layihələr müzakirə edilib.**



BƏƏ tərəfi işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma işləri çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi regionlarında mümkün investisiya imkanlarından yararlanmağa dəvət edilib.

XQ

# Böyük Qayıdış Xankəndi sakinlərini də əhatə edəcək



**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Gəncə şəhərində Xankəndi şəhərindən və Kərkicahan qəsəbəsindən məcburi köçkün düşmüş azərbaycanlıların bir qrupu ilə görüşüb.**

Xankəndiyə qayıtmağa, yenidən tarixi yurd yerlərində yaşamağa hazır olduqlarını deyən sakinlər işğaldan azad edilmiş bütün ərazilərdə Azərbaycanın dövlət suverenleyinin bərpa edilməsinə görə dövlətimizin başçısına və rəşadətli silahlı qüvvələrimizin mənsublarına minnətdarlıq bildirib, xalqımızın haqq işi uğrunda canını qurban verən şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyiblər.

Görüşdə Xankəndindən olan məcburi köçkün icmalarının nümayəndələri, ziyalılar, ictimai fəallar iştirak edib, qayıdışa hazırlıq məsələlərinə dair rəy və təkliflərini səsləndiriblər.

XQ

Gəncə

# Laçın 20 ailəni də ağuşuna aldı

**Dünən daha 70 laçınlının yurd həsrəti bitib. 31 ildən sonra yenidən Laçına qədəm qoyan ailələrə evlərinin açarları təqdim olunub.**

Bununla da Laçın şəhərində 315 ailə, yəni, 1205 nəfərin daimi məskunlaşması təmin edilib.

XQ



# Bakı BAF-ın iclaslarına hazırlaşır

**Bu il dekabrın 5–8-də Azərbaycan paytaxtı Beynəlxalq Avtomobil Federasiyasının (FIA) Baş Assambleyalarının iclaslarına evsahibliyi edəcək.**

Bakıda FIA-nın Baş Assambleyası ilə yanaşı, FIA Fondu (FIA Foundation) və avtomobil klublarının maraqlarını təmsil edən Beynəlxalq Turizm Alyansının (AIT) Baş Assambleyalarının iclasları da təşkil olunacaq. Dekabrın 8-də isə Heydər Əliyev Mərkəzində FIA Baş Assambleyasının yekun iclası, Bakı Konqres Mərkəzində mükafatlandırma mərasimi (FIA Prize-Giving Ceremony) keçiriləcək.

Paytaxtımızın bu mötəbər tədbirə ev sahibliyi ilə bağlı qərar ötən ilin dekabrında FIA Baş Assambleyasının İtaliyanın Bolonya şəhərindəki iclasında qəbul olunmuşdu. Avtomobil idmanı sahəsindəki bu beynəlxalq tədbiri qəbul etmək uğrunda bir neçə ölkə, o cümlədən Azərbaycan mübarizə aparırdı. Səsvermə nəticəsində müraciət edən ölkələr arasından Azərbaycanın namizədliyi təsdiq edilib.

FIA Baş Assambleyalarının iclasları və mükafatlandırma mərasimi zamanı dünyanın müxtəlif ölkələrindən avtomobil təşkilatları, avtomobil idmanının görkəmli simaları ölkəmizdə bir araya gələcəklər.




Xatırladaq ki, FIA Prize-Giving Ceremony bu vaxtadək Monako, Nyu-Dehli, İstanbul, Paris, Doha, Vyana, Sankt-Peterburq, Cenevrə və Bolonyada keçirilib. Bakıdakı Prize-Giving Ceremony də yaddaqalan və möhtəşəm məqamlar vəd edir.

XQ

# Dövlət müəssisələrində maliyyə hesabatlılığı və şəffaflıq

**Dünən Naxçıvanda Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "Dövlət müəssisə və şirkətlərinin fəaliyyətində maliyyə hesabatlılığı və şəffaflığın gücləndirilməsi" mövzusunda toplantı keçirilib.**



Biznes Mərkəzində təşkil edilən məclisdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, gələn il 100 illiyini əlamətdar hadisə kimi qeyd edəcəyimiz Naxçıvan Muxtar Respublikasında bu ildən yeni idarəetmə sistemi tətbiq edilir. Muxtar respublikada bu ilin dövlət büdcəsindən səmərəli istifadə olunması və növbəti ilin büdcə layihələri üçün atılan müvafiq addımlarda qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikası Hesablama Palatasının imkanlarından istifadə olunur.

Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Prezident İlham Əliyevin maliyyə sektorundakı nizam-intizamın möhkəmləndirilməsi ilə bağlı verdiyi tapşırıqların şəffaflıq və hesabatlılığın artırılmasındakı əhəmiyyətindən bəhs edib. O, dayanıqlı inkişafın təmin olunmasında mühüm rolu olan şəffaflıq və hesabatlılığın son illərdə müxtəlif sahələrdə, o cümlədən dövlət maliyyəsinin idarəedilməsinin gücləndirilməsi üçün hazırlanan sənədlərin əsas hədəflərindən biri olaraq qəbul edildiyini vurğulayıb.

Bildirilib ki, hüquqi bazanın təkmil olmaması maliyyə intizamı baxımından bir sıra problemlər ilə nəticələnir. Dəstək verilməli sahələrdən biri də məhz Naxçıvan Muxtar Respublikasının büdcəsinin hüquqi tənzimlənməsi ilə bağlıdır. Bu istiqamətdə Hesablama Palatasının təklifləri ən yaxın aylarda təqdim ediləcək.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

Səbuhi HƏSƏNOV
XQ

Naxçıvan

Xərçəng – əsrin bəlası

# “Südüdür kim, dolanıb qanım olub”

## Ana özü isə ölümsaçan xəstəliyə tuş gəlir

**Oktyabrın 27–29-da “Süd vəzi xərçənginə qarşı mübarizə aylığı” çərçivəsində Azərbaycan Tibb Universiteti, Milli Onkologiya Mərkəzi, ATU-nun Onkoloji Klinikası və Azərbaycan Süd Vəzi Xəstəlikləri Mütəxəssisləri Assosiasiyasının birgə təşkilatçılığı ilə II Beynəlxalq Bakı Süd Vəzi Xərçəngi Konqresi keçirildi. Konqresin təşkilində məqsəd onkologiyanın mühüm sahələrindən olan süd vəzi xəstəlikləri, o cümlədən süd vəzi xərçəngi, ümumiyyətlə, qadın sağlamlığı məsələlərini müzakirə etmək və müxtəlif ölkələrin onkoloq, mammoloq və ginekoloqları arasında məhsuldar dialoq yaratmaq idi.**

Qeyd edək ki, oktyabr ayında “Süd vəzi xərçənginə qarşı mübarizə aylığı” keçirilməsini ilk dəfə 1993-cü ildə Ümumdünya Səhiyyə Təşkilatı elan edib. Onkoloji qadın xəstəlikləri sırasında süd vəzi xərçəngi birinci yeri tutur və xəstələnənlərin sayı ildən-ilə artır. Bəzən xəstəliyə kişilər arasında da təsadüf edilsə də, onların əksəriyyəti xəstəliyin inkişafından şübhələnmədiklərinə görə həkimə tez müraciət etmirlər. Gecikmiş diaqnostika və vaxtında aparılmayan müalicə mənfi terapevtik nəticələrə aparıb çıxarır. Süd vəzi xərçəngi son illər ən çox narahatlıq doğuran onkoloji xəstəliklərdən birinə çevrilib. ÜST-nın məlumatına görə, hər il dünyada 10 milyondan çox qadın həmin xəstəliyə tutulur və 6 milyondan çoxu həyatını itirir.

***Xəstəliyin simptomları, müayinəsi, gedişi, fəsadları ilə bağlı konqres iştirakçısı, ATU-nun onkologiya kafedrasının dosenti, Süd Vəzi Xəstəlikləri Mütəxəssisləri Assosiasiyasının sədr müavini, tibb üzrə fəlsəfə doktoru, onkoloq-mammoloq Həqiqət Vəliyeva ilə söhbətləşdik. Bir az da biganəliyimizdən ölümə yol açan “dərd”lə bağlı qadınlarımızı məlumatlandırmaq istədik. Həqiqət xanım söhbətə “Xərçəng necə yaranır?”– sualımıza cavabla başladı:***

– Həkim-şair Abbas Səhhətin təbirincə, ana südü damarlarımızda qana çevrilir, bizə həyat verir. Lakin bir sıra hallarda qadınlar süd vəzi xərçənginə tutulurlar. Bədəndə hər hüceyrənin öz ömrü var. Bu ömür nüvələrindəki genetik materialda yazılır. Yaşlanan hüceyrənin toxumadakı işi başa çatandan sonra ölür. Bu prosesin son hissəsinə “planlı hüceyrə ölümü” deyilir. Xərçəng hüceyrələri isə fərqlidir. Onlar “planlı hüceyrə ölümü”nə tabe olmur, idarəedilməz şəkildə çoxalır. Sağlam hüceyrə neçə dəfə bölünəcəyini və nə vaxt öləcəyini bilir. Amma xərçəng hüceyrələri bu məlumatı itirir, idarə olunmayan şəkildə bölünməyə başlayır və şişlər əmələ gəlir. Xərçəng hüceyrələri yarandıqları şişdən qopub ayrıldıqdan sonra, qan və ya limfa dövranı vasitəsilə ilə bədənin digər bölgələrinə gedir. Həmin yerlərdə çoxsaylı şişlər əmələ gətirir və böyüməyə davam edirlər. Xərçəngin bu formada bədənin digər bölgələrinə yayılması metastaz adlanır.

Süd vəzi xərçəngi digər orqanların şişlərinə nisbətən çox yavaş inkişaf edir. Bir hüceyrənin bölünərək 1 kubsantimetr böyüklüyündə bir kütlə yaratmasına 7–10 il vaxt lazımdır. Əgər hər il müayinə aparılsa müalicənin də səmərəsi olar.

***– Xəstəliyin əlamətləri nədir? Həkimə nə vaxt müraciət edilməlidir?***

– Süd vəzi xərçənginin müalicəsində müsbət nəticə almağın və sağalmanın əsas şərti erkən diaqnozdur. Şiş bir neçə millimetr böyüklüyündə olanda mammoqrafiyada görünür. Həmin vaxt aparılan müalicənin nəticələri uğurlu olur. Buna görə də süd vəzi müayinələrinə tez-tez gələn xəstələr daha şanslı olurlar. Xərçəng simptomları ortaya çıxdığı zaman şiş ən az 1 santimetr və ya daha böyük ölçülərə çatmış olur. Buna baxmayaraq, xəstəliyin tamamən sağalma ehtimalı hələ də qalır.

Buna görə də, mammoqrafiya, ultrasəs və həkim müayinəsindən başqa, hər qadın öz süd vəzi haqqında məlumatlı olmalı, bəzi nüanslara diqqət etməlidir. Süd vəzi xərçəngində ən çox müşahidə edilən əlamət əllə gələn kütlədir. Bir xəstə əllə hiss edilən kütlə



simptomu ilə həkimə müraciət edəndə, öncə bu kütlənin kista, yoxsa şiş olduğu öyrənilir.

Bundan başqa, süd vəzi giləsi axıntısı xərçəngin erkən simptomu ola bilər. Amma süd vəzinin sıxılması nəticəsində axıntı gəlməsi xəstəlik simptomu sayılmır. Çünki süd vəzi giləsi axıntısına hormonal xəstəliklərdə, əmizdirmədən sonrakı vaxtlarda və süd kanallarının xəstəliklərində də təsadüf edilir.

Süd vəzi ucunun içəri çəkilməsi və simmetriyanın pozulması da xəstəlik əlamətlərdəndir. Bəzi qadınlarda süd vəziləri arasında anadangəlmə kiçik fərqlər ola bilər: birinin digərindən daha böyük olması və ya süd vəzi gilələrində simmetriya fərqi kimi. Bunlar hər hansı bir xəstəliyin əlaməti deyil. Amma əvvəllər hər iki süd vəzi giləsi simmetrik və normal olduğu halda sonra dəyişərək içəri çəkilməsi süd vəzi xərçəngi baxımından çox vacib simptom sayılır.

Süd vəzi üzərində uzun müddət qalan qızartı, yara, portağal qabığına bənzər bir görüntü alması, dərinin bir nöqtədə içəriyə doğru çəkilməsi həkimə müraciət etmək üçün səbəbdir. Xəstəliklə mübarizədə ideal variant simptomlar ortaya çıxmazdan əvvəl diaqnozun qoyulması və müalicənin başlanmasıdır.

***– Xəstəliyin diaqnozu hansı üsullarla təyin edilir?***

– Süd vəzi xərçənginin erkən diaqnostikası üçün istifadə olunan əsas üsullar ultrasəs müayinəsi və mammoqrafiyadır. Amma xərçəngin diaqnostikası üçün radioloji metodlara, biopsiyalara əlavə olaraq, özünü müayinə və periodik olaraq həkim müayinəsindən keçmək də vacibdir. Bu üsullardan yalnız biopsiya vasitəsilə dəqiq diaqnoz qoymaq olur. Digər müayinə metodları biopsiya aparılması qərarını verməyə kömək edir.

Mammoqrafiya süd vəzi xərçənginin erkən diaqnostikası üçün vacib üsuldur. Bu müayinə xəstənin heç bir şikayəti olmadığı halda profilaktik məqsədlə də aparıla bilər. Amma süd vəzində kütlə, giləsində axıntı və ya başqa bir şikayəti olanlara diaqnostik məqsədlə tətbiq edilir. Mammoqrafiya hər qadında fərqli olur və heç bir nəticə digərinə oxşamır. Buna görə də müayinə zamanı daha əvvəl çəkilən mammoqrafiyanın nəticələrinə də baxırıq. Əvvəl çəkilmiş mammoqrafiya ilə yenisi arasındakı fərq daha dəqiq diaqnoz qoyulmasına kömək edir. Mammoqrafiya uyğun zamanda və formada həyata keçirildiyi zaman ağrısız bir üsuldur. Menstrual sikldən sonrakı dövrdə süd vəzilərindəki ödem, gərginlik və həssaslıq daha az olur. Buna görə, pasientlərə sikldən sonrakı həftə müayinə olunmalarını tövsiyə edirik.

Mammoqrafiya müayinəsi, süd vəzisi xərçəngi baxımından heç bir risk faktoru və şikayəti olmayan, hər il müayinə nəticəsi normal olan qadınlara da nizamlı olaraq aparılmalıdır. Belə müayinələr xəstənin həyatını qurtarır və cəmiyyətdəki süd vəzi xərçəngi səbəbilə yaranan ölüm səviyyəsini aşağı salır. Qeyd etməliyəm ki, mammoqrafiya müayinəsi zamanı alınan radiasiya şüası ağciyərin rentgenoloji müayinəsindəkindən daha az dozada olur.

Digər dəqiq müayinə üsulu biopsiya – süd vəzi toxumasından alınan nümunənin uyğun şəraitdə dondurulub, kəsilib, boyanıb, mikroskop altında incələnməsidir. Bu yolla əldə edilən diaqnoz histopatoloji diaqnozdur və süd vəzi xərçənginin dəqiq təyininin tək yoludur. Diaqnoz üçün iynə biopsiyası və cərrahi biopsiya aparılır. İynə biopsiyası zamanı şübhəli sahə və ya kütlədən iynə köməkliyi ilə toxuma nümunəsi alınıb laboratoriyaya göndərilir. Cərrahi biopsiyada isə xəstə əməliyyata alınır, şübhəli sahə və ya kütlə tamamilə çıxarılır və diaqnozun təsdiqi üçün histaloji müayinəyə göndərilir.

***– Bəzən qadınlarda əlavə süd vəzi payı aşkarlanır. Aydınlıq gətirərdiniz, bu, xərçəngin bir növüdürmü?***

– Əlavə süd vəzinin müşahidə olunması şiş xəstəliyi deyil. Qoltuq altında, süd vəzinin altında, üstündə, kürək nahiyəsində aşkarlanır. Süd vəzi giləsi və qoltuqaltı xətlə bərabər həmin istiqamətdə paralel yerləşə bilir. Anadangəlmə olur. Kiçik olduğundan kimsə hiss etmir. Yetkinlik çağında, bəzən ilk hamiləlikdə, süd verən zaman, bəzən də daha gec, klimaks dövründə aşkarlanır. Sadəcə normal süd vəzində şiş yarandığı kimi əlavə payda da yarana bilər.

***– Siz II Beynəlxalq Bakı Süd Vəzi Xərçəngi Konqresində iştirak edirdiniz. Konqresin işi ilə bağlı fikirləriniz...***



– Konqresin elmi proqramı Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikası, Milli Onkologiya Mərkəzi və Azərbaycan Süd Vəzi Xəstəlikləri Mütəxəssisləri Assosiasiyası tərəfindən, süd vəzi xəstəliklərinin müalicəsi üzrə Türkiyənin aparıcı mütəxəssisləri ilə sıx əməkdaşlıq çərçivəsində ərsəyə gəlib və ən aktual mövzuları əhatə edirdi. Dünyaca tanınmış Türkiyə, ABŞ, Almaniya, Avstriya, Qətər, Macarıstan, Hindistan və digər ölkələrdən gəlmiş 40-a yaxın ekspertin məruzələri böyük marağa səbəb oldu. Konqres çərçivəsində süd vəzi xəstəliklərinin radioloji görüntülənməsi və onkoplastik cərrahi məsələlərin daha dərindən araşdırılmasına imkan yaradacaq iki təlim keçirildi.

Bu konqresin təşkili nəinki səmərəli fikir mübadiləsinə və faydalı fəaliyyət proqramının hazırlanmasına, həm də dünyanın bu sahədəki aparıcı mütəxəssislərinin bizim tibb sahəsindəki nailiyyətlərimizlə, imkanlarımız və resurslarımızla tanış olmalarına imkan verəcək.

***– Qadınlarımıza bu bəlaya düçar olmamaq, yaxud erkən müalicə olunmaq üçün nə tövsiyə edərdiniz?***

– Bədənlərinə qarşı həssas olmalarını tövsiyə edərdim. Qadınlarımız nə qədər özlərinə diqqət etsələr, hər hansı dəyişiklik hiss edən kimi həkimə müraciət etsələr, şübhəsiz ki, hətta xərçəng diaqnozu təsdiqlənsə belə, müalicə çox uğurla nəticələnər. Bunu illərdir, xəstələrlə işləyən onkoloq-mammoloq kimi əldə etdiyimiz nəticələrə əsaslanıb deyirəm.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

# Rusiya XİN-i Mahaçqaladakı hadisələri planlaşdırılmış təxribat adlandırdı

**“Moskva Mahaçqala hava limanındakı iğtişaşların xaricdən təşkil edilmiş və həyata keçirilmiş təxribat olduğunu hesab edir”.**

Bu barədə jurnalistlərə açıqlamasında Rusiya XİN-in rəsmi sözçüsü Mariya Zaxarova danışıb.

Onun sözlərinə görə, sözügedən təxribat Rusiya Federasiyası xalqının ahəngdar inkişafına və etno-konfessional birliyinə xələl gətirməyə yönəlib.

Xatırladaq ki, oktyabrın 29-u yüzlərlə insan Mahaçqala hava limanı ərazisində etiraz aksiyasına toplaşıb. Buna səbəb İsraildən gələn təyyarə olub. Belə ki, yerli sakinlər yəhudilərin ərazidən çıxarılmasını tələb ediblər. Etirazçılar kütləvi şəkildə aeroportun binasına daxil olublar. İnsidentlə bağlı hava limanı bağlanıb. Hadisə zamanı 20-dən çox insan xəsarət alıb, 60 nəfər isə saxlanılıb. Rusiya KİV aksiyada 1200 nəfərin iştirak etdiyini yazıb. Hava limanı bu gün günorta saatlarında fəaliyyətini bərpa edib.



*XQ*

Beynəlxalq həyat



# Yaxın Şərq: HƏMAS–İsrail müharibəsi davam edir

## Dünya birliyi Qəzzada zorakılıqlardan narahatdır

**Qəzzadakı xəstəxanalarda hazırda yüzlərlə fələstinli pasiyent müalicə olunur. Bu tibb müəssisələrində çalışan həkimlərin sözlərinə görə, İsrail hərbçiləri xəstələrin təcili surətdə təxliyyə olunmalarını tələb etsələr də, pasiyentlərin ağır durumu buna imkan vermir.**

BMT-nin Fələstin qaçqınları ilə bağlı yardım agentliyinin əməkdaşı BBC müxbirinə bildirib ki, İsrailin çox sayda tank və digər zirehli texnikası Qəzzanın şimal və cənub istiqamətlərindəki bütün yolları bloklayıblar. Qəzzada əhalinin vəzyyəti indi fəlakət səviyyəsində dəyərləndirilir.

Dünən BBC-nin Qəzzada olan müxbiri bildirib ki, Qəzza indiyə kimi görünməmiş miqyasda və intensivlikdə bombardmana məruz qalıb. Ölənlərin sayı dəqiq bilinmir. HƏMAS-ın səhiyyə nazirliyi bildirib ki, oktyabrın 7-dən bəri İsrailin hücumları nəticəsində 8 mindən çox adam həlak olub, onların arasında 3 mindən çox uşaq var.

HƏMAS yaraqlılarının 7 oktyabr qəfil hücumu zamanı İsrailin 1400-dən çox vətəndaşı həlak olub. İki yüz nəfərə yaxın dinc sakinin isə girov götürüldüyü bildirilir. Müharibə başlayandan bəri İsrail Müdafiə Ordusunun 312 hərbçisi ölüb, 239 hərbçi yaraqlılara əsir düşüb.

Bu arada İsrail Müdafiə Qüvvələrinin sözçüsü Daniel Haqari jurnalistlərə açıqlamasında söyləyib ki, onlar gecə boyu Qəzzaya girən hərbi qüvvələrin sayını artırıblar və yeni göndərilən hərbçilər artıq orada döyüşənlərə qoşulub. O, həmçinin Qəzza zolağında yerüstü hərbi əməliyyatların miqyasını genişləndirəcəklərini açıqlayıb.

Bundan başqa, CNN-in məlumatına görə, artıq İsrail Silahlı Qüvvələrinə məxsus tanklar Qəzza şəhəri ətrafında da görünüb. Bildirilib ki, zirehli texnika Qəzza zolağının şimal hissəsini cənubla birləşdirən yolu kəsib.

Eyni zamanda, İsrail aviasiyası Qəzzadakı yaraqlıların gizləndikləri ehtimal olunan obyektlərə zərbələr endirməkdə davam edir. Hər gün, demək olar ki, yüzlərlə ev dağıdılır. Dağıntılar altında qalan sakinlərin dəqiq sayını müəyyən etmək isə çətindir.

Hərbi əməliyyatların teatrı təkcə İsrail ərazisi və Qəzza zolağı ilə kifayətlənmir. Dünən İsrail Hərbi Hava Qüvvələrinə məxsus təyyarələr Suriyadakı hərbi obyektlərə də zərbələr endirib. Bu barədə İsrail ordusunun mətbuat xidməti məlumat yayıb. “İsrail Müdafiə Qüvvələrinə məxsus təyyarə Suriyadan atılan raketlərə cavab olaraq oradakı hərbi infrastrukturu vurub”, – məlumatda deyilir.

Qeyd edək ki, dünyanın bir çox siyasətçilərinin HƏMAS–İsrail müharibəsində təcili atəşkəs elan olunması ilə bağlı çağırışları həlelik öz bəhrəsini vermir. Belə ki, heç bir tərəf güzəştə getmək istəmir. ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Cek Sallivan deyib ki, HƏMAS-ın atəşkəslə bağlı təklifləri var, lakin onlar qeyri-realdır və qəbuledilməzdir. C.Sallivan sözügedən təkliflərin nədən ibarət olduğunu açıqlamayıb.

Bölgədə artıq 25 gündür davam edən ağır silahlı münaqişə isə nəinki bitmək bilmir, əksinə, gündən-günə qızışır. Bu arada B.Netanyahu bildirib ki, İsrailin Qəzzada quru əməliyyatı HƏMAS-la “uzun və çətin” müharibənin “ikinci mərhələ”sinə keçib. Baş nazir, həmçinin hərbi əməliyyatların miqyası və intensivliyinin genişləndiriləcəyini bildirib.

İsrail mediası bildirir ki, son günlər Qəzza şəhəri üzərindən sakinlərə xəbərdarlıq vərəqələri səpələnir. Vərəqələrdə bu ərazinin artıq “döyüş meydanı” olduğu deyilir və sakinlərin vaxt itirmədən cənuba doğru çəkilmələrinə çağırışlar edilir. On minlərlə fələstinlinin artıq cənuba doğru hərəkət etdiyi məlumdur.

Bölgədən bəzi müsbət, ümidverici xəbərlər də yayımlanır. Belə ki, Qəzzada internet əlaqəsinin tədricən bərpa olunduğu bildirilir. Jurnalistlərin sözlərinə görə, burada telefonla zəng etmək və sosial şəbəkələrə girmək artıq mümkündür.

Məlumdur ki, müharibələr böyük maliyyə tələb edir. Ağ ev “özünün strateji tərəfdaşı olan İsraillə münasibətdə bunu nəzərə almağa çalışır. Təsadüfi deyil ki, ABŞ Konqresinin Nümayəndələr Palatası qarşıdakı bir neçə gün ərzində İsrailə yardım haqqında qanun layihəsini nəzərdən keçirəcək.

Bu barədə Nümayəndələr Palatasının spikeri Mayk Conson “Fox News”a müsahibəsində deyib: “Bu həftə biz Nümayəndələr Palatasına İsrail üçün ayrıca maliyyə vəsaiti ayrılması üçün qanun layihəsi təqdim edəcəyik. Bilirəm ki, Senatdakı respublikaçı həmkarlarımızın da oxşar qanun layihəsi var”.

Bundan əvvəl isə məlumat verilib ki, Nümayəndələr Palatası İsrailə dəstək üçün 14,5 milyard dollar məbləğində qanun layihəsini təklif etməyə hazırdır. Görünür ki, daha çox maliyyəyə ehtiyac var.

ABŞ-nin vitse-prezidenti Kamala Harris isə CBS telekanalına müsahibəsində bildirib ki, Birləşmiş Ştatlar Fələstin–İsrail münaqişəsi zonasına qoşun göndərməyi planlaşdırmır. “Bizim belə bir niyyətimiz, İsrailə və ya Qəzzaya döyüş qoşunları göndərmək planımız yoxdur”, – K.Harris deyib.

Yaxın Şərqdə cərəyan edən gərgin proseslər regionun aparıcı dövləti olan Türkiyəni ciddi narahat edir. Dünən qardaş ölkənin xarici işlər naziri Hakan Fidan ilə ABŞ-ın dövlət katibi Entoni Blinken arasında telefon danışığı olub.

Ankaradakı diplomatik mənbələrdən əldə edilən məlumata əsasən, danışıq zamanı İsrail–Fələstin qarşıdurması, münaqişənin bölgəyə yayılmasının qarşısının alınması və girovların dəyişdirilməsi istiqamətində görüləcək işlər, humanitar yardım dəhlizinin yaradılmasının vacibliyi, eləcə də NATO-nun genişlənməsi prosesi müzakirə edilib. Türkiyəli nazir İsrail–Fələstin qarşıdurmasında mülki vətəndaşların hədəf alınmasının qəbuledilməz olduğunu vurğulayıb.

Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fəxrəddin Altun isə deyib ki, Qəzzada Türkiyə əleyhinə “oyun oynayırlar”. O bildirib ki, Qəzzada baş verənlər təkcə fələstinlilərlə bağlı məsələ deyil: “Bu, həm də region, xüsusilə, Türkiyə ilə bağlı qurulan oyundur. Bu oyunu pozmaq bizim üçün vacibdir”.

F.Altun, həmçinin Qərbin proseslərdəki mövqeyini tənqid edib. Türkiyə PA rəsmisinin sözlərinə görə, indi ən vacib amil Yaxın Şərqdə sülhün təmin olunmasıdır.

Görünən budur ki, Qərbin bir çox dövlətləri Yaxın Şərqdə mühüribə alovunu nəinki söndürmək istəmir, əksinə, körükləyir. Bu sahədə Fransa Prezidenti Emmanuel Makron xüsusilə “fərqlənir”. Ekspertlər hesab edirlər ki, onun HƏMAS-a qarşı beynəlxalq koalisiya yaratmaq təşəbbüsü regionu qan gölünə çevirmək niyyətindən qaynaqlanır.

Yaxın Şərqə bu gün sülh və sabitlik hər zaman olduğundan daha çox lazımdır. Bunun üçün təcili surətdə atəşkəsin elan edilməsinə, sonrakı mərhələdə sülh danışıqlarının aparılmasına kəskin ehtiyac yaranıb. Rəsmi Ankara məhz bunu arzulayır və tələb edir.

*Məsaim ABDULLAYEV*
*XQ*

# Azərbaycan musiqi təntənəsinə bürünüb

## *Ölkədə ilk Musiqi Forumu Heydər Əliyevin 100 illiyinə həsr olunub*



**(əvvəli 1-ci səhifədə)**

Nazir qeyd edib ki, Prezident İlham Əliyevin düşünülmüş, məqsədyönlü siyasəti nəticəsində Azərbaycan mədəniyyəti yeni mərhələyə qədəm qoyub: "Ölkəmiz mədəniyyəti, xüsusilə musiqisi ilə xaricdə tanınıb. Milli dəyərlərimizin dünya miqyasında təbliği və tanıdılması istiqamətində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə görülən işlər xüsusilə diqqətəlayiqdir. 2003-cü ildə Azərbaycan musiqisinin ən dəyərli incilərindən olan muğam UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilib və özünün bədii təkrarolunmazlığını, dünya mədəniyyəti üçün dəyərini təsdiq edib".

Musiqi Forumunun əhəmiyyətinə toxunan nazir bildirib ki, üç gün ərzində davam edəcək tədbir çərçivəsində ölkənin tanınmış musiqi xadimləri ilə yanaşı, xarici ölkələrdən dəvət olunmuş qonaqların da bu sahənin çağdaş vəziyyəti ilə bağlı fikir mübadiləsi aparılacaq. Forum günlərində, həmçinin Azərbaycan milli musiqi ənənələrinin yaşadılması, dünyaya tanıdılması ilə bağlı məsələlər də diqqət mərkəzində olacaq. Forumda səsləndirilən təkliflər ümumiləşdiriləcək, təhlil ediləcək və "Azərbaycan mədəniyyəti – 2040" Konsepsiyasında öz əksini tapacaq. Sonra görkəmli sənətkarların, mədəniyyət adamlarının çıxışları dinlənilib. Azərbaycan musiqisinin keçdiyi yolu özündə ehtiva edən videoçarx nümayiş etdirilib. Açılış mərasimindən sonra panel müzakirələr aparılıb. Oktyabrın 30-u, forumun ikinci günü də geniş panel müzakirələr formasında davam edib. Müzakirələrdə Azərbaycan Milli Konservatoriyasının rektoru Siyavuş Kərimi ölkədəki musiqi studiyalarının standartlara cavab vermədiyindən söhbət açıb:"Elementar bir şeyi deyim, Azərbaycan himni İngiltərədə yazılıb. O üç dəqiqəlik səsyazmaya görə Azərbaycan İngiltərəyə 200 000 funt sterlinq pul ödəyib. Məgər Azərbaycanda lazımi studiya yaradıb onu burada etmək olmaz? Biz studiyasız heç yerə çıxa bilmərik, bilməyəcəyik".

Tanınmış sənətkarların forum haqqında fikirlərini öyrəndik.

**Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadə:**

– Tariximizdə ilk dəfədir ki, musiqi forumu keçirilir və çox gözəl təşəbbüsdür. Çox maraqlı, açıq müzakirələr olur. Musiqi sahəsini əhatə edən hərtərəfli mövzular qoyulub. Həmin mövzular yetərincə, geniş müzakirə olunur. Forumun 2-ci günü xarici ölkələrdən gələn qonaqlarla görüş və fikir mübadiləsi oldu. Sabahkı sonuncu panel isə musiqişünaslığa həsr edilib. Çalışırıq, musiqi aləminin bütün problemləri müzakirələrdə öz əksini tapsın. Çox ümidliyik.

**Xalq artisti Fərhad Bədəlbəyli:**

– Mədəniyyətin təbliğində musiqinin yeri çox önəmlidir. Bu gün musiqiçilərimiz bütün dünyada ölkəmizi uğurla təmsil edirlər. Bizim gözəl, təbliğ olunmalı musiqimiz var. Bəzən biz televiziya kanallarında öz gözəl musiqimizi deyil, bayağı musiqiləri təbliğ etməklə xalqın zövqünü korlayırıq. O zövqü sənətkarlarımız yüzilliklərlə formalaşdırıb. Musiqi forumunda bütün bu məsələlərə toxunulur və həlli yolları axtarılır.

**Xalq artisti Nəzakət Teymurova:**

– Musiqinin problemləri, çatışmayan cəhətlər müzakirə edilir. Milli musiqimizi daha da inkişaf etdirib gələcək nəsillərə səviyyəli formada çatdırmaq bizim çiyinlərimizə düşür. Forumda gənc musiqiçilərin sosial həyatının yaxşılaşdırılmasından da söhbət açıldı. Qonorar məsələsinə də toxunuldu. Ümid edirəm ki, hamısı öz həllini tapacaq.

**Bəstəkar Sərdar Fərəcov:**

– Çox vaxtında və aktiv keçirilən forumdur. Panellərdə keçirilən müzakirələr zamanı hamımızıdüşündürən suallara cavab səsləndi. Onların həyata keçirilməsi isə musiqimizin xeyrinə olacaq.

**Müğənni İlqar Muradov:**

– Bu forumun keçirilməsi dövlət tərəfindən musiqimizə böyük dəstəkdir. Forum gələcək nəsil musiqiçilərin yetişməyinə də böyük töhfə verəcək.

Onu da qeyd edək ki, forumda müzakirə edilən mövzular çoxşahəlidir. Orta məktəblərdə musiqi dərslərinin proqramından tutmuş solfecio və xor dərslərinin yarıtmaz olmasına qədər. Klassik musiqimizin bu günü də müzakirə mövzusu oldu, sabaha hansı musiqilərlə getməli olduğumuz da. Ümid edirik ki, böyük Üzeyir bəy Hacıbəylidən, Qara Qarayevdən, Fikrət Əmirovdan bizlərə miras qalan klassik Azərbaycan musiqisi gələcək nəsillərə daha da inkişaf etmiş və səviyyəli formada ötürüləcək.

***R.QURBANLI***
***XQ***

**Koroğlu Rəhimov – 70**

# I Qarabağ savaşının Koroğlusu

**...Odlar Yurdu Universitetinin qarşısındayıq. Dərsə gələn tələbələr sualımıza cavab olaraq durduğumuz küçənin Koroğlu Rəhimovun adını daşıdığını bildirir, yalnız bir neçəsi onun Azərbaycanın Milli Qəhrəmanı olduğunu əlavə edir. Yaxınlıqdakı ABU Arenanın yanında sorğuladığımız respondentlərinsə heç biri suala tam cavab verə bilmir.**

Bu gün 70 illik yubileyi qeyd edilən Koroğlu Rəhimovdan söhbət açmağımızın bir məqsədi də onu daha yaxşı tanıtmaqdır. Çünki şərəf tariximizi yazan qəhrəmanlarımız haqqında hər birimiz məlumatlı olmalı və adları ilə fəxr etməliyik. Leytenant rütbəli motoatıcı bölük komandiri, 38 yaşlı Koroğlu Rəhimov Birinci Qarabağ müharibəsində şəhadətə ucalaraq daşıdığı adı həyatı bahasına doğruldub. Ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Xalq qəhrəmanı Koroğlunun haqqında məşhur dastan və film var. Müasirimiz olan qəhrəman Koroğludan da film çəkilib, kitablar yazılıb. "Hoydu, dəlilərim, hoydu, Yeriyin meydan üstünə" deyə hayqıraraq Aslan paşanın dəstəsini qılıncdan keçirmiş qoç Koroğlu da, Ağdərə uğrunda döyüşlərdə erməni faşistlərinə qan uddurmuş qorxmaz Koroğlu da Azərbaycan adlı ananın halal südünü əmmiş igid övladlarıdır.

Oğuzda doğulan Koroğlunun 8 yaşı olanda atası İsmayıl kişi ailəsini də götürüb, dədə-baba yurdu Zəngəzura köçüb. Qəhrəmanımız orta məktəbi orada oxuyub, sonra ali təhsil almaq üçün Bakıya gəlib. O vaxtkı Neft və Kimya İnstitutunun (indiki Dövlət Neft və Sənaye Universiteti) avtomexanika fakültəsini bitirib.

Ötən əsrin 80-ci illərinin sonlarında soydaşlarımız Qərbi Azərbaycandan deportasiya edilirlər, daha sonra Qarabağda erməni separatizmi baş qaldırır. Bütün bunlar hər bir vətənpərvər gənc kimi, Koroğluya da təsir edir. Xocalı qətliamı baş verəndən sonra isə Bakı Məişət Kondisionerləri zavodunda çalışan Koroğlu daha dözə bilmir və ordu sıralarına yazılmaq istəyir. Atası "Get, adaşın kimi ad çıxar!"– deyə ona xeyir-dua verir.

Leytenant Koroğlu Rəhimov müharibədə heç 3 ay da iştirak etməyib: aprelin 30-da komandir təyin olunub, iyulun 3-də isə son döyüşünə atılıb. Amma az müddətdə elə hünərlər göstərib ki, Ulu öndər 1994-cü ildə ona qəhrəman adı verilməsi barədə fərman imzalayıb.

...İyun ayının 13-də Goranboyun Buzlaq, Çartaz, Erkəç kəndlərinin azad edilməsində onun bölüyü xüsusilə fərqləndi. Onlar 15 erməni yaraqlısını öldürərək, xeyli silah-sursat ələ keçirdilər. Koroğlu buradakı döyüşdə 4 düşməni şəxsən özü məhv etdi. Sonrakı 2 gündə isə cəsur döyüşçülər Mənəşli və Başkəndi erməni yaraqlılarından təmizlədilər. Bu əməliyyatlarda Koroğlunun "dəliləri" qəsbkarlarının daha çox canlı



qüvvəsini cəhənnəmə vasil etdilər, daha çox hərbi qənimət götürdülər.

Madagiz kəndi istiqamətində döyüşlər ara vermirdi. Leytenant Rəhimov fürsət tapdıqca rabitə qovşağına yaxınlaşırdı ki, təcili bir əmr olsa, tez xəbər tutsun. Belə bir məqamda tabor komandiri Yaşar Qarayevin bir neçə əsgərlə düşmən mühasirəsində qaldığı barədə məlumat gəldi. Koroğlu cəld öz bölüyü ilə döyüşçü dostlarının dadına çatdı. Əməliyyat uğurla nəticələndi və Madagiz 2-ci dəfə işğaldan azad edildi. Zəfər yürüşünü davam etdirən cəngavərlər ardınca mərə kafirləri Gülüstan kəndindən qovub çıxartdılar. Həmin qanlı döyüşlərin birində Koroğlu Rəhimov canını Vətənə qurban verdi.

Müharibədən neçə il sonra Yaşar Qarayev tələbələr qarşısında çıxışı zamanı bu barədə ətraflı danışıb və dostunun cəsurluğunu, döyüşlərdə daim öndə getdiyini, onun ölüm xəbərindən



bərk sarsıldığını dilə gətirib.

Qəhrəmanın döyüş şücaətləri barədə Abdulla Qurbaninin "Koroğlunun Ağdərə səfəri", Əli Qurban Dastançının "Koroğlular uzaqdan gələn yolda", Qədir Aslanın "XX əsrin Koroğlusu", Oqtay Əliyevin "Əbədiyyətə qovuşan Koroğlu" və Sabir Arazlının "Koroğlu" kitablarında ətraflı yazılıb. Ümumtəhsil məktəblərinin 2-ci sinifləri üçün "Oxu" dərsliyində də ondan bəhs edən yazı və şair Oqtay Rzanın "İki Koroğlu" şeri verilib. Bütün bunları oxuyan yeniyetmə və gənclərin vətənpərvərlik hissi daha da coşub-daşır.

Bakıda və Oğuzda Koroğlu Rəhimovun adına küçə var. Paytaxtın Nərimanov rayonunda büstü qoyulub. Oğuzun Xaçmaz kəndində körpələr evi onun adını daşıyır. Nəvələrindən birinə isə Koroğlu adı qoyulub. Bu yerdə "Millətin ikinci Koroğlusu var" – deyən Oqtay Rzanın misraları yada düşür:

***Güclüdür zamanın verdiyi fərman,***
***Köçüb ürəklərə Milli Qəhrəman.***
***İsmayıl kişinin cəsur övladı –***
***Meydandır, küçədir ömrünün ardı...***

Artıq Qarabağ da, Şərqi Zəngəzur da düşməndən birdəfəlik təmizlənib. Elə bu ayın ortalarında möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyev Xankəndidə, Xocalıda, Xocavənddə, Əsgəranda və Koroğlu Rəhimovun şəhid düşdüyü Ağdərədə üçrəngli Azərbaycan bayrağını ucaldaraq şəhidlərimizin ruhlarını şad edib.

Koroğlu kimi qəhrəmanları olan Vətən basılmaz.

***Ə.NƏCƏFXANLI***
***XQ***

**Arif Hüseynov – 80**

**Əsərlərində milli dəyərlərimizə, adət-ənənələrimizə üstünlük verən rəssamlarımızdan biri də Arif Hüseynovdur. Ustad sənətkarın Azərbaycanda qrafika janrının pərvərişində rolu böyükdür. İstedadlı rəssam uzun illər boyu tükənməz yaradıcılıq potensialını daha çox dəzgah və kitab qrafikası sahəsinə həsr edib.**

Azərbaycan Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Arif Hüseynov qədim miniatür sənəti ənənələrini qoruyub saxlamaqla, yeni forma və biçimdə bədii-estetik tutumlu əsərlərini böyük ustalıqla yaradıb. Miniatür janr və üslubunun modern tərzdə ifadəsi onun orijinal dəst-xətli sənətkar olduğunu göstərir. Yaradıcılığı ilə ilk tanışlıqdan da Arif Hüseynovun nağıllara, dastanlara, aşıq yaradıcılığına, Novruz bayramına, bir sözlə, xalqımızın zəngin keçmişinə böyük məhəbbəti açıq-aşkar duyulur. Onun dərin fəlsəfə, könül oxşayan lirika, incə bir hiss duyulan Nizami və Məhsəti Gəncəvilər, Məhəmməd Füzuli, Mirzə Ələkbər Sabir, İmadəddin Nəsimi kimi şairlərin obrazlarını göstərmək olar. Eyni zamanda, sənətkarın Afaq Məsudun hekayələrinə çəkdiyi illüstrasiyalar da sərgidə yer almışdı.

Arif Hüseynovun ümumi yaradıcılığını əhatə edən, yaddaşlarda əbədi iz qoyacaq "Miniatürsayağı" adlı növbəti fərdi yubiley sərgisi oktyabrın 13-də Azərbaycan Milli İncəsənət Muzeyində sənətsevərlərə təqdim olunub. Sərgidə bir- birindən fərqli, rəngarəng yeni əsərlər ekspozisiya zallarını bəzəyib. Açılış

# Ustad rəssamın nağıllar dünyası

## *Yubileyə sənət töhfələri*



saysız-hesabsız qrafik işləri, illüstrasiyaları, eyni zamanda, maarifçilik xarakteri daşıyır.

İlk gündən sənətə bu amalla gələn və hazırda mənalı ömrünün 80-ci ilini başa vuran Arif Hüseynovun 55 illik yaradıcılıq yolu bu il 3 genişmiqyaslı yubiley sərgisində öz əksini tapıb. İlkin olaraq fevralın 17-də Azərbaycan Milli Xalça Muzeyində sevimli personajlarla yaddaşlara həkk olunmuş klassik və müasir nağıllarımıza həsr etdiyi "Azərbaycan nağılı" adlı fərdi sərgisi keçirilib. Həmin təqdimatın əsas məqsədi Azərbaycan nağıllarına yenilik gətirmək, ənənələrə müasirlik qatmaqla yeni qəhrəmanlar yaratmaq və ən əsası uşaqları texnologiya asılılığından uzaqlaşdıraraq maarifləndirməkdən ibarət idi.

Daha sonra martın 30-da Nizami Kino Mərkəzində "Qarabağnamə – tarixin səhifələri" kitabının əsasında istedadlı rejissor Elnurə Kazımova tərəfindən ərsəyə gəlmiş "Qarabağnamə" adlı bədii-sənədli filmin təqdimatı olub. Bu film Xalq rəssamının Qarabağın tarixinə həsr etdiyi silsilə əsərlərə həsr olunmuşdu. Azərbaycan incəsənətinin zəngin salnaməsini ehtiva edən Qarabağ mövzulu əsərlərdə tarixi şəxsiyyətlərin, əfsanəvi generalların, xanəndə və aşıqların portretləri, memarlıq abidələri, Azərbaycan tarixində baş vermiş bir çox hadisə və faktlar haqqında təsvirlər geniş yer alıb.

Silsilənin davamı olaraq, iyunun 6-da Muzey Mərkəzində rəssamın maarifçilik yönümlü qrafik əsərlərindən ibarət 2-ci fərdi "Qrafika" sərgisi təqdim edilib. Arif Hüseynov burada daha çox dahi şəxsiyyətlərin, şairlərin portretlərini və onların ərsəyə gətirdikləri rübailərə, şeirlərə, qəzəllərə, hekayələrə həsr etdiyi illüstrasiyaları sərgiləyib. Buna misal olaraq mərasimində muzeyin direktoru, Əməkdar incəsənət xadimi Çingiz Fərzəliyev, Azərbaycan Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağəli İbrahimov, Əməkdar incəsənət xadimi, sənətşünas Ziyadxan Əliyev, Əməkdar jurnalist Etibar Babayev və başqaları yubilyarın yaradıcılığını yüksək dəyərləndirib, ona yeni uğurlar diləyiblər. Sayca 50 əsərin nümayiş olunduğu sərgi 100-lərlə qonağın ruhunu oxşayıb.

Ömür yolunun 80-ci ilinin tamamında Xalq rəssamı Arif Hüseynov Prezident İlham Əliyevin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olundu. Bu, onun dərin ictimai məzmunlu və məhsuldar yaradıcılığına dövlətimizin verdiyi yüksək qiymətdir.

Fəxr edirəm ki, Milli Məclisin Mədəniyyət komitəsinin, Azərbaycan Rəssamlar İttifaqının və "HüsnArt" təsviri sənət Mərkəzinin təşkilatçılığı ilə Xalq rəssamının 80 illiyi çərçivəsində keçirilən bütün sərgi və tədbirlərinin kuratoru və əlaqələndiricisi mən olmuşam. Ölkəmizdə, eləcə də dünyanın bir çox yerində, müxtəlif kolleksiyalarda sənət əsərləri qorunan Xalq rəssamının yaradıcılıq nümunələrinə bələdçilik etmək, sözün əsl mənasında, şərəf işidir.

***Ziyarət CABAROVA,***
***Azərbaycan Dövlət Rəsm Qalereyasının böyük elmi işçisi***

**Redaksiyadan: Uzun illər "Xalq qəzeti" ilə sıx yaradıcılıq əlaqəsi saxlayan, milli rəngkarlıq sənətimizin uğurlarının oxuculara çatdırılmasına yardımçı olan görkəmli rəssamımızı təbrik edir, ona yeni uğurlar və möhkəm cansağlığı arzulayırıq.**

# I Beynəlxalq TÜRKSOY Teatr Festivalı Azərbaycanda keçiriləcək




**Noyabrın 1- də Şuşada və Bakıda I Beynəlxalq TÜRKSOY Teatr Festivalı başlanır.**

Festival Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi və Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi, Azərbaycan peşəkar milli teatrının yaradılmasının 150 və TÜRKSOY-un 30 illik yubileyləri münasibətilə gerçəkləşəcək.

Teatr bayramında TÜRKSOY-a üzv ölkələrdən – Özbəkistandan Səmərqənd Musiqili Dram Teatrı, Qırğızıstandan Kasımalı Jantoşev adına İssıkgöl Musiqili Dram Teatrı, Qazaxıstandan Türküstan Musiqili Dram Teatrı, Türkiyədən İstanbul Dövlət Teatrı və Məhdimqulu adına Türkmənistan Dövlət Musiqili Dram Teatrının kollektivləri iştirak edəcəklər.

Festivalda, həmçinin Türk dünyasının tanınmış teatr mütəxəssisləri, səhnə xadimləri bir araya gələcək, qardaş ölkələrdə bu sahənin inkişaf məsələlərini müzakirə edəcəklər.

Beynəlxalq tədbir çərçivəsində Şuşada TÜRKSOY-a üzv ölkələrin dövlət teatrları rəhbərləri şurasının 9-cu toplantısının da keçirilməsi planlaşdırılır.

***Q.RAMİLƏ***
***XQ***

**Rəfiqə Şabanova-80**

# “Böyük idman sonsuz zəhmət tələb edir”

**Yubiley yaşı ərəfəsində onunla zəngləşib, görüşmək istədiyimizi bildirdim. “Zaldayam, gəlin”, – dedi.**

Azərbaycanın həndbol üzrə milli komandaları və klubları üçün nəzərdə tutulan “ABU Arena” idman kompleksinin zalına daxil olarkən onun ayaqüstə məşqləri izlədiyini müşahidə edirəm. Həmişəki kimi, yenə də məşqlər başa çatdıqdan sonra həndbolçu qızlar onu dövrəyə aldılar. Budəfəki mövzu isə komandanın məşqinə aid deyildi. Yığma üzvləri Rəfiqə xanım Şabanovanı yubileyi münasibətilə təbrik edir, arzularını dilə gətirirdilər. Rəfiqə xanım isə hamıya özünəməxsus tərzdə sağlam idmançı həyatı arzuladı.

Müsahibəyə uşaqlıq illərini xatırlaması ilə başladı: “1943-cü ildə Bakıda anadan olmuşam. Uşaqlığım müharibənin ən ağır illərinə təsadüf edib. Müharibədən sonrakı dövr ondan da məşəqqətli olub. Ailədə 9 uşaq olmuşuq. Atam ondan asılı olmayan bir məsələ ilə bağlı dostuna görə həbs ediləndən, bir qədər sonra isə rəhmətə gedəndən sonra ailəmizdə vəziyyət daha da pisləşib. Bir qardaşım müharibədə itkin düşüb. Digər bacı-qardaşlarımı da sonradan itirdim. Mübarizə aparmaq alnıma yazılıb. Bəlkə də idman məni yetişdirdi, döyüşkən etdi. Enişli-yoxuşlu yollarla irəlilədim. Bir an dayanmadım. İndi nəfəsimi dərmək istəyirəm. Dayanıb, dincəlmək istəyirəm. Amma ürəyimin dərinliyində bir səs mənə deyir ki, “Dayanma, irəlilə!”

“Gedə bilirsinizmi”, – sualına “Həyat tərzim tələb edir ki, hərəkətdə olum. Yuxudan səhər tezdən qalxıram. Buna vərdiş etmişəm. Adətən, biz yaşda insanlar tezdən durub piyada xeyli gəzirlər. Amma mən mütləq işimlə bağlı məsələlərlə məşğul oluram. Zalda məşqləri izləyirəm. Zaldan çıxdıqdan sonra bəzən qızım, nəvələrimlə vaxt keçirirəm. Axşamçağı yuxuya qədər vaxtı isə özümə sərf edirəm. Bir neçə saat gəzirəm. İdman edirəm.

Ən çox diqqətimi cəlb edən isə insanların idman etmələri üçün yaradılan şəraitdir. Demək olar ki, hər addımda uşaq və gənclərin idmanla məşğul olması üçün imkan var. Məhəllələrdə idman infrastrukturu xüsusilə maraqlıdır. Öz dövrümüzü xatırlayıram. O zaman uşaqlar məhəllədə harada yer tapırdılarsa, orada top qovurdular. Digər idman növü ilə məşğul olmaq çətin idi. Qızlar o zaman idmanla, demək olar ki, məşğul olmaq istəmirdilər. Məhəllədə bir qız mən idim ki, idmana həvəs göstərirdim. Axşamadək oğlanlarla futbol oynayırdım. Sabunçuda yaşayırdıq. Bakıxanov qəsəbəsində yerləşən stadiona getmək üçün kilometrlərlə yol gedirdik. Bəzən heç anamdan icazə belə almırdım. Ailədə maddi vəziyyət yaxşı olmadığından böyüdükcə anama da kömək etməli olurdum. Amma idmanı da atmaq istəmirdim.



Rəfiqə xanım uşaqlıqda tennis, atletika ilə məşğul olsa da, ən böyük uğurlarını həndbolda qazanıb: “Atletika üzrə respublika çempionatının mükafatçısı olmuşam. Atletikanı, həmçinin tennisi çox sevirdim. Həndbola gəlişim təsadüfi olsa da, bu idman növündə özümü tapdım. Elə ilk məşqlərdən sonra başa düşdüm ki, həndbol məhz axtardığım idmandır. Düzdür, nailiyyətlər heç vaxt asan qazanılmır. Çünki böyük idman sonsuz zəhmət tələb edir. Özünü idmana həsr etməlisən. Bunu isə əsl idmançı edə bilər”.

Bəs, bu gün Olimpiya çempionu nə arzulayır?

Cavabı çox sadə oldu: “Bir ana, nənə kimi hər yerdə uşaqların gülüş səslərini eşitmək istəyirəm. Arzulayıram ki, həm qızlar, həm oğlanlar kiçik yaşlarından komanda idman növləri ilə məşğul olsunlar. Onlar komanda şəklində hər bir işin öhdəsindən gəlməyin necə rahat olduğunu başa düşəcəklər. Artıq qızların da oğlanlar kimi, bütün idman növlərinə maraq göstərməsi yaxşı haldır. Bəzi komanda idman növlərində isə qızlarımız çox fəallıq nümayiş etdirirlər. İndi həyat çox dəyişib. Bunları görməmək mümkün deyil”.

XXI Olimpiya oyunlarının (1976, Monreal) çempionu, SSRİ çempionatının gümüş (1970–74, 1976–77), bürünc (1965, 1978, 1980, 1982-1984), SSRİ Xalqları Spartakiadasının gümüş (1974) və bürünc mükafatçısı (1975-1979) Rəfiqə Şabanova idmançı karyerasını başa vurduqdan sonra məşqçiliklə məşğul olub, həmçinin Azərbaycanın qadınlardan ibarət millisinin baş məşqçisi vəzifəsində çalışıb. Hazırda fəaliyyətini Azərbaycan Həndbol Federasiyasının vitse-prezidenti kimi davam etdirir.

***Leyla QURBANOVA***
***XQ***



## Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin 2023-cü il yanvarın 1-nə mühasibat balansı

*ma a la*

| AKTİVLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | 5.424.791,14 | 5.664.758,00 |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | 0,00 | 0,00 |
| **Daşınmaz əmlaka investisiyalar** | 0,00 | 0,00 |
| **Qeyri-maddi aktivlər** | 393.235,00 | 161.878,00 |
| **Təxirə salınmış vergi aktivləri** | 0,00 | 0,00 |
| **Uzunmüddətli debitor borcları** | 0,00 | 0,00 |
| **Uzunmüddətli maliyyə aktivləri:** | 4.544.193,00 | 3.145.792,00 |
| dövlət qiymətli kağızları | 4.544.193,00 | 3.145.792,00 |
| qeyri-dövlət qiymətli kağızları | 0,00 | 0,00 |
| sair maliyyə aktivləri | 0,00 | 0,00 |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | 0,00 | 0,00 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | 0,00 | 0,00 |
| **Sair aktivlər** | 400.000,00 | 400.000,00 |
| ***Cəmi uzunmüddətli aktivlər*** | 10.762.219,14 | 9.372.428,00 |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | 0,00 | 0,00 |
| **Debitor borcları:** | 133.992,00 | 281.259,00 |
| birbaşa sığorta üzrə | 34.969,00 | 171.726,00 |
| **təkrarsığorta əməliyyatları üzrə :** | 99.023,00 | 109.533,00 |
| - təkrarsığortaçı üzrə | 99.023,00 | 109.533,00 |
| - təkrarsığortalı üzrə | 0,00 | 0,00 |
| asılı təşkilatlar üzrə | 0,00 | 0,00 |
| büdcə üzrə | 0,00 | 0,00 |
| iddia tələbləri üzrə | 0,00 | 0,00 |
| işçi heyəti üzrə | 0,00 | 0,00 |
| sığortalılara verilən borclar üzrə | 0,00 | 0,00 |
| sair debitorlar | 0,00 | 0,00 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | 18.345.411,00 | 5.495.230,26 |
| kassa | 0,00 | 0,00 |
| hesablaşma hesabı | 9.629.118,91 | 5.473.229,32 |
| valyuta hesabı | 16.292,09 | 22.000,94 |
| depozit hesablar | 8.700.000,00 | 0,00 |
| sair pul vəsaitləri | 0,00 | 0,00 |
| **Qısamüddətli maliyyə aktivləri:** | 0,00 | 0,00 |
| dövlət qiymətli kağızları | 0,00 | 0,00 |
| qeyri-dövlət qiymətli kağızları | 0,00 | 0,00 |
| sair maliyyə aktivləri | 0,00 | 0,00 |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | 4.506.823,44 | 536.831,08 |
| həyat sığortası sahəsi üzrə | 0,00 | 0,00 |
| qeyri-həyat sığortası sahəsi üzrə | 4.506.823,44 | 536.831,08 |
| **Sair qısamüddətli aktivlər:** | 150.472,66 | 0,00 |
| gələcək hesabat dövrlərinin xərcləri | 150.472,66 | |
| verilmiş avanslar | 0,00 | 0,00 |
| təhtəl hesablar | 0,00 | 0,00 |
| **Sair aktivlər** | 480.435,00 | 162.569,00 |
| ***Cəmi qısamüddətli aktivlər*** | 23.617.134,10 | 6.475.889,34 |
| **CƏMİ AKTİVLƏR** | 34.379.353,24 | 15.848.317,34 |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **İlin əvvəlinə** | **Hesabat dövrünün sonuna** |
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 9.000.000,00 | 9.000.000,00 |
| **Emissiya gəliri** | 0,00 | 0,00 |
| **Geri alınmış kapital (səhmlər)** | 0,00 | 0,00 |
| **Kapital ehtiyatları:** | 4.985.238,00 | 4.642.877,00 |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | 4.985.238,00 | 4.642.877,00 |
| digər kapital ehtiyatları | 0,00 | 0,00 |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | -25.278.735,91 | -22.536.410,21 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | -29.352.645,00 | 2.301.735,70 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | 0,00 | 440.590,00 |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 4.073.909,09 | -25.278.735,91 |
| Elan edilmiş dividendlər | 0,00 | 0,00 |
| ***Cəmi kapital*** | -11.293.497,91 | -8.893.533,21 |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | 44.057.714,01 | 23.209.087,27 |
| Həyat sığortası sahəsi üzrə : | 0,00 | 0,00 |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 44.057.714,01 | 23.209.087,27 |
| **Qarşısıalınma tədbirləri fondu** | 668.627,64 | 803.716,91 |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | 0,00 | 0,00 |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | 0,00 | 0,00 |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | 0,00 | 0,00 |
| **Kreditor borcları :** | 0,00 | 0,00 |
| əməyin ödənilməsi üzrə | 0,00 | 0,00 |
| büdcə üzrə | 0,00 | 0,00 |
| sosial sığorta və təminat üzrə | 0,00 | 0,00 |
| digər məcburi ödənişlər üzrə | 0,00 | 0,00 |
| asılı təşkilatlar üzrə | 0,00 | 0,00 |
| sair kreditorlar | 0,00 | 0,00 |
| **Sair uzunmüddətli öhdəliklər:** | 0,00 | 0,00 |
| gələcək hesabat dövrünün gəlirləri | 0,00 | 0,00 |
| alınmış avanslar | 0,00 | 0,00 |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | 99.840,00 | 183.311,77 |
| təkrarsığortaçı üzrə | 0,00 | 0,00 |
| təkrarsığortalı üzrə | 99.840,00 | 183.311,77 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | 0,00 | 0,00 |
| **Sair öhdəliklər** | 0,00 | 0,00 |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | 44.826.181,65 | 24.196.115,95 |
| **III . QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | 0,00 | 0,00 |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | 0,00 | 0,00 |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | 0,00 | 0,00 |
| **Kreditor borcları:** | 846.669,50 | 513.651,40 |
| əməyin ödənilməsi üzrə | 244.381,50 | 181.387,00 |
| büdcə üzrə | 0,00 | 64.685,55 |
| sosial sığorta və təminat üzrə | 0,00 | 100.024,41 |
| digər məcburi ödənişlər üzrə | 87.286,00 | 9.582,51 |
| asılı təşkilatlar üzrə | 0,00 | 0,00 |
| sair kreditorlar | 515.002,00 | 157.971,93 |
| **Sair qısamüddətli öhdəliklər:** | 0,00 | 32.083,20 |
| gələcək hesabat dövrünün gəlirləri | 0,00 | 32.083,20 |
| alınmış avanslar | 0,00 | 0,00 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | 0,00 | 0,00 |
| **Sair öhdəliklər** | 0,00 | 0,00 |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | 846.669,50 | 545.734,60 |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | 45.672.851,15 | 24.741.850,55 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | 34.379.353,24 | 15.848.317,34 |





## LPO “Muğan Bank” ASC-nin kreditorları onlayn qaydada qeydiyyatdan keçə biləcəklər!




**Əmanətlərin Sığortalanması Fondu bankların ləğv prosesini şəffaf şəkildə həyata keçirmək, ləğv prosesində olan bankların kreditorlarını vaxtında məlumatlandırmaq, kreditorlarla əlaqələri genişləndirmək, habelə onların maraqlarını qorumaq məqsədilə daha öncə Kreditorların Elektron Portalını ərsəyə gətirmiş və ictimaiyyətə təqdim etmişdi.**

Bildiyiniz kimi, Bakı Apellyasiya Məhkəməsinin 24 oktyabr 2023-cü il tarixli 2-3(103)-54/2023 saylı qərarı ilə “Muğan Bank” ASC müflis elan edilmiş, iflas proseduruna başlanılmış və Əmanətlərin Sığortalanması Fondu Bankın ləğvedicisi təyin olunmuşdur. Qeyd edək ki, 27 oktyabr 2023-cü il tarixdən etibarən ləğv prosesində olan “Muğan Bank” ASC-yə qarşı tələblərin yazılı şəkildə qeydə alınmasına başlanılmışdır.

Məlumat üçün bildiririk ki, məhz ləğv prosesində olan “Muğan Bank” ASC-nin kreditorları artıq Kreditorların Elektron Portalı vasitəsilə tələblərini onlayn qaydada qeydiyyatdan keçirə biləcəklər. Belə ki, ləğv prosesində olan “Muğan Bank” ASC-nin kreditorları axtarış sistemində public.adif.az yazaraq portala “ASAN Login”dən istifadə etməklə daxil ola bilərlər. Portala daxil olan hər bir istifadəçi ləğv prosesində olan “Muğan Bank” ASC-nin “Kreditor qeydiyyatı” bölməsinə daxil olub əlavə olunacaq sənəd və məlumat xanalarını düzgün şəkildə doldurduqdan sonra tələbinin qeydiyyatını tamamlaya bilər. Tələbin qeydiyyatı tamamlandıqdan sonra tələbini qeydiyyatdan keçirən şəxsin mobil telefon nömrəsinə tələbin qeydiyyatının statusu haqqında məlumatı əks etdirən sms daxil olacaq. Habelə tələbin qeydiyyatının statusu barədə məlumat portalın “Sorğularım” bölməsinə daxil olmaqla da əldə edilə bilər. Kreditorlar həftənin 7 günü, günün 24 saatı, heç yerə getmədən, vaxtlarına qənaət edərək onlayn qaydada portala daxil olub ləğv prosesində olan banka qarşı tələblərini qeydiyyatdan keçirə bilərlər.

"Banklar haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, müflis banka qarşı tələblər bankın müflis elan olunmasına dair məhkəmə qərarının mediada ilk dəfə dərc edildiyi gündən 60 təqvim günü ərzində ləğvedici tərəfindən yazılı şəkildə qeydə alınmalıdır.

Ləğv prosesində olan “Muğan Bank” ASC–nin kreditorlarından 25 dekabr 2023-cü il tarixədək tələblərini Kreditorların Elektron Portalından istifadə etməklə və ya bankın aşağıda qeyd edilmiş ünvanda yerləşən Baş ofisinə yaxınlaşmaqla qeydiyyatdan keçirmələri xahiş olunur.

Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Əhməd Rəcəbli 21B.
Əlaqə: (+994) 941.





## BİLDİRİŞ

“Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti” Publik Hüquqi Şəxs tərəfindən Zəngilan şəhərində yerləşən yaşayış məhəlləsinin tikintisi işlərinin satın alınması məqsədilə keçirilən açıq tenderdə ixtisas göstəricilərinə aid sənədlərin (tender təklifi və bank təminatı istisna olmaqla) təqdim edilmə tarixi 15 noyabr 2023-cü il saat 16.00-a, tender təklifi və bank təminatının təqdim edilmə tarixi 23 noyabr 2023-cü il saat 16.00-a, tender zərflərinin açılış tarixi isə 24 noyabr 2023-cü il saat 16.00-a qədər uzadılmışdır.

***Tender komissiyası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 238 (30354) 31 oktyabr 2023-cü il, çərşənbə axşamı

İdman xəbərləri

## Yunan-Roma güləşi – 3 medal

**Yunan-Roma güləşçilərimiz U-23 dünya çempionatının son günündə 1 gümüş, 2 bürünc medal qazanıblar.**




Albaniyanın paytaxtı Tiranada keçirilən mundialın son günündə Fərid Sadıxlı (55 kq) bürünc medal uğrunda görüşdə rumıniyalı Denis Florinə tam üstünlüklə (10:0) qalib gələrək dünya üçüncüsü olub.

Xasay Həsənli (77 kq) 1/8 finalda macarıstanlı Attila Toeşmaqiyə (9:1), 1/4 finalda hindistanlı Dipak Puniyaya (tuş), yarımfinalda isə gürcüstanlı Xviçe Ananidzeyə (9:0) tam üstünlüklə finala yüksəlib. Həlledici görüşdə moldovalı Aleksandrin Qutuyla qarşılaşan Xasay 1:3 hesabıyla uduzub və U-23 dünya çempionatını gümüş medalla başa vurub.

Komandamızın digər üzvü Sərxan Məmmədov (130 kq) bürünc medal uğrunda görüşdə yunanıstanlı Apostolos Tsivolosa heç bir şans verməyib və 10:0 hesablı qələbə ilə fəxri kürsünün 3-cü pilləsinə yüksəlib.

## Qılıncoynatma – 1 medal

**Türkiyənin İstanbul şəhərində keçirilən beynəlxalq turnirdə yeniyetmə qılıncoynadanlarımız uğurla çıxış edərək gümüş medal qazanıblar.**




Azərbaycan Qılıncoynatma Federasiyasından "XQ"yə bildirilib ki, Abbas Hüseynov, Rəsul Əliyev, Timur Husnaddinov və Murad Muradovdan ibarət yığmamız ilk görüşdə Almaniya komandasına 45:28 hesabı ilə qalib gələrək ən güclü "səkkizliy"ə düşüb. Millimiz finala gedən yolda Türkiyənin üçüncü komandasını, eləcə də Gürcüstan ilə Fransa sablyaçılarının birgə təmsil olunduğu kollektivləri, müvafiq olaraq 45:44 və 45:38 hesabı ilə məğlub edib. Həlledici görüşdə Türkiyə millisinə 30:45 hesabı ilə uduzan yığmamız gümüş medalla kifayətlənib.

## Stolüstü tennis – 8 medal




**Latviyanın paytaxtı Riqada keçirilən "Riga City Council's Youth Cup" turnirində Azərbaycanın stolüstü tennisçiləri 8 medal qazanıblar.**

Qızıl medalı yığmamızın aktivinə Aylin Əsgərova yazdırıb. Adil Əhmədzadə və Tunar Bağırov gümüş medala sahib olublar. Xədicə Eylazova, Zemfira Mikayılova, Arzu Aslanova və Adil Əhmədzadə isə 3-cü yeri tutublar.

*Leyla SABİRQIZI*
*XQ*

Poeziya

# Daşkənddə Azərbaycanın Xalq şairi ilə görüş



**Özbəkistan Yazıçılar İttifaqının rəhbərliyinin dəvəti ilə Daşkənddə olan Azərbaycanın Xalq şairi Vahid Əzizlə görüş keçirilib. Özbəkistan Yazıçılar İttifaqında baş tutan tədbirdə ədəbiyyat, mədəniyyət və incəsənət xadimləri, şair və yazıçılar, oxucular iştirak ediblər.**

Özbəkistan Yazıçılar Birliyinin sədr müavini, şair Qayrat Məcid qonaqları salamlayaraq, Azərbaycanın Xalq şairi Vahid Əzizin Özbəkistana səfərinin bütün poeziyasevərlər üçün əlamətdar hadisə olduğunu qeyd edib. Zəngin ənənələrə malik Azərbaycan poeziyasının Özbəkistanda bu gün də çox sevildiyini qeyd edən natiq belə görüşlərin ədəbi əlaqələrin genişlənməsinə təsir göstərdiyini vurğulayıb.

Professor Nurbay Cabbarov, Özbəkistanın tanınmış şairəsi Xasiyyət Rüstəm iki ölkə arasında ədəbi əlaqələrdən söz açaraq ruhən yaxın olan bu iki xalqın poetik zövqlərinin də eyni olduğunu vurğulayıblar.

Alim və tərcüməçi Babaxan Şərif iki qardaş xalqın poeziyası arasında oxşar cəhətlərdən söz açaraq, qarşılıqlı tərcümələrin, xüsusi ilə də ikidilli nəşrlərin hər iki poeziyada yeni üslub, məna rəngarəngliyinə səbəb olduğunu qeyd edib.

Tanınmış yazıçı-dramaturq Kuçkar Norkabil iki ölkə arasında ədəbi əlaqələrin inkişafı üçün qarşılıqlı səfərlərin, tərcümələrin, birgə konfrans, seminar, simpozium, forumların keçirilməsinin faydalı olduğunu bildirib. Özbəkistanda Azərbaycan ədəbiyyatına, poeziyasına böyük sevgi və rəğbətin olduğunu deyən natiq özbəkistanlı şair və yazıçıların Azərbaycanda da eyni coşqu ilə qarşılandığını vurğulayıb.

Xalq şairi Vahid Əziz görüşün təşkili üçün Özbəkistan Yazıçılar İttifaqına öz təşəkkürünü bildirib. Sonuncu dəfə təxminən qırx il bundan öncə Özbəkistanda olduğunu söyləyən şair bu səfərdən məmnun qaldığını deyib, özbək poeziyasevərləri ilə görüşün əhəmiyyətli olduğunu qeyd edib, belə görüşlərin müntəzəm olaraq həm Daşkənddə, həm də Bakıda keçirilməsinin vacibliyini diqqətə çatdırıb.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin xüsusi müxbiri*
**Daşkənd**

Texnologiya yenilikləri

## Mask "X"i tanışlığa yönəldir

**Məşhur iş adamı İlon Mask "X" sosial şəbəkəsini tanışlıq saytına çevirmək niyyətindədir. O, bu barədə oktyabrın 26-da keçirilən videokonfransda məlumat verib. Sahibkar "X"in tanışlıq proqramına necə çevriləcəyini hələ ki açıqlamayıb.**




Xatırladaq ki, İlon Mask "X" sosial şəbəkəsini (keçmiş "Twitter") 44 milyard dollara ötən il satın alıb. O, əslən Cənubi Afrika Respublikasındandır. "SpaceX", "Tesla", "The Boring Company", "Neuralink" və "OpenAI" şirkətlərinin həmtəsisçisidir. "Forbes" jurnalının hesablamalarına görə, Mask hazırda dünyanın ən varlı adamıdır.

*Ayan NƏCƏF,*
*tələbə-jurnalist*

## "Togg"ların yubiley paradı



**Türkiyənin ilk yerli elektromobili olan "Togg" istifadəçiləri Cümhuriyyətin yaranmasının 100-cü ildönümünü Yavuz Sultan Səlim körpüsündə qeyd ediblər.**

"TRT Haber"xəbər verir ki, Türkiyənin hər yerindən yüzlərlə "Togg" istifadəçisi öz maşını ilə bu bayramı qeyd etmək üçün İstanbula gəlib.

Xatırladaq ki, TOGG qardaş ölkənin yeni avtomobil brendidir. Ötən il istehsalına başlanılmasına baxmayaraq, artıq dünyada özünə çoxlu müştəri qazana bilib.

*Fidan YAQUBLU*
*XQ*

*✓ 2019-cu il noyabrın 20-də Ədliyyə Akademiyası tərəfindən İsayeva-Məmmədova Aydan Tofiq qızının adına verilmiş ƏA 0093 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

Hava



## Hava mülayim, amma dumanlı olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, oktyabrın 31-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim cənub-şərq küləyi əsəcək. Gecə 13-16°, gündüz 20-25° isti olacaq. Atmosfer təzyiqi 772 mm civə sütunundan 769 mm civə sütununa enəcək, nisbi rütubət gecə 80-90, gündüz 55-65 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-17°, gündüz 20-25°, dağlarda gecə 5-10°, gündüz 12-17° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

# Abbas Səhhət təbəssümü

### Nikolayın borşuna xidmət



Abbas Səhhətin yaxın dostu Mirzə Ələkbər Sabir Bakı məktəblərinin birində müəllimlik etmək istəyirmiş. A.Səhhət onun işə düzəlməsi üçün ozamankı maarif məmuruna müraciət edir. Təhsil müfəttişi acıqlı halda deyir:

– Xahiş edirəm, mənim üçün millət-filan söhbətini açmayasınız. Mən Nikolayın borşu ilə kotletinə qulluq edirəm.

A.Səhhət əsəbiləşir və ikibaşlı deyir:

– Biz sizin nələr yediyinizi yaxşı bilirik. Xatırlatmasanız da olar.

### "Qeyrətli" quldurlar



1911-ci ildə Şamaxıda maddi çətinlik ucbatından 7-ci sinfin şagirdləri məktəbə getmir. Dövlət də yardım etməyi üzərindən atır. A.Səhhət məsələni bilib bir neçə dostu ilə pul toplamaq məqsədilə ətraf kəndlərə çıxır. Bir xeyli pul toplayıb qayıdanda Şərəddin meşəliyində 4 nəfər əlitüfəngli onların yolunu kəsir və faytondan düşürürlər. Onlardan kim olduqlarını soruşurlar.

Şair deyir ki, biz burada sizin ixtiyarınızdayıq. Amma icazə verin, məqsədimizi deyək. Sonra o, kim olduqlarını, nə məqsədlə kəndləri dolaşdıqlarını deyir:

– Mən həkiməm, yoldaşlarım da hörmətli adamlardır. Oxumaq istəyən uşaqlar üçün bu yola çıxmışıq. Onların ehtiyaclarını ödəyəcək qədər pul toplamışıq. İstəyirik ki, onlar oxuyub elmli olsunlar, el-obanın dərdinə qalsınlar. İndi necə istəyirsiniz, elə edin.

Bu sözdən sonra yolkəsənlər utanır və deyirlər:

– Həkim, sözləriniz bəsdir. Üzr istəyirik, yolunuza davam edin.

A.Səhhət və dostları təzədən faytona əyləşir və Şamaxıya yollanırlar.

### "Dua yazmaq neylər yağa?"



Abbas Səhhətin atası Molla Əliabbas da şair imiş. "Əfşan" təxəllüsü ilə şeirlər yazırmış. Bir dəfə yaxın dostlarından birinin xanımı nehrədə yağ çalxalaya bilməməsindən şikayətlənib ondan dua yazmağı xahiş edir. Molla Əliabbas ona dua əvəzinə, kağıza bir beyt şeir yazıb göndərir:

*Anam-bacım, xanım ağa,*
*Dua yazmaq neylər yağa?*
*Sən özünü bərk bas yerə,*
*Otur nehrə çalxalamağa.*

*Z.HÜSEYNLİ*
*XQ*

## Beyində "anonim" siqnallar

***ABŞ-ın Vanderbilt Universitetinin tədqiqatçıları insan beyninin sol yarımkürəsindəki ağ maddədən qəribə siqnalların gəldiyini üzə çıxarıblar. Bu siqnalların təbiəti, hələlik, naməlum qalır.***



Bu vaxta qədər elmi tədqiqatlarda bir qayda olaraq beynin boz maddəsinə diqqət yetirilirdi. Çünki oradakı sinir hüceyrələri insanın danışıq, qavrama, hiss və hərəkət qabiliyyəti ilə bağlıdır. Ağ maddə isə özlüyündə birləşdirici material sayılıb. O, aksion adlanan strukturlardan ibarətdir ki, onlar beyin hüceyrələrinin həm bir-biri ilə, həm də digər hissələrlə bağlantısına cavab verir.

Ağ maddənin siqnalları xeyli zəif və çətin aşkar ediləndir. Yeni tədqiqatın müəllifləri bu məsələni daha ətraflı öyrənmək qərarına gəliblər. Bundan ötrü alimlər bir qrup könüllüdən konkret hərəkətləri yerinə yetirməyi xahiş ediblər. Əldə edilən nəticə bütün gözləntiləri arxada qoyub.

*İ.HƏSƏNQALA*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Vasif Kərimov ailəsi ilə birlikdə tanınmış etnoqraf

**EMİL KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4795
SİFARİŞ 2841
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00